Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Birinci sessiya
Payız

9-cu cild

25 noyabr 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

**YEDDİNCİ ÇAĞIRIŞ
AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
I SESSİYASI İCLASININ**

# PROTOKOLU № 10

*Milli Məclisin iclas salonu.*
*25 noyabr 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 115 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 112 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Əli Əsədov**, Azərbaycan Respublikasının Baş naziri.

**Şahin Mustafayev**, Azərbaycan Respublikası Baş nazirinin müavini.

**Fərid Əhmədov**, Azərbaycan Respublikasının ədliyyə naziri.

**Samir Şərifov**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Mikayıl Cabbarov**, Azərbaycan Respublikasının iqtisadiyyat naziri.

**Sahil Babayev**, Azərbaycan Respublikasının əmək və

əhalinin sosial müdafiəsi naziri.

**Məcnun Məmmədov**, Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri.

**Emin Əmrullayev**, Azərbaycan Respublikasının elm və təhsil naziri.

**Teymur Musayev**, Azərbaycan Respublikasının səhiyyə naziri.

**Rəşad Nəbiyev**, Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri.

**Pərviz Şahbazov**, Azərbaycan Respublikasının energetika naziri.

**Fərid Qayıbov**, Azərbaycan Respublikasının gənclər və idman naziri.

**Vüqar Mustafayev**, Azərbaycan Respublikasının müdafiə sənayesi naziri.

**Ceyhun Cəlilov**, Naxçıvan Muxtar Respublikasının Baş naziri.

**Şahin Bağırov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri.

**Bahar Muradova**, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri.

**Rövşən Rzayev**, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri.

**Anar Quliyev**, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri.

**Qoşqar Təhməzli**, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri.

**Fuad Nağıyev**, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri.

**Zaur Mikayılov**, Azərbaycan Dövlət Su Ehtiyatları

Agentliyinin sədri.

**Taleh Kazımov**, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin sədri.

**İsrafil Məmmədov**, Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru.

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Rəşad İsmayılov**, Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin birinci müavini.

**Anar Əliyev**, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.

**Tapdıq Əmiraslanov**, Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini.

**Fərid Cəfərov**, Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini.

**Yusif Yusifov**, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini.

**Elşad Əliyev**, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini.

**Gündüz İsmayılov**, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini.

**Nigar Bayramova**, Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini.

**Rüfət Məmmədov**, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri.

**Ələsgər Ələsgərov**, Azərbaycan Respublikası Baş nazirinin Katibliyinin rəisi.

**Sevinc Həsənova**, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının İqtisadiyyat şöbəsinin müdiri.

**Zakir Paşayev**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri.

**İbrahim Məmmədov**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri.

**Elman Rüstəmov**, Azərbaycan Respublikası Baş nazirinin müşaviri.

**Fəxri İsmayılov**, Azərbaycan Respublikası Baş nazirinin köməkçisi.

**İlkin Vəliyev**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəisinin müavini.

**Xaqani Abdullayev**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müşaviri.

**Yalçın Əzizov**, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri.

**Elvin Camalov**, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri.

**Fazil Fərəcov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Fikrət Şirinov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Nəsir Sadıqov**, Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müavini.

**Gülnar Hacıyeva**, Azərbaycan Respublikası Hesablama Palatası Aparatının Dövlət büdcəsi və strateji təhlil şöbəsinin müdiri.

**Vüqar Əhmədov**, Azərbaycan Respublikası Mərkəzi Bankının baş direktoru.

**Vüsal Qasımlı**, Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

2. Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

3. İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

4. Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

5. Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

6. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

7. “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

8. “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. “Sosial sığorta haqqında”, “Tibbi sığorta haqqında” və “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublika-

sının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

12. Azərbaycan Respublikası Hesablama Palatasının 2025-ci il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.08 dəq.) |
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Samir Şərifov, Mikayıl Cabbarov, Taleh Kazımov, Vüqar Gülməmmədov, Siyavuş Novruzov, Əli Hüseynli, Əhliman Əmiraslanov, Fazil Mustafa, Zahid Oruc, Heydər Əsədov, Tahir Mirkişili, Vüqar Bayramov, Sahib Alıyev, Tahir Rzayev, Kamal Cəfərov, Jalə Əliyeva, Tural Gəncəliyev, Cavanşir Paşazadə, Aydın Mirzəzadə, Razi Nurullayev, Sadiq Qurbanov, Naqif Həmzəyev

**Təklif:** Çıxışlar 7 dəqiqə olsun

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 15.13 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*25 noyabr 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Hörmətli cənab Baş nazir və hökumət üzvləri, sizin hamınızı salamlayıram. Hörmətli deputatlar və media nümayəndələri, xoş gördük.

Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 112 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli cənab Baş nazir və hökumət üzvləri, hörmətli deputatlar, bildiyiniz kimi, iki gün öncə Bakıda Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası uğurla başa çatdı. Hesab edirəm ki, tədbirin iqlim dəyişmələri probleminin həlli üçün göstərilən qlobal səylərə

verdiyi töhfələr haqqında hələ çox danışılacaq. Bəşəriyyətin gələcəyi ilə bağlı olan bu dünya miqyaslı tədbiri ən yüksək səviyyədə keçirməklə Azərbaycan istər regional, istərsə də qlobal iqlim problemlərinin həllində lider imicini möhkəmləndirdi və yeni mötəbər toplantıların keçirilməsi imkanlarını daha da artırdı.

Hörmətli həmkarlar, COP29 çərçivəsində noyabrın 16-da və 17-də Parlamentlərarası İttifaq və Azərbaycan Respublikası Milli Məclisinin birgə təşkilatçılığı ilə Parlament Görüşü keçirildi. Tədbirdə milli parlamentləri, parlamentlərarası təşkilatları, habelə müxtəlif təsisatları təmsil edən 67 ölkədən 95 nümayəndə heyəti, başqa sözlə, 345 nəfər parlament təmsilçisi iştirak etdi.

Görüşün açılışında etdiyim çıxışda mən bir tezisi xüsusi ilə vurğuladım. Bildirdim ki, Azərbaycan hələ COP29-a ev sahibi seçilməzdən xeyli əvvəl möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə iqlimlə bağlı fəaliyyəti, "yaşıl gündəliyi" öz milli planlarının mərkəzinə yerləşdirib.

Ölkəmiz könüllü öhdəliklər götürərək, bərpa olunan enerji layihələri həyata keçirərək və "yaşıl enerji zonaları" yaradaraq gələcək inkişaf yolunda əzm və qətiyyət nümayiş etdirib. Həmçinin qeyd etdim ki, bilik, təcrübə və qabaqcıl praktika mübadiləsi sahəsində parlament əməkdaşlığı xüsusi əhəmiyyət kəsb edir. Biz qanunvericiliyimizi daha da təkmilləşdirməli, hökumətlərimizi öz səylərini daha yaxşı səfərbər etməyə təşviq etməliyik.

Onu da deyim ki, Parlament Görüşü çərçivəsində yeddi sessiya keçirilmişdir.

Hörmətli həmkarlar, qeyd edim ki, tədbir zamanı Azərbaycan Respublikasının Milli Məclisi ilə Tolerantlıq və Sülh naminə Beynəlxalq Parlament arasında Anlaşma

Memorandumu imzalandı.

COP29-da və Parlament Görüşündə iştirak etmək üçün Bakıya gəlmiş beynəlxalq parlament təşkilatlarının, bir sıra parlamentlərin sədrləri ilə Milli Məclisdə 15 ikitərəfli görüş keçirildi. Onlardan Parlamentlərarası İttifaqın prezidenti və Baş katibi, ATƏT-in Parlament Assambleyasının vitse-prezidenti, Aralıq dənizi Parlament Assambleyasının prezidenti, Millətlər Birliyinin Baş katibi Baronessa Skotland, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının 76-cı Baş naziri xanım Tereza Mey, Albaniya, Özbəkistan, Tacikistan, Tonqa, Zimbabve parlamentlərinin sədrləri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri və üzvləri və digər ali vəzifəli şəxslər ilə söhbətlərdə COP29-un və Parlament Görüşünün uğurlu təşkili, bu tədbirlərdə müzakirələr ilə bağlı fikir mübadiləsi aparıldı.

Həmsöhbətlərimə regionda vəziyyət, Azərbaycanın reallıqları, ölkəmizin işğaldan azad olunmuş ərazilərində görülən işlər, o cümlədən həyata keçirilən "yaşıl enerji" layihələri barədə geniş məlumat verdim. Qarşılıqlı maraq doğuran digər məsələlər də nəzərdən keçirildi.

Hörmətli deputatlar, mən sizə Milli Məclis sədrinin başçılığı ilə nümayəndə heyətinin noyabrın 20-dən 22-dək Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfəri barədə də qısa məlumat vermək istərdim. Qeyd edim ki, səfərdə məqsəd MDB Parlamentlərarası Assambleyasının Şura və 57-ci Plenar iclaslarında iştirak etmək idi.

Noyabrın 21-də Assambleyanın Şura iclasında bir sıra təşkilati məsələlər ilə yanaşı, sentyabrın 1-də Azərbaycanda keçirilmiş növbədənkənar parlament seçkilərini müşahidə edən MDB Parlamentlərarası Assambleyası missiyasının yekun rəyi də müzakirə edildi. Mən öz çıxışımda bu ilin

fevralında keçirilmiş prezident seçkilərindən sonra Milli Məclisə seçkilərin ölkəmizin bütün suveren ərazisində keçirilən ilk parlament seçkiləri olduğunu xüsusi ilə qeyd etdim.

Hörmətli həmkarlar, noyabrın 22-də MDB-yə üzv dövlətlərin Parlamentlərarası Assambleyasının 57-ci plenar iclası keçirildi. İclasda etdiyim çıxışda mən Prezident İlham Əliyevin xüsusi diqqəti və dəstəyi ilə Bakıda keçirilən COP29 haqqında, eləcə də Parlamentlərarası İttifaqın və Milli Məclisin birgə təşkilatçılığı ilə keçirilmiş Parlament Görüşü barədə geniş məlumat verdim.

Bildirdim ki, iki gün davam edən görüş və onun yekun sənədi iqlim dəyişikliyi ilə mübarizədə parlamentlərin ümumi mövqeyinin ifadəsi idi. Onu da qeyd edim ki, MDB Parlamentlərarası Assambleyasının tədbirləri çərçivəsində Assambleyanın komissiyalarının iclasları keçirildi. Həmin iclaslarda bizim deputatlarımız fəal iştirak etdilər.

Hörmətli həmkarlar, Sankt-Peterburq şəhərinə səfər çərçivəsində Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko və Belarus Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanova ilə ikitərəfli görüşlər də keçirildi.

Nümayəndə heyətinin hər bir üzvünə mən öz minnətdarlığımı bildirirəm.

Hörmətli deputatlar, mənim demək istədiklərim bu qədər. Diqqətinizə görə təşəkkür edirəm.

Hörmətli xanımlar və cənablar! Xatırladım ki, bu gün ölkəmizdə Kəlbəcər şəhəri günü qeyd edilir. Bu münasibətlə mən sizi ürəkdən təbrik edirəm.

Hörmətli həmkarlar, gündəlik sizə paylanıb. Xahiş edirəm, gündəliyə münasibət bildirin. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.08 dəq.) |
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə 12 məsələ var. Bu məsələlərin 10-u dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələridir. Qeyd edim ki, qanun layihələrinin hamısı birinci oxunuşda müzakirə ediləcək. Ona görə də yenə sizdən xahiş edirəm, birinci oxunuşun tələblərini nəzərə alasınız.

Biz indi gündəliyin 1-ci məsələsinə keçirik. Bu məsələ Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında qanun layihəsidir.

Hörmətli cənab Baş nazir və hökumət üzvləri!

Hörmətli deputatlar!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin inkişaf strategiyası ölkə iqtisadiyyatının dinamik inkişafını təmin edir. Ardıcıl həyata keçirilən düşünülmüş islahatlar və strateji təşəbbüslər sayəsində Azərbaycan iqtisadi artım templərini qoruyub saxlamış, regionun lider dövləti kimi mövqelərini daha da möhkəmləndirmişdir.

Bu il iqtisadiyyatın əsas sektorlarında mühüm uğurlar müşahidə edilir. Azərbaycan qlobal enerji təhlükəsizliyinin təmin edilməsində önəmli rol oynayır. Bununla yanaşı, ölkəmiz COP29 konfransı ilə əlaqədar, bayaq da qeyd etdiyim kimi, "yaşıl enerji"yə keçid sahəsində iri-

miqyaslı layihələr həyata keçirir. Qeyri-neft sektoruna, xüsusən kənd təsərrüfatı, turizm və texnologiyalar kimi sahələrə böyük diqqət yetirilməsi ölkəmizin iqtisadi müstəqilliyini daha da möhkəmləndirir və inkişaf perspektivlərini genişləndirir.

Azad edilmiş ərazilərin bərpası və ölkə iqtisadiyyatına yenidən inteqrasiya etdirilməsi milli gündəliyimizin ön sıralarındadır. Məqsədyönlü investisiyalar, həyata keçirilən infrastruktur, "ağıllı şəhər" və "ağıllı kənd" layihələri sayəsində Qarabağ və Şərqi Zəngəzur tərəqqi və innovasiyalar mərkəzinə çevrilir. Keçmiş məcburi köçkün soydaşlarımız doğma yurdlarına dönürlər.

Sosial sahəyə böyük əhəmiyyət verilir. İnsanların rifah halı daha da yaxşılaşdırılır, əməkhaqları və pensiyalar artırılır, keyfiyyətli səhiyyə və təhsilin əlçatanlığı təmin edilir.

Hörmətli cənab Baş nazir və hökumət üzvləri!

Hörmətli deputatlar! Qeyd edilməlidir ki, 2025-ci ilin dövlət büdcəsi iqtisadi inkişaf, dayanıqlılıq və inklüzivlik təməlləri üzərində qurulmuşdur. Büdcə iqtisadi tərəqqi ilə sosial məsuliyyətin tarazlığına əsaslanır. Dövlət büdcəsinin gəlirlərinin və xərclərinin ildən-ilə artması ölkəmizin ardıcıl və dinamik inkişafını nümayiş etdirən ən mühüm göstəricilərdir.

Məmnunluqla qeyd etmək olar ki, gələn il üçün dövlət büdcəsinin həm gəlirləri, həm də xərcləri rekord həcmdə – müvafiq olaraq 38,3 milyard manat və 41,4 milyard manata yaxın məbləğdə proqnozlaşdırılır.

2025-ci ilin dövlət büdcəsinin prioritetləri ölkənin milli təhlükəsizliyinin və müdafiə potensialının gücləndirilməsi, silahlı qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması, sosial müdafiə, təhsil, işğaldan azad

olunmuş ərazilərin bərpası və Böyük Qayıdışın həyata keçirilməsi ilə bağlı olacaq. Əminliklə söyləmək olar ki, Azərbaycan hökumətinin səmərəli fəaliyyəti gələn il büdcə siyasətinin bütün istiqamətlərində qarşıya qoyulan hədəflərin əldə olunmasına imkan yaradacaq.

Hörmətli deputatlar, 2025-ci ilin dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil olan sənədlər, siz bilirsiniz, hamınız iştirak edirdiniz, parlament komitələrinin iclaslarında geniş müzakirə olunmuş və Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir.

Qeyd etmək lazımdır ki, yaranmış ənənəyə uyğun olaraq, parlamentdə təmsil edilən siyasi partiyaların rəhbərləri və nümayəndələri İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasına dəvət olunmuşdur və iclasda onlardan kim iştirak edirdisə, hər birinə öz fikirlərini ifadə etməsi üçün şərait yaradılmışdır.

Hesablama Palatası da büdcə zərfi barəsində müsbət rəyini bildirmişdir.

Hesab edirəm ki, bizim aparacağımız müzakirələr səmərəli olacaq, burada deputatların dəyərli fikirləri və təklifləri səslənəcək, əlbəttə. Bununla əlaqədar mən millət vəkillərini müzakirələrdə fəal iştiraka dəvət edirəm.

İndi isə, hörmətli həmkarlar, biz məruzə və çıxışların ardıcıllığını müəyyən etməliyik. Əslində, elə hər dəfə birinci oxunuşda biz bunu edirik. Yenə də təklif edirəm ki, əvvəlcə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin çıxışı və maliyyə və iqtisadiyyat nazirlərinin məruzələri olsun, sonra isə biz Mərkəzi Bankın və Hesablama Palatasının məlumatlarını dinləyəcəyik. Razısınızsa, biz bunu belə edək.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun.

Daha sonra siz, hörmətli millət vəkili həmkarlarım, öz mülahizələrinizlə çıxış edəcəksiniz.

Beləliklə, mən indi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri hörmətli Azər Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun. Kürsüdən çıxış edəcəksiniz.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli deputat həmkarlar, hökumət üzvləri və media nümayəndələri. "Büdcə sistemi haqqında" Qanunun 12-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında qanun layihəsi və büdcə zərfinə daxil olan digər layihələr möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən Milli Məclisin müzakirəsinə təqdim olunmuşdur. Büdcə qanunvericiliyinə uyğun olaraq, Hesablama Palatasının rəyi də təqdim edilmişdir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin və digər komitələrin iclaslarında müvafiq dövlət orqanlarının rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə qanun layihələri konstruktiv və işgüzar atmosferdə geniş müzakirə olunmuşdur.

Milli Məclisin sədri hörmətli Sahibə xanım Qafarovanın təşəbbüsü ilə əsası qoyulmuş ənənənin davamı olaraq büdcə müzakirələrinə parlamentdə təmsil olunan siyasi partiyaların rəhbərləri və təmsilçiləri də dəvət edilmişdir.

2025-ci ilin dövlət büdcəsi layihəsini müzakirə etdiyimiz cari ildə ölkəmizin siyasi həyatı mühüm tarixi hadisələrlə yadda qalmışdır. Bakıda COP29-la bağlı mötəbər

beynəlxalq tədbirin keçirilməsi uğurla başa çatmış, ölkəmizin gücünü və qüdrətini, Prezident İlham Əliyevin beynəlxalq müstəvidə nüfuzunu, milli maraqlarımıza əsaslanan qətiyyətli və prinsipial mövqeyini bir daha təsdiq etmişdir.

Dövlət suverenliyimizin tam bərpa edildiyi bir şəraitdə ölkəmizin bütün ərazisində keçirilmiş builki prezident və parlament seçkiləri xalqımızın iradəsini, Prezident İlham Əliyevə ardıcıl dəstəyini, etimad və inamını bir daha nümayiş etdirmişdir. Hər iki seçkinin nəticələri vahid dövlət siyasətinin bundan sonra da uğurla davam etdirilməsinə təminat vermiş oldu.

Hörmətli həmkarlar, xüsusi olaraq vurğulamaq istərdim ki, 2025-ci ilin dövlət büdcəsi layihəsi, hər şeydən əvvəl, möhtərəm Prezidentimizin müəyyən etdiyi strateji vəzifələri və təşəbbüsləri, yeni dövrün çağırışlarını, milli iqtisadiyyatımızın artım və inkişaf meyillərini, milli inkişaf prioritetlərindən irəli gələn sosial-iqtisadi hədəfləri aydın bir şəkildə əks etdirir və bunların hər birinin reallaşdırılması üçün maliyyə təminatı yaradır.

Hazırlanması böyük diqqət və məsuliyyət tələb edən, ciddi və əmək tutumlu maliyyə sənədi olan büdcə zərfi, bir qayda olaraq, hökumətin və onun iqtisadi blokunun gərgin əməyi və birgə fəaliyyəti nəticəsində ərsəyə gəlir. Bu baxımdan statusundan və rütbəsindən asılı olmayaraq büdcə zərfinin tərtibində və ona rəy verilməsində böyük əməyi olan bütün həmkarlarımıza çox səmimi təşəkkürlərimizi bildiririk.

Məlum olduğu kimi, milli iqtisadiyyatımız və dövlət büdcəsi, bir qayda olaraq, qlobal iqtisadi trendlərin təsirinə məruz qalır. Aparıcı iqtisadiyyatlarda həyata keçirilən

sərt monetar siyasət, davam edən geosiyasi münaqişələr fonunda qlobal iqtisadi artım həm 2024-cü, həm də 2025-ci illərdə 3,2 faiz proqnozlaşdırılır. Dünya qiymət indekslərinin təhlili qlobal inflyasiya təzyiqlərinin, cari ildə olduğu kimi, növbəti ildə də azalacağı ehtimalını yaradır. Dünya iqtisadiyyatında artımı stimullaşdıran tədbirlərin həyata keçiriləcəyi gözlənilir.

Qeyd olunanları nəzərə alaraq, milli iqtisadiyyatımız qlobal iqtisadiyyatın yaratdığı imkanlardan faydalanmalı, qlobal riskləri isə neytrallaşdırmalıdır. Hesab edirik ki, ölkəmiz mümkün konyunktur risklərdən sığortalanmaq üçün müvafiq "təhlükəsizlik yastığı"na malikdir.

Xüsusi olaraq vurğulamaq istərdik ki, qlobal iqtisadiyyatdakı geosiyasi amillərdən doğan qeyri-müəyyənliklər fonunda növbəti ilin dövlət büdcəsi bir sıra makroiqtisadi göstəricilərlə dəstəklənir. Belə ki, ölkənin strateji valyuta ehtiyatları 73 milyard dollar təşkil edir ki, bu da cari ilin sonuna gözlənilən ümumi daxili məhsulun həcminə bərabər olmaqla 5,3 milyard dollar təşkil edən birbaşa xarici dövlət borcumuzu təxminən 14 dəfə üstələyir.

Qeyd edək ki, 2024-cü ilin 10 ayında müşahidə olunan müsbət makroiqtisadi meyillər 2025-ci il üzrə proqnozlar üçün pozitiv əsaslar yaradır. Proqnozlara görə növbəti ildə ümumi daxili məhsul 3,5 faiz, qeyri-neft-qaz ümumi daxili məhsulu 4,9 faiz artacaq. Ümumi daxili məhsulda qeyri neft-qaz sektorunun payının 68 faizdən 71,3 faizə çatacağı gözlənilir. Bu meyil iqtisadiyyatda struktur dəyişikliklərinin davam etməsini göstərir. Adambaşına ümumi daxili məhsulun 2025-ci ildə 7412 dollar təşkil edəcəyi proqnozlaşdırılır. Bu isə beynəlxalq təsnifatda Azərbaycanın yuxarı orta gəlirli ölkələr qrupunda öz yerini qoruyub

saxlaması və daha da möhkəmlətməsi deməkdir.

Növbəti il üçün inflyasiyanın səviyyəsi 4,6 faiz proqnozlaşdırılır. Mərkəzi Bankın hədəf diapazonu daxilində olan inflyasiya səviyyəsi, bir tərəfdən, sabit məzənnə rejimi ilə, digər tərəfdən də, adekvat monetar siyasətlə dəstəklənir.

Beləliklə, makroiqtisadi göstəricilərlə dəstəklənən 2025-ci ilin dövlət büdcəsi layihəsinin əsas parametrləri nədən ibarətdir.

Büdcə gəlirlərimiz 38,3 milyard manat proqnozlaşdırılır ki, bu da 2024-cü ilin proqnozu ilə müqayisədə 5,3 faiz çoxdur. Xərclər isə 41,4 milyard manat olmaqla cari ilin proqnozu ilə müqayisədə 4,1 faiz çox planlaşdırılır. Büdcə kəsirinin 3 milyard 52 milyon manat olacağı gözlənilir. Bu isə ümumi daxili məhsulun 2,4 faizini təşkil edir.

Dövlət büdcəsi gəlirlərinin 49 faizi neft, 51 faizi isə qeyri-neft gəlirlərinin hesabına formalaşacaqdır. 2025-ci il üzrə proqnozlaşdırılan dövlət büdcəsi gəlirlərinin 14,5 milyard manatı Dövlət Neft Fondundan transfertin, 15,5 milyard manatı Dövlət Vergi Xidmətinin, 6,6 milyard manatı Dövlət Gömrük Komitəsinin, 840 milyon manatı büdcə təşkilatlarının daxilolmalarının, 895 milyon manatı digər gəlirlərin payına düşür.

2025-ci ilin dövlət büdcəsi xərclərinin 60,1 faizini cari xərclər, 34,1 faizini əsaslı xərclər, 5,8 faizini dövlət borcuna xidmətlə bağlı xərclər təşkil edir. Cari və əsaslı xərclərin nisbətini sosial rifahla iqtisadi artımın balanslaşdırılması baxımından rasional və məqsədəuyğun hesab edirik. Sadəcə olaraq, cari xərclərin tamamilə, yəni 100 faizinin qeyri-neft gəlirləri hesabına maliyyələşdirilməsinə nail olmalıyıq. Hazırda bu göstərici 79 faiz təşkil edir.

Hörmətli həmkarlar, ötən illərdə olduğu kimi, 2025-ci ildə də büdcənin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı olacaqdır. Sosial yönümlü xərclərin 8,8 faiz artırılaraq 16,9 milyard manata çatması və dövlət büdcəsi xərclərinin 41 faizini təşkil etməsi sosial siyasətin prioritetliyini ifadə edir. Büdcə zərfinə daxil olan sosial paketin təhlili göstərir ki, şəhid ailələrinin, qazilərin, müharibə veteranlarının sosial müdafiəsi sahəsində dövlət siyasəti, onlara dövlətin diqqət və qayğısı növbəti ildə də davam etdiriləcəkdir.

Eyni zamanda, çoxşaxəli artımları nəzərdə tutan sosial tədbirlər paketi həyata keçiriləcək. Gələn il minimum əməkhaqqının və minimum pensiyanın artırılması, eyni zamanda, sosial müavinətlər və təqaüdlər istiqamətində addımların atılması, pensiyaların indeksləşdirilməsi planlaşdırılır. Ümumilikdə, sosial paket 3 milyon insanı əhatə edəcəkdir.

Əhalinin rifahı ilə bağlı dövlət siyasəti özünü büdcənin təkcə sosial deyil, digər xərc istiqamətlərində də büruzə verir. Məsələn, iqtisadi fəaliyyətlə bağlı xərclərdə bir sıra dövlət şirkətlərinə subsidiyaların nəzərdə tutulmasının əsas səbəblərindən biri vətəndaşlara göstərilən bəzi xidmətlərin tariflərinin aşağı həddə saxlanılmasıdır. Dövlətin vətəndaşa dəstəyi və qayğısı əhalinin həssas sosial qrupları üçün ümumi məbləği 591 milyon manatdan çox olan vergi güzəştlərində də ifadə olunur.

Ötən illər ərzində ölkəmizdə sosial və iqtisadi siyasətin əlaqələndirilməsi və uzlaşdırılması Prezident İlham Əliyevin müəyyən etdiyi əsas prinsip olaraq uğurlu şəkildə həyata keçirilmişdir. Bunun nəticəsidir ki, 2003–2023-cü illər ərzində dövlət büdcəsi xərclərinin təxminən

30 dəfə, ümumi daxili məhsulun real ifadədə 3,6 dəfə, investisiyaların 4,4 dəfə artımı fonunda Azərbaycanda yoxsulluğun səviyyəsi 44,7 faizdən 5,2 faizə, işsizliyin səviyyəsi 9,2 faizdən 5,5 faizə endirilmişdir.

Büdcə layihəsi və müvafiq proqnozlar hazırlanarkən "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda müəyyən edilmiş məqsədlər və hədəflər nəzərə alınmışdır. 2025-ci ilin dövlət büdcəsi layihəsində iqtisadi strategiyanın icrası üçün 2,5 milyard manat vəsait nəzərdə tutulmuşdur. Dövlət büdcəsi iqtisadi strategiyanın reallaşmasına maliyyə təminatı yaratdığı kimi, inanırıq ki, iqtisadi strategiyanın icrası da iqtisadi artıma, investisiya fəallığına töhfə verməklə büdcənin dayanıqlığını dəstəkləyəcəkdir.

Postmüharibə dövründə Qarabağ və Şərqi Zəngəzurda bərpa və yenidənqurma işləri əsas prioritetlərdəndir. Növbəti ilin dövlət büdcəsi layihəsində bu məqsədlər üçün 4 milyard manat nəzərdə tutulub. Bu vəsait ortamüddətli dövrdə iqtisadi artıma, qeyri-neft iqtisadiyyatının inkişafına, məşğulluğa öz töhfəsini verəcəkdir.

Hörmətli həmkarlar, xüsusi olaraq vurğulamaq lazımdır ki, gələn ilin dövlət büdcəsi artım dinamikasına malik olan büdcədir. Təkcə onu qeyd etmək kifayətdir ki, növbəti il üçün proqnozlaşdırılan büdcə xərcləri 2003-cü illə müqayisədə 34 dəfə çoxdur.

Bir daha xatırladaq ki, Vətən müharibəsində təkcə müzəffər ordumuz, qəhrəman əsgərimiz və hərbi texnikamız döyüşmürdü, düşmənlə döyüşən həm də milli iqtisadiyyatımız, büdcəmiz idi. Bu kontekstdə bəzi müqayisələr aparaq.

2025-ci il üçün gözlənilən büdcə xərclərimiz 24,3 mil-

yard dollar olmaqla Ermənistanın və qonşu Gürcüstanın birlikdə büdcə xərclərinin cəmindən, yəni 18,8 milyard dollardan nə az, nə çox, 1,3 dəfə çoxdur.

Azərbaycanın növbəti il üzrə proqnozlaşdırılan 19,5 milyard manatlıq və ya 11,5 milyard dollarlıq qeyri-neft büdcəsi də, sosial yönümlü xərclərdən ibarət olan, məbləğcə 16,9 milyard manat və ya təxminən 10 milyard dollar təşkil edən sosial büdcəmiz də Ermənistanın 2025-ci il üçün planlaşdırdığı büdcə gəlirlərini 30–50 faiz üstələyir.

Hətta Dövlət Neft Fondunun transfertləri nəzərə alınmasa belə, büdcə gəlirlərimiz artım dinamikasına malikdir. Belə ki, transfertsiz büdcə gəlirləri 2023-cü ildə 23,5 milyard manat, 2024-cü ildə 23,6 milyard manat olduğu halda, 2025-ci ildə 23,8 milyard manat proqnozlaşdırılır.

Hörmətli həmkarlar, dövlət büdcəsi ilə bağlı bugünkü reallıqlar və çağırışlar nədən ibarətdir.

2025-ci ilin dövlət büdcəsi layihəsini müzakirə etdiyimiz bir vaxtda Azərbaycanın qeyri-standart və nadir bir dövr yaşadığını, dövlətimizin bir çox strateji hədəf və təşəbbüsləri bir arada, paralel olaraq və zaman itirmədən həyata keçirməyə çalışdığını görürük. Azərbaycan dövləti, fikrimizcə, indiyə kimi icrası eyni vaxtda üst-üstə düşən bu qədər strateji, təxirəsalınmaz və genişmiqyaslı tədbirlərin reallaşdırılması zərurəti ilə üzləşməmişdir.

Bir çox ölkələr maliyyə ehtiyaclarının artdığı bir şəraitdə büdcə qaydalarını ya yumşaldır, ya da, ümumiyyətlə, dayandırır. Lakin hökumət bütün maliyyə ehtiyaclarını, əsasən, öz daxili resursları hesabına qarşılasa da, çoxşaxəli büdcə xərcləmələrinə getsə də, büdcə qaydalarından heç də imtina etmir. Əksinə, ortamüddətli dövr üçün 2 parametrdən ibarət büdcə qaydası tətbiq edilir.

2025-ci ilin dövlət büdcəsi layihəsi tərtib edilərkən neftin qiyməti 70 dollar götürülüb. Təbii ki, neftin qiymətinin qlobal iqtisadi və geosiyasi dəyişikliklərə həssaslığını inkar etmək olmaz. Lakin xatırlatmaq istərdik ki, vaxtı ilə neftin büdcə qiyməti ayrı-ayrı dövrlərdə 25–50 dollar arasında müxtəlif proqnozlara əsaslanıb. Bununla belə, ötən illər ərzində dövlətimiz, iqtisadiyyatımız və maliyyə sistemimiz stress-testlərdən, ciddi sınaqlardan uğurla çıxmışdır. Hesab edirik ki, yeni çağırışlar fonunda milli iqtisadiyyatımızın istifadə edilməmiş imkanları və resursları hesabına potensial riskləri neytrallaşdırmaq mümkündür.

2025-ci ilin büdcə zərfinə əsasən, Dövlət Neft Fondundan dövlət büdcəsinə ayrılan transfertlər artırılaraq 14 milyard 481 milyon manat nəzərdə tutulur. Transfertlərlə bağlı birmənalı qəbul etmədiyimiz bəzi fikirlər səslənməkdədir. Sanki gələcək nəsillərə neft dollarları saxlanılmır və büdcə qaydasından kənarlaşmalara yol verilir. Sadəcə, onu vurğulamaq lazımdır ki, hazırda Dövlət Neft Fondunun aktivləri 61,3 milyard dollar təşkil etməklə ölkəmizin güclü maliyyə dayaqlarına malik olduğunu göstərir. Bu, həm də bizim maliyyə təhlükəsizliyimizin göstəricisidir. Eyni zamanda, fond öz əsas missiyasını yerinə yetirməkdə davam edir. Doğrudur, transfertin məbləği 1,7 milyard manat və ya 13,3 faiz artır. Lakin onun dövlət büdcəsi gəlirlərindəki payı 2020-ci ildəki 49,4 faizdən 2025-ci ildə 37,8 faizə kimi azalacaqdır.

Dövlətimiz neft gəlirlərini gələcək üçün qoruyub saxlamaqla yanaşı, həm də sonrakı nəsillərə köklü problemləri, böyük məbləğdə borc yükü olmayan, təhlükəsiz, güclü və dayanıqlı Azərbaycan dövləti miras qoymaq

niyyətindədir. Belə bir yanaşma gələcək nəsillər naminə neft gəlirlərinin qorunması ilə dövlətimizin indiki strateji ehtiyaclarının qarşılanması arasında balansı əks etdirir.

Hörmətli həmkarlar, büdcə layihəsində müdafiə və milli təhlükəsizliyin maliyyələşdirilməsinə 8,4 milyard manat nəzərdə tutulmuşdur ki, bu da 2024-cü illə müqayisədə 17,8 faiz çoxdur. Bəri başdan qeyd edək ki, bu cür artımları, bir tərəfdən, günün reallıqları və ölkəmizin təhlükəsiz gələcəyi diktə edir, digər tərəfdən də, Azərbaycan Cənubi Qafqazın lider dövləti kimi özünün iqtisadi və hərbi gücü ilə regionda təhlükəsizliyin, sülh və sabitliyin qorunması missiyasını yerinə yetirir.

Reallıq bundan ibarətdir ki, müdafiə xərclərinin artımı ölkəmizin hüdudlarından kənarda da bir çoxlarını narahat edir. Bəzi dairələr növbəti haqsızlığı edərək Azərbaycanı indi də militarist büdcə siyasəti həyata keçirməkdə ittiham edirlər. Bu əsassız və qərəzli fikirlərlə bağlı bəzi məqamları qeyd etməyi vacib bilirik.

Müdafiə xərclərinin artırılması öz-özlüyündə ölkənin militarist büdcəyə sahib olduğu anlamına gəlmir. Azərbaycan hərbi xərclərini artırmaqla yanaşı, digər sosial və infrastruktur xərclərini məhdudlaşdırmır. Başqa sözlə, hərbi xərclərin artırılması digər mühüm istiqamətlər üzrə xərc artımı fonunda baş verir. Hərbi xərclər büdcə məxaricinin 20,3 faizini təşkil etdiyi halda, təkcə sosial yönümlü xərclər 41 faizini, iqtisadi fəaliyyətlə bağlı xərclər 21 faizini təşkil edir. Göründüyü kimi, ölkəmizin büdcə xərclərində ən yüksək paya malik olan heç də müdafiə xərcləri deyil.

İqtisadiyyatın, o cümlədən büdcənin hərbiləşdirilməsi meyilləri ara-sıra revanşizm avantürasına yuvarlanan

məğlub ölkə üçün daha xarakterikdir. Belə ki, bu ölkədə hərbi xərclər 2022-ci ildə 795 milyon dollar təşkil etdiyi halda, bu rəqəm 2023-cü ildə təxminən 70 faiz artaraq 1 milyard 330 milyon dollara çatmışdır. İşsizlik səviyyəsi 12 faizə, yoxsulluq səviyyəsi 24 faizə, xarici borc yükü ümumi daxili məhsulun 54 faizinə çatan, 15 ildən çoxdur ki, davamlı olaraq kəskin demoqrafik böhran yaşayan, 2025-ci ilin dövlət büdcəsi layihəsində 1,6 milyard dollar həcmində kəsir proqnozlaşdıran Ermənistanda hərbi xərclərin təkcə 1 il ərzində 70 faiz kəskin artırılması militarizmin, militarist siyasətin, militarist büdcənin bariz bir nümunəsidir.

Bu gün Azərbaycanın müdafiə qabiliyyətinin gücləndirilməsi müasir müdafiə sənayesinin formalaşdırılması ilə tamamlanır. Bu sahənin inkişafını milli sənayenin yeni və perspektivli sütunlarından birinin təşəkkülü kimi qəbul etməliyik.

Hörmətli həmkarlar, iqtisadi sistemi bazar münasibətlərinə əsaslanan ölkəmizdə sosial rifah, iqtisadi artım, investisiya qoyuluşu təkcə büdcə xərcləri hesabına təmin edilməməlidir. Özəl sektorun sosial-iqtisadi inkişafa töhfəsi daha da artmalı, dövlət–özəl tərəfdaşlığı genişləndirilməlidir. Qeyd edək ki, özəl sektorun dövlətin güclü tərəf müqabilinə çevrilməsindən ötrü hər il büdcə zərfinə daxil olan layihələrdə sahibkarlıq fəaliyyəti üçün təşviq və güzəştlər, subsidiyalar nəzərdə tutulur. İnanırıq ki, bu tədbirlər iqtisadi şaxələndirmə prosesinə və yeni iqtisadi artım mənbələrinin aşkar edilməsinə öz töhfəsini verəcəkdir.

Dövlətin funksiyalarının həyata keçirilməsi üçün resurs bazasının yaradılması nə qədər vacibdirsə, bu resurslardan səmərəli və qənaətlə istifadə edilməsi də bir o qədər önəmlidir. Artan maliyyə ehtiyacları və məhdud resurslar

şəraitində bu, xüsusi ilə aktualdır.

İndiyə kimi sahibkarlığın dəstəklənməsinə yönəldilmiş dövlət siyasətinin nəticəsidir ki, biz 2023-cü ildə özəl sektorun ümumi daxili məhsulda və sənaye istehsalında payının 83 faizə, əhalinin məşğulluğunda 79 faizə, xidmət sektorunda 73 faizə, kənd təsərrüfatında isə 99,8 faizə çatdığını görürük.

Ümumiləşdirərək xarakterizə etsək, 2025-ci ilin büdcə zərfi əlverişli makroiqtisadi proqnozlara əsaslanır, makroiqtisadi sabitlikdən təsirləndiyi kimi, həm də ona xələl gətirmir, büdcə dayanıqlığının təmin edilməsindən ötrü fiskal və qeyri-fiskal tədbirlər nəzərdə tutur, davamlı iqtisadi artım üçün təşviq və güzəştlər təklif edir.

Hörmətli həmkarlar, indi qarşımızda dayanan əsas vəzifə ərazi bütövlüyümüzü və dövlət suverenliyimizi xalqımızın milli və müqəddəs sərvəti kimi qorumaqdan, onun iqtisadi və maliyyə əsaslarını möhkəmləndirməkdən ibarətdir. Tam əminliklə deyə bilərik ki, dövlətimizin siyasi, iqtisadi, hərbi gücünü əks etdirən 2025-ci ilin dövlət büdcəsi layihəsi qəbul edildikdən sonra bu missiyanı uğurla yerinə yetirəcəkdir.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi olaraq digər komitələrdə aparılmış müzakirələrin də nəticələrini, Hesablama Palatasının rəyini nəzərə almaqla, hesab edirik ki, Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında qanun layihəsi büdcə qanunvericiliyinin tələblərinə, ölkənin strateji sənədlərinin müddəalarına tam cavab verir. Eyni zamanda, müzakirəyə çıxarılmış layihə ölkəmizin iqtisadi inkişafına, sosial rifahına və milli maraqlarımıza xidmət edir, növbəti ildə dövlətin funksiyalarının, mühüm strateji və cari vəzifə-

lərin həyata keçirilməsi üçün müvafiq maliyyə təminatı yaradır.

Qeyd edilənləri nəzərə alaraq, qanun layihəsinin Milli Məclisin plenar iclasında birinci oxunuş üçün müzakirəsini məqsədəuyğun hesab edir və hörmətli deputat həmkarlarımızdan layihənin dəstəklənməsini xahiş edirəm. Diqqətinizə görə təşəkkürümü bildirirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, indi isə mən Azərbaycan Respublikasının maliyyə naziri hörmətli Samir Şərifova söz verirəm. Samir müəllim, buyurun.

**Samir Şərifov,** *Azərbaycan Respublikasının maliyyə naziri.*

Hörmətli xanım sədr, hörmətli Baş nazir, hörmətli millət vəkilləri, xanımlar və cənablar. Azərbaycan dövləti və xalqı 2024-cü ili çox əlamətdar və uğurlu il kimi başa vurmaq ərəfəsindədir. Ölkəmiz bütün əraziləri üzərində dövlət suverenliyini tam bərqərar etdikdən sonra cari ilin fevral ayında müstəqillik dövründə ilk dəfə Azərbaycan Respublikasının bütün ərazilərində keçirilən ümumxalq seçkilərində xalqımız birlik və mütəşəkkillik göstərərək 20 il ərzində ölkəmizi misilsiz siyasi, iqtisadi yüksəlişə və ümdə hədəflərə çatdırmış, ən müqəddəs arzumuz olan Qarabağı düşmən tapdağından azad etmiş möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevi yenidən ali dövlət kürsüsünə seçmişdir.

Sentyabr ayında isə Azərbaycan xalqı, o cümlədən 30 illik fasilədən sonra öz doğma torpaqlarına qayıdan keçmiş məcburi köçkünlər Qarabağ və Şərqi Zəngəzurda yaradılmış seçki məntəqələrində Milli Məclisə növbədənkənar seçkilərdə yüksək iradə nümayiş etdirərək VII

çağırış Milli Məclisə öz vəkillərini seçmişdir. Fürsətdən istifadə edərək, Milli Məclisin yenidən və yeni seçilən bütün üzvlərini ürəkdən təbrik edir, hörmətli xanım sədr, Sizə və bütün deputatlara məsul və şərəfli fəaliyyətinizdə uğurlar arzulayıram.

İlin digər əlamətdar hadisəsi olan və 2 gün öncə Bakı şəhərində öz işini başa vurmuş qlobal iqlim konfransı dövlətimizin, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin beynəlxalq aləmdə yüksək nüfuzunun göstəricisi olmuşdur. Konfransa ev sahibliyi edən Azərbaycan olduqca qısa müddət ərzində yüksək təşkilatçılıq nümunəsi göstərərək dünya ölkələrini qlobal əhəmiyyətə malik məsələlərin müzakirəsi üçün bir araya gətirməyə və ümumbəşəri aktuallığı ilə səciyyələnən iqlim dəyişikliyi çağırışının həlli ətrafında birləşdirməyə və ən başlıcası, bəzi ölkələr tərəfindən həyata keçirilən qərəzli qarayaxma və böhtan kampaniyalarına baxmayaraq, inkişaf etmiş ölkələr tərəfindən inkişafda olan ölkələr üçün müstəsna əhəmiyyətə malik iqlim maliyyələşməsi üzrə mövcud olanın 3 misli qədər artırılmış yeni kəmiyyət hədəfinin müəyyən edilməsinə, iqlim danışıqlarında tarixi Bakı nailiyyətini ərsəyə gətirməyə müvəffəq olmuşdur.

Hörmətli millət vəkilləri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev sentyabrın 23-də yeddinci çağırış Milli Məclisin ilk iclasında çıxış edərək ölkə qarşısında duran çağırışlar haqqında öz fikirlərini Azərbaycan xalqı ilə bölüşmüş, ərazi bütövlüyümüzü tam bərqərar etdiyimiz yeni reallıqlar şəraitində, ölkəmiz üçün məsuliyyətli bir dövrdə hökumət qarşısında duran prioritetləri müəyyən etmişdir.

Sitat: “Ölkə qarşısında böyük vəzifələr durur, ilk növ-

bədə Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək vəzifəsi. Ancaq əgər biz hərbi sahəyə diqqətimizi azaltsaq və oraya ayrılan vəsaiti lazımi səviyyədə təmin etməsək, gələcəkdə bizi problemlər gözləyə bilər... Əlbəttə, bizim gələcək planlarımızı həll etmək, o cümlədən vətəndaşların sosial rifahını yaxşılaşdırmaq üçün iqtisadiyyat daim inkişaf etməlidir".

Dövlət başçımızın qarşımızda qoyduğu bu tapşırıqların icrasının təmini 2025-ci ilin dövlət büdcəsinin layihəsi hazırlanarkən əsas götürülmüşdür. Azərbaycan Respublikasının 2030-cu ilədək sosial-iqtisadi inkişafına dair milli prioritetlərinə söykənən 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının məqsədlərinin reallaşması, o cümlədən Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması, keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qaytarılması və onlara layiqli həyat şəraitinin yaradılması, işğaldan azad olunmuş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası, ölkənin müdafiə və milli təhlükəsizliyinin daha da möhkəmləndirilməsi, əhalinin etibarlı sosial təminatının gücləndirilməsi ümdə vəzifələr kimi qəbul edilmişdir.

Azərbaycan Respublikası Milli Məclisinə təqdim olunmuş 2025-ci il üçün dövlət büdcəsi haqqında qanun layihəsində təklif olunan 41 milyard 367,7 milyon manat həcmində dövlət büdcəsi xərclərinin üçdə ikisi və yaxud 27 milyard 691 milyon manatı məhz yuxarıda qeyd olunan prioritet istiqamətlərin maliyyələşdirilməsi üçün ayrılacaqdır. O cümlədən Böyük Qayıdışa dair birinci dövlət proqramında nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsinə 4 milyard manat həcmində və yaxud dövlət büdcəsi xərclərinin 9,7 faizi həcmində vəsaitin ayrılması nəzərdə

tutulub. Bunun sayəsində azad olunmuş ərazilərdə müasir infrastrukturun yaradılması, şəhər və kəndlərdə yaşayış evlərinin tikintisi ilə bağlı aparılan fasiləsiz işlərin davam etdirilməsi təmin olunacaqdır.

Ölkəmizin hərbi potensialının gücləndirilməsi, təhlükəsizliyinin təmin edilməsi və ordu quruculuğunun daha da modernləşdirilməsi, dövlət sərhədlərinin qorunması, hərbi sənaye kompleksinin inkişafı xərclərinə 8,4 milyard manat məbləğində və yaxud dövlət büdcəsi xərclərinin 20,3 faizi həcmində vəsait yönəldiləcək. Bu da 2024-cü ilin proqnozuna nisbətən 1 milyard 270 milyon manat və yaxud 17,8 faiz, 2023-cü ilin icra göstəricisi ilə müqayisədə isə 2 milyard 542 milyon manat və yaxud 43,4 faiz çoxdur.

"Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və müdafiə və milli təhlükəsizlik xərclərinin sosial xərclər komponenti daxil olmaqla 2025-ci ildə sosial yönümlü xərclər 16 milyard 910 milyon manat və ya dövlət büdcəsi xərclərinin 41 faizini təşkil edəcəkdir. Bu, cari illə müqayisədə 1 milyard 370 milyon manat və yaxud 8,8 faiz çoxdur. Bu xüsusda qeyd edim ki, 2025-ci il üçün proqnozlaşdırılan dövlət büdcəsinin sosial yönümlü xərcləri 2021-ci ilin eyni göstəricisi ilə müqayisədə 6 milyard 313 milyon manat və yaxud 1,6 dəfə artıq olacaqdır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq tapşırığının icrası ilə əlaqədar olaraq növbəti ildə sosial yönümlü xərclərin əsasını təşkil edən əməkhaqlarının, pensiya, sosial müavinətlərin və təqaüdlərin artırılması üçün dövlət büdcəsində müvafiq məbləğdə vəsait nəzərdə tutulmuşdur.

Əhalinin sosial cəhətdən həssas qruplarının sosial müdafiəsinin gücləndirilməsinə və sosial təminat xərcləri

üçün gələn ilin dövlət büdcəsindən 4 milyard 812 milyon manat, yaxud 2024-cü illə müqayisədə 420 milyon manat və yaxud da 9,6 faiz çox vəsait ayrılacaqdır. 2023-cü ilin icra göstəricisi ilə müqayisədə isə 530 milyon manat və yaxud 12,4 faiz çox. 2021-ci illə müqayisədə bu xərclər 1 milyard 648 milyon manat və yaxud 1,5 dəfə artmış olacaqdır.

Qeyd olunan xərclər çərçivəsində ünvanlı dövlət sosial yardımı üçün 457 milyon manat, keçmiş məcburi köçkünlərin sosial müdafiəsi üçün 311 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub.

Azərbaycan Respublikasının 2030-cu ilədək sosial-iqtisadi inkişafına dair milli prioritetlərinə söykənən 2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf strategiyasının məqsədlərinin reallaşdırılması çərçivəsində növbəti ildə də təhsil xərclərinin artımı təmin olunur. Bu xərclər cari ilin eyni göstəricisi ilə müqayisədə 396 milyon manat və yaxud 8,7 faiz artırılaraq 4 milyard 950 milyon manata çatdırılır. 2023-cü ilin icra göstəricisi ilə müqayisədə təhsil xərcləri 821 milyon manat və yaxud 19,9 faiz, 2021-ci ilə nisbətən isə 60 faiz artacaqdır.

Valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş, ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda həlak olmuş, əlil olmuş şəxslərin və keçmiş məcburi köçkünlərin övladları olan tələbələrin, müharibə veteranlarının ali təhsil xərclərinin dövlət hesabına ödənilməsi üçün dövlət büdcəsindən 41 milyon manat vəsait ayrılacaqdır.

2025-ci il dövlət büdcəsində səhiyyə xərcləri 2024-cü ilə nisbətən 7,1 faiz artacaq, yaxud 1 milyard 999 milyon manat təşkil edəcəkdir. Ayrılacaq bu vəsaitin 1 milyard

267 milyon manatı və yaxud 63,4 faizi dövlətin əhalinin icbari tibbi sığortalanması ilə bağlı xərclərinin payına düşür.

Səhiyyə xərclərinin 447 milyon manatı və yaxud 22,4 faizi bu sahə üzrə dövlət proqramlarının və tədbirlərin maliyyə təminatına, 285 milyon manatı və yaxud 14,2 faizi müəyyən səhiyyə tədbirləri üzrə xərclərin qarşılanmasına sərf ediləcəkdir. Bununla yanaşı, gələn ildən başlayaraq tibb sahəsində sahibkarlıq fəaliyyətinin təşviqi olaraq ölkəmizdəki tibb müəssisələrində əcnəbilərə göstərilən tibbi xidmətlərə görə onlar tərəfindən ödənilmiş əlavə dəyər vergisinin ölkəni tərk etdikləri zaman tam həcmdə onlara geri qaytarılması ilə bağlı vergi güzəşti tətbiq olunacaqdır.

2025-ci ildə mədəniyyət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti tədbirləri üzrə ayrılan vəsait cari illə müqayisədə 10,4 faiz artırılacaq və yaxud 635 milyon manat ayrılacaqdır. Gələn il bir sıra dövlət və qeyri-dövlət təşkilatlarına, televiziya, radio, qəzet, teatr, tamaşa müəssisələrinə, ictimai və yaradıcılıq birliklərinə, siyasi partiyalara, idman müəssisələrinə maliyyə yardımı şəklində dövlət büdcəsindən 129 milyon manat vəsait ayrılacaqdır.

Yeri gəlmişkən, qeyd edim ki, növbəti ildən teatr, kino, muzey müəssisələri və simfonik musiqi kollektivləri və müəssisələrinin mənfəəti 90 faiz həcmində 5 il müddətinə vergilərdən azad edilir. Teatr, kino, muzey ekskursiyaları, habelə simfonik musiqi orkestrlərinə satılan biletlərin qiymətinə tətbiq olunan əlavə dəyər vergisinin 50 faizinin vətəndaşlara geri qaytarılması ilə bağlı təklif olunan vergi güzəşti də növbəti ilin dövlət büdcəsində nəzərə alınıb.

Əlavə olaraq muzey, kino və teatr fəaliyyəti, musiqi bəstələmə fəaliyyəti sahəsində ixtisaslaşan şəxslərin qonorarları 5 il müddətində 14 faiz dərəcəsində ödəmə mənbəyindən vergidən azad edilir.

2025-ci ilin dövlət büdcəsində iqtisadi fəaliyyət xərclərinə 4 milyard 444 milyon manat vəsait proqnozlaşdırılır. Həmin vəsaitin də 64,4 faizinin və yaxud 2 milyard 685 milyon manatının dövlət əsaslı vəsait qoyuluşu üçün ayrılması nəzərdə tutulur. Bu mənbədən nəqliyyat, rabitə və kommunal sahələri üçün 880 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

Əhalinin mənzilə olan tələbatının ödənilməsi və güzəştli şərtlərlə mənzil əldə edilməsinə dəstək verilməsi üçün ipoteka layihələrinin maliyyələşdirilməsi məqsədi ilə İpoteka və Kredit Zəmanət Fondunun nizamnamə kapitalının artırılması üçün dövlət büdcəsindən əlavə 100 milyon manat vəsait ayrılacaqdır.

2025-ci ilin dövlət büdcəsi xərclərinin digər vacib istiqaməti olan kənd təsərrüfatı xərcləri üçün 1 milyard 172 milyon manat vəsait yönəldiləcəkdir. Həmin xərclərin 45 faizi və yaxud 528 milyon manatı ərzaq təhlükəsizliyi tədbirlərinin, o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalının təşviqi ilə bağlı subsidiyaların verilməsi, 43,6 faizi və yaxud 511 milyon manatı meliorasiya tədbirləri, 11,4 faizi və yaxud 133 milyon manatı digər kənd təsərrüfatı tədbirləri üçün nəzərdə tutulub.

Bu xüsusda bildirmək istərdim ki, iqlim dəyişiklikləri ilə mübarizə və ətraf mühitin mühafizəsi istiqamətlərində büdcə islahatlarına başlanılmışdır. Ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı sektoru, ekoloji profilli məqsədli büdcə fondları və 2022–2026-cı illərdə sosial-

iqtisadi inkişaf strategiyası çərçivəsində “yaşıl büdcə” üzrə xərclərin işarələnməsinə başlanılmış və 2025-ci ildə bu istiqamət üzrə 1,3 milyard manat vəsait nəzərdə tutulmuşdur. Bu məbləğin 1 milyard manatı iqlim dəyişiklikləri üzrə adaptasiya və inteqrasiya tədbirlərinə, 300 milyon manatı isə ətraf mühitin mühafizə tədbirlərinə yönəldiləcəkdir.

2025-ci ildə dövlətimizin beynəlxalq aləmdə mövqelərinin təmin edilməsi, beynəlxalq öhdəliklərimizin yerinə yetirilməsi, beynəlxalq fəaliyyətin həyata keçirilməsi, o cümlədən xarici ölkələrə və beynəlxalq təşkilatlara yardımların göstərilməsi məqsədləri üçün dövlət büdcəsində cəm olaraq 754 milyon manat vəsait ayrılması nəzərdə tutulur. Bu vəsait hesabına beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi üçün 238 milyon manat, Azərbaycan Respublikasının xarici diplomatik nümayəndəliklərinin və konsulluqlarının saxlanılması və fəaliyyət xərcləri üçün 205 milyon manat, beynəlxalq və regional təşkilatlara üzvlük haqqı və maliyyə institutlarının səhm kapitalında iştirakla bağlı xərclərə 32 milyon manat, digər beynəlxalq fəaliyyət xərcləri üçün isə 8 milyon manat vəsaitin yönəldilməsi nəzərdə tutulur.

Gələn ilin dövlət büdcəsindən ölkəmizin həmtəsisçisi olduğu beynəlxalq investisiya və inkişaf fondlarının nizamnamə kapitalında Azərbaycan tərəfinin payının maliyyələşdirilməsi üçün 243 milyon manat vəsait ayrılacaqdır.

2025-ci ilin dövlət büdcəsinin yerli gəlirləri 795 milyon manat, xərcləri isə 800,3 milyon manat, yerli gəlir və xərcləri tənzimləmək üçün dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən ayrılan maliyyə yardımı məbləği isə 5,3 milyon manat təşkil edəcəkdir.

Azərbaycan Respublikasının 2025-cü il üzrə daxili dövlət borclanmasının yuxarı həddinin 2 milyard manat, xarici dövlət borclanmasının yuxarı həddinin 3 milyard 500 milyon manat, il ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddinin 2 milyard manat məbləğində müəyyən edilməsi təklif olunur. Dövlət borcuna xidmət xərclərinin dövlət büdcəsində xüsusi çəkisi 5,8 faiz olmaqla 2 milyard 400 milyon manat məbləğində proqnozlaşdırılır.

Dövlət büdcəsinin ehtiyat fondları cari illə müqayisədə 38 milyon manat artaraq 448 milyon manat təşkil edəcəkdir. Onların dövlət büdcəsi xərclərində xüsusi çəkisi 1 faizdən bir qədər artıq olacaqdır.

Hörmətli millət vəkilləri, 2025-ci ilin dövlət büdcəsinin xərcləri növbəti ilin proqnozlaşdırılan ümumi daxili məhsulunun 32 faizinə bərabər olmaqla 2024-cü ilin ilkin təsdiq olunmuş dövlət büdcəsi xərclərinə nisbətən 4 milyard 605 milyon manat və yaxud 12,5 faiz, 2023-cü ilin icrasına nisbətən isə 4 milyard 910 milyon manat və yaxud 13,5 faiz çox proqnozlaşdırılır. 2021-ci illə müqayisədə isə bu xərclər 13 milyard 950 milyon manat və yaxud 1,5 dəfə artmış olacaqdır.

Hörmətli millət vəkilləri, indi isə qısa xülasəsini dinlədiyiniz 2025-ci il üçün dövlət büdcəsi xərclərinin maliyyə təminatı barədə göstəriciləri diqqətinizə çatdırmaq istərdim. 2025-ci ilin dövlət büdcəsi xərclərinin 92,6 faizinin və yaxud 38 milyard 316 milyon manatının dövlət büdcəsinin gəlirləri hesabına təmin edilməsi nəzərdə tutulub. Yerdə qalan 7,4 faizinin və yaxud 3 milyard 52 milyon manatının isə dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsi hesabına təmin edilməsi nəzərdə tutulub.

Dövlət büdcəsinin gəlirləri 2024-cü illə müqayisədə 1 milyard 928 milyon manat və yaxud 5,3 faiz, 2023-cü ilin icra göstəricisi ilə müqayisədə isə 3 milyard 80 milyon manat və yaxud 8,7 dəfə artacaqdır. Növbəti il üçün dövlət büdcəsi gəlirlərinin 19 milyard 543 milyon manatı və yaxud 51 faizi qeyri-neft-qaz sektoru üzrə, 18 milyard 773 milyon manatı və yaxud 49 faizi neft-qaz sektoru hesabına təmin ediləcəkdir.

Ölkəmizdə fəaliyyət göstərən beynəlxalq konsorsiumlara daxil olan şirkətlərin və Dövlət Neft Şirkətindən vergi və digər daxilolmalar hesabına 4 milyard 292 milyon manat, Dövlət Neft Fondunun dövlət büdcəsinə transferti hesabına 14 milyard 481 milyon manat vəsait daxil olacaqdır. Dövlət Neft Fondundan transfert nəzərə alınmadan, növbəti il üçün dövlət büdcəsinin ümumi gəlirləri 2024-cü ilin müvafiq göstəricisi ilə müqayisədə 228 milyon manat çox, neft sektoru üzrə daxilolmalar isə 2024-cü ilin eyni göstəricisindən 696 milyon manat az olacaqdır.

Gələn il vergi orqanlarının xətti ilə dövlət büdcəsinə 15 milyard 500 milyon manat, cari illə müqayisədə 230 milyon manat çox məbləğdə vəsaitin daxil olması nəzərdə tutulur. O cümlədən qeyri-neft sektoru üzrə 11 milyard 670 milyon manat və yaxud cari illə müqayisədə 980 milyon manat, 9,2 faiz çox vəsaitin təmin olunması nəzərdə tutulur.

Gömrük orqanlarının xətti ilə dövlət büdcəsinə 6 milyard 600 milyon manat və yaxud cari ilə nisbətən 165 milyon manat, 2,6 faiz çox vəsaitin daxil olması nəzərdə tutulub.

2025-ci ildə büdcə təşkilatlarının ödənişli xidmətləri

üzrə 840 milyon manat, sair gəlirləri üzrə 433 milyon manat vəsaitin daxil olması proqnozlaşdırılır.

İndi isə icmal büdcənin əsas parametrləri və onun tərkibi olan büdcələr barədə qısa məlumatı diqqətinizə çatdırmaq istərdim. 2025-ci il üçün icmal büdcənin gəlirləri 43 milyard 911 milyon manat, cari ilə nisbətən 396 milyon manat, 0,9 faiz çox, xərclərinin yuxarı həddi isə 47 milyard 589 milyon manat, cari ilə nisbətən 1 milyard 963 milyon manat, 4,3 faiz çoxdur. Müvafiq olaraq icmal büdcənin kəsiri 3 milyard 679 milyon manat məbləğində proqnozlaşdırılır. İcmal büdcənin kəsiri ümumi daxili məhsulun 2,8 faizini təşkil edəcəkdir.

Növbəti ildə icmal büdcənin tərkib hissəsi olan Dövlət Neft Fondunun büdcəsinin gəlirləri 14 milyard 453 milyon manat, xərcləri isə 14 milyard 597 milyon manat təşkil edəcəkdir.

Dövlət Sosial Müdafiə Fondunun gəlir və xərcləri bərabər olmaqla 7 milyard 676 milyon manat məbləğində və yaxud cari ilə nisbətən 10,5 faiz çox nəzərdə tutulur. Fondun xərclərinin 20,8 faizlik hissəsi və yaxud 1 milyard 600 milyon manatı dövlət büdcəsindən ayrılacaq transfertin payı hesabına maliyyələşdiriləcək. Bu, 2024-cü illə müqayisədə 368 milyon manat və yaxud təxminən 30 faiz çox deməkdir.

İşsizlikdən sığorta fondunun gəlir və xərcləri bərabər olmaqla 261 milyon manat məbləğində və yaxud ötən illə müqayisədə 9,5 faiz çox proqnozlaşdırılır.

İcbari tibbi sığorta fondunun gəlir və xərcləri bərabər olmaqla 2 milyard 936 milyon manat məbləğində və yaxud 2024-cü illə müqayisədə 85 milyon manat, 3 faiz çox həcmdə proqnozlaşdırılır. Fondun xərclərinin 48

faizini və yaxud 1 milyard 410 milyon manatlıq hissəsini dövlət büdcəsindən ayrılacaq transfert təşkil edəcəkdir.

Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlir və xərcləri bərabər olmaqla 540 milyon manat səviyyəsində proqnozlaşdırılır. Dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən Naxçıvan Muxtar Respublikasına ayrılan dotasiya 320,5 milyon manat təşkil edir ki, bu da cari illə müqayisədə 16 milyon manat və yaxud 4,7 faiz azdır.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın maliyyə təminatı üçün gələn il 150 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

Hörmətli millət vəkilləri, 2025-ci il üçün dövlət və icmal büdcələrinin layihələri Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin qarşıdan gələn ortamüddətli dövr üçün müəyyən etdiyi sosial-iqtisadi kursuna uyğun olaraq, ölkəmizin müdafiə və milli təhlükəsizliyinin, Böyük Qayıdışın təmin edilməsi, Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişafı üzrə dövlət proqramında nəzərdə tutulan dövlətimizin hərtərəfli inkişafı və digər əsas prioritet hədəflərinin həyata keçirilməsinin növbəti il maliyyə çərçivəsini və təminatını formalaşdırır.

Bunları nəzərə alaraq, hörmətli millət vəkillərini təqdim olunmuş 2025-ci il dövlət büdcəsi haqqında qanun layihəsini və büdcə zərfinə daxil edilmiş digər qanunvericilik aktlarını dəstəkləməyə çağırıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Samir müəllim. Hörmətli həmkarlar, indi isə mən sözü Azərbaycan Respublikasının

iqtisadiyyat naziri hörmətli Mikayıl Cabbarova verirəm. Mikayıl müəllim, buyurun.

**Mikayıl Cabbarov,** *Azərbaycan Respublikasının iqtisadiyyat naziri.*

Hörmətli xanım sədr, hörmətli Baş nazir, hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri. İlk növbədə ölkəmizin bütün ərazisində keçirilmiş Milli Məclisə tarixi seçkilərdə seçicilərin etimadını qazanmış millət vəkillərini yeddinci çağırış Milli Məclisin fəaliyyətə başlaması münasibəti ilə təbrik edir və şərəfli fəaliyyətinizdə uğurlar arzu edirəm.

Ötən günlərdə dünyanın ən böyük və mühüm dövlətlər-arası tədbirlərindən biri olan COP29 Azərbaycanın ev sahibliyi ilə uğurla keçirilmişdir. Hesab edirəm ki, ölkəmizdə keçirilən bu mötəbər tədbir dövlətimizin qlobal arenada nüfuzunun daha da artmasına böyük töhfə verəcəkdir və bu tədbirin nəticələri cənab Prezidentin rəhbərliyi ilə ölkəmizin böyük diplomatik uğuru və qələbəsidir.

Son illər dünyada müşahidə olunan geosiyasi gərginlik və artan qlobal iqtisadi risklər fonunda cənab Prezidentin uzaqgörən siyasəti nəticəsində ölkəmiz qlobal iqtisadiyyatda da öz mövqelərini durmadan gücləndirməkdədir. Azərbaycan dünya iqtisadiyyatı və region ölkələri üçün olduqca əhəmiyyətli olan iqtisadi, o cümlədən enerji və nəqliyyat-logistika layihələrinin reallaşdığı məkana çevrilmişdir.

Azərbaycan bu gün dünyanın enerji təhlükəsizliyində və davamlı enerji təchizatında etibarlı tərəfdaşa çevrilmişdir. Cari ilin 10 ayında xarici bazarlara qaz satışı 20,7 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,6 faiz çoxdur. Nəticədə bölgənin

və Avropanın 12 ölkəsinə Azərbaycan qazı ixrac ediləcəkdir.

Ölkədə "yaşıl enerji" keçidi strategiyası da uğurla həyata keçirilməkdədir. Alternativ energetikanın inkişafı məqsədi ilə bu sahədə artıq dünyanın aparıcı şirkətləri ilə bağlanmış müqavilələrə əsasən 2 milyard ABŞ dolları həcmində investisiyanın yatırılması nəticəsində 2 min meqavat gücündə bərpa olunan enerji istehsalı mümkün olacaqdır ki, bu da bərpa olunan enerjinin ölkədə quraşdırılmış gücdə payını 2027-ci ildə 33 faizə çatdırmağa imkan verəcəkdir.

Cənab Prezidentin rəhbərliyi ilə ölkədə iqtisadi artıma və iqtisadi dayanıqlığa yönəlmiş struktur islahatları da uğurla davam etdirilməkdədir. Bu islahatlar iqtisadi idarəetmənin və dövlət şirkətlərinin fəaliyyətinin təkmilləşdirilməsi, rəqəmsal iqtisadiyyatın dərinləşdirilməsi, innovasiya əsaslı iqtisadi inkişafa keçidin sürətləndirilməsi, ölkənin beynəlxalq nəqliyyat-tranzit potensialının tam reallaşdırılması, dövlət–özəl tərəfdaşlığının genişləndirilməsi kimi strateji prioritetləri əhatə edir.

Azərbaycan Respublikasının Prezidenti bu kürsüdə çıxış edərək "bizim ailəmiz türk dünyasıdır, bizim başqa ailəmiz yoxdur" söylədiyi kəlamını əsas tutaraq bölgəmizdə olan iqtisadi fürsətlərin dəyərləndirilməsi məqsədi ilə Azərbaycan–Qazaxıstan, Azərbaycan–Özbəkistan, Azərbaycan–Qırğızıstan birgə investisiya fondları yaradılmışdır və fəaliyyətə başlamışdır. Oxşar bir fond həmçinin Birləşmiş Ərəb Əmirlikləri ilə də birgə yaradılmışdır.

Bu gün Milli Məclisdə müzakirə edilən büdcə layihəsi özündə həm ölkənin strateji inkişaf prioritetlərini əks etdirir, həm də fiskal dayanıqlığa yönəlmiş büdcə qayda-

larını özündə ehtiva edir. Büdcə layihəsinin hazırlanmasında yeni daxili inkişaf amilləri, habelə son qlobal proseslər nəzərə alınmışdır. Mən ilk növbədə dünyada və ölkə iqtisadiyyatındakı son vəziyyət barədə qısa məlumat vermək istərdim.

Cari ilin oktyabr ayında Beynəlxalq Valyuta Fondu dünya iqtisadiyyatının artım tempini əsrin əvvəlindən pandemiyaya qədər olan dövr üzrə orta artım tempindən aşağı olmaqla cari və növbəti ildə 3,2 faiz səviyyəsində proqnozlaşdırır. Azərbaycan iqtisadiyyatı isə həm son illərdə, həm də cari ildə dayanıqlı inkişaf nümayiş etdirir.

2024-cü il nəzərə alınmaqla, 2019–2024-cü illərdə ölkədə real ümumi daxili məhsulun 14,4 faiz, qeyri-neft-qaz sektorunda isə real ümumi daxili məhsulun 1,3 dəfə artması gözlənilir. Adambaşına ümumi daxili məhsul COVID-dən əvvəlki dövrdə, 2019-cu ildə təxminən 4850 ABŞ dolları təşkil etdiyi halda, 2024-cü ilin yekunu üzrə bu göstəricinin 7200 ABŞ dolları ətrafında olacağı gözlənilir.

Son illərdə ölkənin ixrac imkanları da genişlənməkdədir. 2024-cü ilin gözlənilən göstəricisi nəzərə alınmaqla, 2019–2024-cü illərdə qeyri-neft-qaz ixracının təqribən 2 dəfədən çox artması gözlənilir.

Ölkənin maliyyə təhlükəsizliyi yastığı – strateji valyuta ehtiyatları isə 2019-cu ilin əvvəlindən 2024-cü ilin 1 noyabrınadək 1,6 dəfə artaraq 73 milyard ABŞ dollarına çatmışdır ki, bu da təqribən cari il üzrə gözlənilən ümumi daxili məhsul səviyyəsindədir.

Bir məsələni xüsusi ilə qeyd etmək istərdim ki, son illərdə ölkə iqtisadiyyatının neft-qaz sektorundan asılılığının əhəmiyyətli dərəcədə azalması müşahidə olunur. Neft

hasilatının pik həcmi 2010-cu ildə qeydə alınıb, 50,8 milyon ton. 2014-cü ildə ölkədə neft hasilatı 42,1 milyon ton, 2018-ci ildə 38,8 milyon ton, 2021-cü ildə 34,6 milyon ton olmuşdur. 2024-cü ildə isə neft hasilatının proqnozlaşdırılan həcmi 29,2 milyon tondur. Cari ildə "Brent" markalı neftin qiymətinin isə təxminən 80 ABŞ dolları ətrafında olacağı gözlənilir. Müqayisə etdiyimiz 2014-cü ildə "Brent" markalı neftin orta qiyməti 99 ABŞ dolları idi.

Baxılan dövr ərzində dövlət büdcəsinin neft-qaz sektorundan asılılığı əhəmiyyətli dərəcədə azalmışdır. Belə ki, əgər 2014-cü ildə dövlət büdcəsinin neft-qaz gəlirləri 15,5 milyard ABŞ dolları və ya büdcə gəlirlərinin 66 faizini təşkil edirdisə, 2024-cü ilin dürüstləşdirilmiş büdcəsində neft-qaz gəlirləri 10,5 milyard ABŞ dolları olmaqla, büdcə gəlirlərində payı 49 faizə enmişdir. Bu dinamika ölkə iqtisadiyyatının şaxələnməsində əldə olunan real nəticələri əks etdirir, habelə büdcə dayanıqlığının təmin olunmasında fiskal yığım institutlarının yüksək dərəcədə şəffaflaşmasını göstərir.

Belə bir iqtisadi fonda son illərdə iqtisadiyyatın, o cümlədən əmək bazarının sürətli şəffaflaşması müşahidə edilir. 2019-cu ilin əvvəlindən son tarixədək cəmi əmək müqavilələrinin sayı 470 minədək, o cümlədən qeyri-neft özəl sektorda 446 minədək artmışdır ki, bu da əmək bazarının əhəmiyyətli leqallaşmasını əhatə edir.

Aktiv vergi ödəyicilərinin sayı isə 2019-cu il yanvarın 1-i ilə müqayisədə 2024-cü il 1 noyabr tarixədək 1,8 dəfə artaraq 795 min təşkil edir.

Cari ilin 10 ayında ölkədə iqtisadi artım tempi 4,9 faiz olmuşdur. Bu da cari ildə qlobal iqtisadiyyatın gözlənilən ar-

tım tempindən 1,7 faiz bənd yüksəkdir. Qeyri-neft-qaz sektorunda iqtisadi artım isə daha yüksək – 6,8 faiz olmuşdur.

Cari ilin 10 ayında qeyri-neft-qaz sənayesində əlavə dəyərin artım tempi 8,8 faiz, tikinti sektorunda 15,5 faiz, nəqliyyat sektorunda 15,7 faiz, turizm sektorunda 11,3 faiz olmuşdur.

Müsbət meyillərdən biri də inflyasiyanın əhəmiyyətli dərəcədə aşağı düşməsidir. 2024-cü ilin yanvar–oktyabr aylarında orta illik inflyasiya cəmi 1,7 faiz olmuşdur.

Cari ilin 10 ayında qeyri-neft-qaz sektorunun ixracı 2,8 milyard ABŞ dolları təşkil etmişdir. Elektrik enerjisi ixracı çıxılmaqla sektorun ixracında 14,8 faiz artım qeydə alınmışdır.

Dövlət Neft Fondunun qızıl idxalı istisna olunmaqla, xarici ticarət balansının müsbət saldosu 8,2 milyard ABŞ dolları təşkil etmişdir.

İqtisadi artımın və şəffaflaşmanın davam etməsi şəraitində dövlət büdcəsinin dürüstləşməsindən sonra cari ilin 10 ayında vergi daxilolmaları üzrə proqnoz tapşırığı 104,4 faiz icra edilmiş, proqnozdan əlavə dövlət büdcəsinə 602,8 milyon manat vəsait daxil olmuşdur.

Qeyri-neft-qaz sektoru üzrə proqnoz tapşırığı 102,4 faiz icra olunmuş, sektordan dövlət büdcəsinə proqnozdan əlavə 222 milyon manat çox vəsait daxil olmuşdur.

Cari ilin 10 ayında qeyri-neft sektorunun özəl bölməsi üzrə vergi daxilolmaları 15,6 faiz artmış və özəl bölmənin qeyri-neft-qaz vergi daxilolmalarında payı 77,5 faiz təşkil etmişdir.

Vergi daxilolmaları ilə yanaşı, sosial sığorta yığımları üzrə də yüksək artım dinamikası müşahidə olunur. Cari ilin 10 ayında təkcə məcburi dövlət sosial sığortası üzrə

daxilolmaların proqnozu 104,3 faiz icra edilərək 4,7 milyard manat vəsait daxil olmuş, daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 10,6 faiz artmışdır.

Son illərdə bəzi dövlət şirkətləri tərəfindən illik dividendlər ödənişi intizamı yaranmasına baxmayaraq, bu sahədə potensialımız hələ də mövcuddur və onun reallaşması üçün addımlar atılacaq.

Cari ilin 10 ayı da daxil olmaqla sənaye zonaları üzrə ümumi investisiya həcmi 7,9 milyard manat olan 156 sahibkarlıq subyektinə rezident statusu verilib. Bu günədək sahibkarlar tərəfindən sənaye zonalarına 6,8 milyard manatdan çox investisiya yatırılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 1 milyard manatdan çox investisiyanın yatırılması və 8600-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası ilə bağlı qeyd edim ki, yeni yaradılan Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarına, ümumən, artıq 46 müəssisə daxil olmuşdur. Onlardan 41-i rezident və 5-i qeyri-rezidentdir. Burada layihələrin icrası çərçivəsində təxminən 232 milyon ABŞ dolları məbləğində investisiyanın yatırılması və 4300-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur.

Bölgədə iqtisadi aktivliyi artırmaq üçün mühüm addımlardan biri də Xankəndi şəhərində cari ilin 13 noyabr tarixində Azərbaycan və Özbəkistan prezidentlərinin iştirakı ilə müasir tikiş fabrikinin açılış mərasimi olmuşdur. Bu da regionda tekstil klastırının formalaşdırılmasına töhfə verəcəkdir.

Qarabağ Universitetinin cari ilin 20 sentyabr tarixində

fəaliyyətə başlaması isə regionda təhsil imkanlarının genişləndirilməsinə, gənclərin daha yaxşı təhsil almasına və yüksək ixtisaslı kadrların hazırlanmasına imkan yaradacaq. Bu, regionun sosial-iqtisadi inkişafı üçün kadr təminatı baxımından tarixi hadisədir.

İşğaldan azad edilmiş ərazilərdə iqtisadi aktivliyin dəstəklənməsi ilə bağlı güzəştlərin tətbiqinə start verilmişdir. Son tarixə 3 milyon manatdan çox vergi və rüsumlardan azadolma tətbiq edilmişdir. Kommunal xidmətlərdən istifadəyə görə maliyyə yardımları sahibkarların bank hesabına köçürülür. Sosial sığorta haqlarının və kredit faizlərinin subsidiyalaşdırılmasına başlanmış, kredit-zəmanət mexanizmi işə düşmüşdür.

Bununla yanaşı, dövlət əmlakının özəlləşdirilməsi siyasəti davam etdirilmiş və özəlləşdirmədən dövlət büdcəsinə bu ilin 10 ayında 108 milyon manat vəsait daxil olmuşdur ki, bu da illik proqnozun 103 faiz icrası deməkdir.

Bununla yanaşı, ölkə başçısının müvafiq sərəncamına əsasən iri dövlət müəssisələrinin restrukturizasiyası və sağlamlaşdırılması, özəl investisiyaların cəlb edilməsi məqsədi ilə həmin müəssisələrdə dövlətin iştirak paylarının azaldılması istiqamətində tədbirlər davam etdirilmiş, habelə dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi haqqında yeni qanun layihəsi hazırlanaraq razılaşdırılma üçün aidiyyəti üzrə təqdim edilmişdir.

Hörmətli həmkarım, maliyyə naziri artıq vergi islahatları barədə ətraflı məlumat təqdim etdiyinə görə mən bu bloku təkrarlamayacağam.

Hörmətli millət vəkilləri, büdcənin tərtibatı prosesində, təbii ki, ən başlıca məsələlərdən biri sosial-iqtisadi inkişaf proqnozlarının hazırlanmasıdır. Qlobal qeyri-müəyyənlik-

lər nəzərə alınmaqla, büdcə paketində təqdim olunan proqnozlar 3 ssenaridə – baza, optimist və pessimist ssenarilərdə hazırlanaraq büdcə tərtibi prosesində risklərin qiymətləndirilməsi üçün istifadə edilmişdir.

Ümumi daxili məhsulun növbəti ildə 3,5 faiz, 2025–2028-ci illərdə isə orta illik hesabla 3,3 faiz, qeyri-neft-qaz ÜDM-in növbəti ildə 4,9 faiz, 2025–2028-ci illərdə isə orta illik hesabla 5 faiz artacağı proqnozlaşdırılır.

Neft-qaz sektoru üzrə ümumi daxili məhsulun 2025-ci ildə 0,5 faiz artacağı proqnozlaşdırılmışdır. Lakin neft hasilatının sabitləşdirilməsinə dair cənab Prezidentin müvafiq tapşırıqlarına uyğun olaraq, yenilənəcək hasilat proqnozları əsasında növbəti mərhələlərdə neft-qaz sektorunun 2025–2028-ci illər üzrə proqnozlarına bir daha baxılacaqdır.

Ortamüddətli dövrdə şaxələnmənin mühüm drayverləri kimi qeyri-neft-qaz sənayesi, turizm, İKT və nəqliyyat sektorlarında yüksək artım templəri proqnozlaşdırılır.

Qeyri-neft-qaz sektorunun ÜDM-də payının hazırkı 66,4 faiz səviyyəsindən ortamüddətli dövrün sonuna 77,8 faizə çatacağı proqnozlaşdırılır.

2025-ci ildə ÜDM-in nominal həcmi 129,2 milyard manat, qeyri-neft-qaz sektorunda ÜDM-in nominal həcmi isə 92,2 milyard manat proqnozlaşdırılır.

Neftin 2025-ci ilə 70 ABŞ dolları və 2026–2028-ci illərə 65 ABŞ dolları, proqnozlaşdırılan qiyməti də nəzərə alınmaqla, 2025-ci ildə adambaşına düşən ümumi daxili məhsulun 7412 ABŞ dolları, 2028-ci ilin sonuna isə 8522 ABŞ dolları təşkil edəcəyi nəzərdə tutulur.

2025-ci ildə tədiyyə balansının cari hesabının profisitinin ÜDM-ə nisbəti 5,6 faiz həddində, 2025–2028-ci

illərdə isə neft-qaz hasilatının son tarixə olan proqnozu nəzərə alınmaqla, cari hesab profisitinin ÜDM-ə nisbətinin orta hesabla 3 faiz ətrafında olacağı proqnozlaşdırılır.

Hörmətli millət vəkilləri, 2025-ci ildə və ortamüddətli dövrdə İqtisadiyyat Nazirliyi hökumətin digər strukturları ilə sıx əməkdaşlıqda ölkədə özəl investisiyaların daha da artırılması, iqtisadi təşviq mexanizmlərinin səmərəli tətbiqi, özəlləşmənin davam etdirilməsi, dövlət–özəl tərəfdaşlığının genişləndirilməsi, ixrac məhsulları çeşidinin və bazarlarının şaxələndirilməsi, mikro, kiçik və orta sahibkarlığın daha da böyüməsi istiqamətində məqsədyönlü fəaliyyətini davam etdirəcəkdir.

Çıxışımın sonunda təqdim olunan büdcə layihəsinin dəstəklənməsinə çağırıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Mikayıl müəllim. Hörmətli həmkarlar, indi isə Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin sədri hörmətli Taleh Kazımova söz verilir. Taleh müəllim, buyurun.

**Taleh Kazımov,** *Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin sədri.*

Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hökumət üzvləri, hörmətli millət vəkilləri, iclas iştirakçıları, media nümayəndələri. Hər birinizi salamlayıram. İlk öncə fürsətdən istifadə edərək, hörmətli Sahibə xanım, Sizi və hörmətli millət vəkillərini azad, ədalətli və şəffaf seçkilər nəticəsində yeddinci çağırış Milli Məclisə seçilməyiniz münasibəti ilə səmimi qəlbdən təbrik edirəm və fəaliyyətinizdə uğurlar arzu edirəm.

Möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən aparılan uğurlu və qətiyyətli siyasət, həyata keçirilən

irimiqyaslı iqtisadi layihələr, eləcə də dövlət proqramları Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafına təkan verməkdədir. Cənab Prezidentin müstəqil və milli maraqlara əsaslanan xarici siyasəti Azərbaycanın regional liderə, bölgədə güc mərkəzinə, dünya siyasətində daha nüfuzlu ölkəyə çevrilməsinə səbəb olub.

Bu siyasətin nəticəsi olaraq, ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək şərəfi verildi. Bu tədbirdə dünya liderləri, beynəlxalq təşkilatların sədrləri, müxtəlif ölkələri təmsil edən dövlət və özəl sektor nümayəndələri iqlim dəyişmələrinin yaratdığı fəsadların aradan qaldırılması məqsədi ilə çağırışlar etmişlər. Cənab Prezidentin qeyd etdiyi kimi, bu, ölkəmizə olan hörmətin və etimadın göstəricisidir.

COP29 çərçivəsində Mərkəzi Bank və maliyyə sektoru tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir. Bu tədbirlərdə Azərbaycanın bank sektoru tərəfindən mühüm bəyanatlar verilmişdir. Bunlardan ən mühümü dayanıqlı və aşağı karbonlu iqtisadiyyata keçidə tələb olunan "yaşıl maliyyələşmə" üçün 2030-cu ilədək minimum 2 milyard manat həcmində vəsaitin ayrılmasıdır. Bu keçid möhtərəm cənab Prezidentin uzunmüddətli strateji baxışına əsaslanan milli inkişaf prioritetlərindən hesab olunur. Hökumətin strateji baxışına uyğun olaraq, 2 milyard manat maliyyə vəsaitindən istifadə zamanı ev təsərrüfatlarına, kiçik və orta sahibkarlara prioritetlik veriləcəkdir. Ümid edirəm ki, bank sektoru tərəfindən ayrılacaq "yaşıl maliyyə" resursu iqtisadiyyatımızın dayanıqlı inkişafını dəstəkləməklə "yaşıl iqtisadiyyat"a keçidin sürətlənməsində mühüm rol oynayacaq.

Qürur hissi ilə qeyd etmək istərdim ki, ölkəmizdə COP29 tədbirləri uğurla yekunlaşmış və Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə nail olmuşdur. Belə ki, 2035-ci ilədək iqlim maliyyələşməsi üçün inkişaf etməkdə olan ölkələrə 300 milyard ABŞ dolları vəsaitin təmin olunması məqsədi ilə kollektiv öhdəlik müəyyən olunmuşdur.

Hörmətli millət vəkilləri, icazənizlə, indi cari ilin ötən dövrü üzrə qlobal iqtisadiyyatda və daxili iqtisadi mühitdə baş verənlər barədə qısa olaraq danışmaq istərdim.

Məlum olduğu kimi, cari ildə də geosiyasi gərginliklər, xüsusi ilə geoiqtisadi parçalanmalar, dünyanın əksər iqtisadiyyatlarında fiskal siyasətlərin daralması və sərt pul-kredit siyasətinin tətbiqi qlobal iqtisadi aktivlik üçün çətinliklər yaratmışdır. Buna baxmayaraq, 2024-cü ilin ötən dövründə qlobal iqtisadi artım əlverişli səviyyədə olmuşdur. İqtisadi artım üzrə beynəlxalq təşkilatların gözləntiləri və proqnozları nikbindir. Belə ki, Beynəlxalq Valyuta Fondunun son hesabatında qlobal iqtisadi artımın 2024-cü ildə 3,2 faiz olacağı gözlənilir.

Ölkəmizin əksər ticarət tərəfdaşlarında da ilin sonuna iqtisadi artım proqnozu yüksəlmişdir ki, bu da iqtisadiyyatımız üçün müsbət amillərdən hesab edilir. Qlobal inflyasiya prosesləri cari ildə nisbətən səngimiş, bəzi ölkələrdə inflyasiya səviyyəsi hədəfə yaxınlaşmışdır. Məlumat üçün bildirim ki, ticarət tərəfdaşlarında inflyasiya təzyiqləri azalmış, orta çəkili inflyasiya ötən ilin sentyabrında 14,9 faiz olduğu halda, 2024-cü ilin sentyabrında 12,1 faiz təşkil etmişdir.

Cari ilin ötən dövründə qeyd olunan xarici amillər ölkə iqtisadiyyatının xarici şəraitində, yəni tədiyyə balansında

müsbət meyillərin formalaşmasına səbəb olmuşdur.

6 ayda cari əməliyyatlar hesabında 2,6 milyard ABŞ dolları həcmində və ya ümumi daxili məhsulun 7,5 faizi səviyyəsində profisit yaranmışdır. 10 ayda xarici ticarət balansında profisit 6,1 milyard ABŞ dolları təşkil etmişdir. Belə bir əlverişli şəraitdə 10 ay ərzində ölkənin strateji valyuta ehtiyatları 4,4 milyard ABŞ dolları və ya 6,5 faiz artaraq 73 milyard ABŞ dolları təşkil etmişdir.

Bu şəraitdə valyuta bazarında tam sabitlik müşahidə olunur. Cari ildə valyuta hərraclarında tələb tam qarşılanmışdır. Təhlillər göstərir ki, bu dövrdə valyutaya tələb yaradan əsas amillər dövlət layihələri və tədbirləri, müdafiə xərcləri, xarici valyutada olan borcların ödənilməsi və öhdəliklərin azaldılması olmuşdur.

Ümumilikdə, cari əməliyyatlar balansı üzrə proqnozumuz nikbindir. Mərkəzi Bankın baza ssenarisi üzrə oktyabr proqnozuna əsasən mövcud şəraitin qalacağı halda cari əməliyyatlar hesabının profisitinin 2024-cü ilin sonuna 5,3 milyard ABŞ dolları təşkil edəcəyi gözlənilir.

İqtisadiyyatın artımına gəldikdə isə, cari ilin ötən dövründə də iqtisadi aktivlik üzrə müsbət dinamika müşahidə olunmuşdur. Ötən ilin 10 ayı ilə müqayisədə ümumi daxili məhsul real olaraq 4,9 faiz, o cümlədən qeyri-neft sektoru üzrə 6,8 faiz artmışdır.

İqtisadi artımla bağlı proqnozumuz da nikbindir. Mərkəzi Bankın baza ssenarisi üzrə oktyabr proqnozlarımıza əsasən ümumi iqtisadi artımın 2024-cü ildə 3,9 faiz ətrafında olacağı gözlənilir. Qeyri-neft-qaz sektoru üzrə artımın 2024-cü ilin sonuna 6,5 faiz ətrafında olacağı gözlənilir.

2024-cü ilin ötən dövründə illik inflyasiya səviyyəsi hədəf

daxilində olub. Belə ki, cari ilin oktyabr ayında 12 aylıq inflyasiya 3,4 faiz olmuşdur. Apardığımız təhlillər göstərir ki, 12 aylıq inflyasiya həm xarici amillərdən, həm də həyata keçirilən antiinflyasiya tədbirlərindən təsirlənib. Qiymətləndirmələr göstərir ki, 2024-cü ilin 10 ayında ticarət tərəfdaşlarında inflyasiya ölkədə inflyasiya səviyyəsinə 6,1 faiz bənd artırıcı təsir göstərmişdir. Manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi isə  3,1 faiz bənd azaldıcı təsir etmişdir. Qeyd olunanları nəzərə alsaq, xarici amillərin birbaşa xalis təsiri 3 faiz bənd artırıcı olmuşdur.

Mərkəzi Bankın oktyabr proqnozuna görə 2024-cü ilin sonuna inflyasiyanın 5,1 faiz olacağı gözlənilir. Qeyd edim ki, iyul proqnozumuz 5,4 faiz olmuşdur və bu inflyasiya proqnozunda dəyişiklik ticarət tərəfdaşlarında inflyasiyanın daha aşağı olacağı ilə bağlıdır.

Pul siyasəti ilə bağlı qeyd etmək istəyirəm ki, Mərkəzi Bank cari ilin ötən dövründə həm qiymətlər sabitliyini təmin etmək, həm də pul siyasətinin ötürücülüyünü gücləndirmək istiqamətində bir sıra islahatlar həyata keçirmiş və qabaqlayıcı rejimdə müvafiq qərarlar qəbul etmişdir.

Məlum olduğu kimi, Mərkəzi Bank ötən ilin noyabr ayından cari ilin may ayınadək uçot dərəcəsini 9 faizdən 7,25 faizədək aşağı salmaqla monetar şəraiti neytral səviyyəyə çatdırmışdır.

Likvidliyin tənzimlənməsi ilə bağlı qeyd edim ki, Mərkəzi Bank cari ilin əvvəlindən başlayaraq sterilizasiya əməliyyatlarının həcmini kəskin azaltmışdır. Belə ki, Mərkəzi Bankın emissiya etdiyi notların həcmi cari ilin 10 ayında 3,2 dəfədən çox azalmışdır. Bu isə bank sektorunun likvidliyinə müsbət təsir göstərmişdir.

Mərkəzi Bankın həyata keçirdiyi maliyyə sabitliyi siya-

səti maliyyə sektorunun stabil fəaliyyətinə və ödənişlərin fasiləsizliyinə yönəldilmişdir. Qeyd edim ki, siyasətimizin mühüm istiqamətlərindən biri də maliyyə sektorunun inkişafı, xüsusi ilə də onun inklüzivliyinin artırılmasıdır.

Bank sektoru stabil və dayanıqlıdır. Sektorun mövcud kapitalı və likvidlik mövqeyi bunu deməyə əsas verir. Hər iki normativ üzrə faktiki göstəricilər minimum tələbi əhəmiyyətli üstələyir. Belə ki, oktyabr ayının 1-nə sektorun kapital adekvatlığı 17,2, likvidliyin örtülmə əmsalı isə 134 faiz təşkil etmişdir.

Cari ildə də əhalinin və sahibkarların maliyyəyə çıxış imkanlarının artırılması xüsusi diqqətdə saxlanılmışdır. 10 ayda bank sektorunun kredit portfeli 16,8 faiz, o cümlədən biznes kreditləri 15,9 faiz artmışdır. Biznes kreditlərinin payı ümumi portfelin 54 faizini üstələyir.

Hörmətli millət vəkilləri, bu ilin əvvəlindən Vergi Məcəlləsində depozit gəlirlərinə vergi güzəştləri ilə bağlı edilmiş dəyişikliklər nəticəsində milli valyutada kiçik həcmli əmanətlərin sayında və uzunmüddətli əmanətlərin yerləşdirilməsində artım müşahidə olunmuşdur. Belə ki, milli valyutada 30 min manatadək əmanəti olanların sayı cari ilin 9 ayında 36 faiz artmışdır. Bu güzəştlərin nəticəsində 1 ildən yuxarı milli valyutada əmanətlərin payı 48,8 faizdən 56 faizə çatmışdır. Qeyd olunan dəyişikliklər və pul siyasəti sahəsində aparılan islahatlar bank sektoruna olan inama müsbət təsir etmişdir.

Cari ilin 9 ayında əhalinin banklarda olan əmanətləri 10 faiz və ya 1,3 milyard manat artaraq 13,8 milyard manatı üstələmişdir ki, bu da tarixi rekord göstəricidir.

Son illər ərzində xarici valyutada əmanətlərin ümumi əmanət portfelində payı azalmışdır ki, bu da dedollarlaşma

prosesinin göstəricisidir. Belə ki, 2021-ci ilin sonuna əmanət portfelində xarici valyutada əmanətlər 41,7 faiz təşkil etdiyi halda, 2024-cü ilin oktyabrında bu göstərici 34 faiz olmuşdur.

Sığorta sektoru üzrə qeyd etmək istərdim ki, ötən ilin eyni dövrünə nəzərən 9 ayda sığorta haqları 9,4 faiz artaraq 1 milyard manatı üstələmişdir, sığorta ödənişləri isə 38,2 faiz artaraq 554 milyon manat təşkil etmişdir. Sentyabr ayının sonuna sektorun məcmu kapitalı 359 milyon manat təşkil etmişdir ki, bu da tələb olunan kapitalın təqribən 80 faiz üstələnməsi deməkdir.

Kapital bazarlarının inkişafına gəldikdə isə 9 ayda korporativ qiymətli kağızlar üzrə ticarət dövriyyəsi ötən ilin eyni dövrünə nəzərən 62 faiz artaraq 2,8 milyard manatı üstələmişdir.

Cari ilin sentyabr ayında ölkəmizin kapital bazarları tarixində ilk dəfə olaraq Azərbaycan Beynəlxalq Bankının səhmlərinin kütləvi təklif üsulu ilə uğurla yerləşdirilməsi baş tutmuşdur. Məlumat üçün qeyd edim ki, 33 mindən çox investor 56,5 milyon manat dəyərində bankın səhmlərini əldə etmişdir.

Həyata keçirdiyimiz siyasətin mühüm istiqamətlərindən biri də ölkədə nağdsız ödənişlərin artımıdır. Cari ilin 9 ayında ötən ilin eyni dövrünə nəzərən ödəniş kartları ilə aparılan ölkədaxili nağdsız əməliyyatların həcmi 68,4 faiz artaraq 56 milyard manata çatmışdır.

Xüsusi qeyd etmək istərdim ki, cənab Prezidentin rəhbərliyi altında ölkə iqtisadiyyatının davamlı inkişafı və onun xarici risklərə qarşı dayanıqlığının artırılması üzrə həyata keçirilən çoxvektorlu islahatlar, o cümlədən pul siyasəti çərçivəsinin təkmilləşdirilməsi, maliyyə sektoru-

nun sabitliyinin möhkəmləndirilməsi və maliyyə bazarlarının inkişafına yönələn tədbirlər nəticəsində uzun müddətdən sonra cari ildə ölkəmiz investisiya kredit reytinqi səviyyəsinə yüksəlmişdir.

2025-ci ilin büdcə layihəsinə gəldikdə isə bir sıra məqamlara toxunmaq istərdim. 2025-ci il və ortamüddətli dövrə təqdim edilən makrofiskal çərçivə qarşıda duran bir sıra prioritetlərə cavab verir. Buraya sosial rifahın gücləndirilməsi, iqtisadi inkişafın dəstəklənməsi, ölkənin müdafiə qabiliyyətinin artırılması, azad olunmuş ərazilərin bərpası və iqtisadi sistemə inteqrasiyası kimi mühüm məsələlər daxildir.

Mərkəzi Bank ümumən dövlət büdcəsinin fiskal qayda çərçivəsində tərtibini və büdcə qaydasında müəyyən olunmuş meyarların gözlənilməsini müsbət qiymətləndirir.

2024-cü ilin gözlənilən icra göstəriciləri ilə müqayisədə 2025-ci ildə dövlət büdcəsinin cəmi xərclərinin konservativ 5,4 faiz artımını məqbul qiymətləndiririk. 2024-cü ilin büdcəsi ilə müqayisədə 2025-ci il üzrə büdcə kəsirinin 303 milyon manat azaldılmasını da müsbət dəyərləndiririk. Eyni zamanda, büdcə kəsirinin 1,8 milyard manat həcmində daxili borclanma hesabına maliyyələşməsi də məqbul hesab olunur. Qeyd edim ki, büdcə kəsirinin azaldılması və əsasən, qeyri-emissiya mənbələri hesabına maliyyələşdirilməsi məqsədəuyğundur. Bununla yanaşı, hesab edirik ki, daxili borclanma maliyyə bazarlarının inkişafını dəstəkləyir.

Mərkəzi Bank 2025-ci ildə dövlət büdcəsinin cəmi xərclərinin, o cümlədən cari və əsaslı xərclərinin valyuta bazarında tələbə və inflyasiya proseslərinə təsirlərini davamlı qiymətləndirir. Apardığımız qiymətləndirmələrə

görə 2025-ci ilin dövlət büdcəsində büdcə xərcləri inflyasiyaya 0,2 faiz bənd artırıcı təsir göstərir. Bu da, əsasən, cari xərclərdən irəli gəlir. Hesablamalara görə əsaslı xərclərin inflyasiyaya təsiri əhəmiyyətli deyil.

Diqqətdə saxlanmalı məsələlərdən biri də dövlət büdcəsində valyuta komponentli xərclərin artımıdır. Bu xərclər valyuta bazarında tələb-təklifə təsir edir və bu səbəbdən təşkilatarası koordinasiyanın daha da gücləndirilməsi diqqətdə saxlanılacaq.

İndi isə 2025-ci il üzrə Mərkəzi Bankın siyasət prioritetləri barədə danışmaq istərdim.

2025-ci ildə də Mərkəzi Bankın pul siyasətinin əsas məqsədi 12 aylıq inflyasiyanın hədəf diapazonunda saxlanılmasıdır. Məlum olduğu kimi, aşağı və stabil inflyasiya səviyyəsi əhalinin gəlirlərinin və yığımlarının dəyərsizləşməsinin qarşısını alır. Bu, həm də investisiya qoyuluşlarını dəstəkləməklə iqtisadi aktivlik üçün əlverişli şərait yaradır. Mərkəzi Bankın oktyabr proqnozuna görə 12 aylıq inflyasiyanın 2025-ci ildə 5,8 faiz olacağı gözlənilir.

Mərkəzi Bank tərəfindən 2025-ci ildə iqtisadi artımın 3,3 faiz, qeyri-neft-qaz iqtisadi artımın isə 5,1 faiz ətrafında olacağı proqnozlaşdırılır. Onu da qeyd etməliyəm ki, qeyri-neft-qaz sektoru üzrə proqnozlarımız ölkə iqtisadiyyatının uzunmüddətli artım tempinə uyğundur. Proqnozlara görə ev təsərrüfatlarının və dövlət idarələrinin son istehlak xərcləri qeyri-neft-qaz iqtisadi artımın əsas mənbəyi kimi çıxış edəcəkdir.

2025-ci ildə də makroiqtisadi sabitliyin əsas lövbəri məzənnə sabitliyi olacaqdır. Bu səbəbdən pul siyasətinin ötürücülüyündə məzənnə kanalının başlıca rol oynayacağı gözlənilir.

Tədiyyə balansının profisitli olması valyuta bazarında tarazlığı dəstəkləyən başlıca amil olaraq qalır və Mərkəzi Bankın baza ssenarisi üzrə cari əməliyyatlar hesabının profisitinin 2025-ci ildə 5,5 milyard ABŞ dolları təşkil edəcəyi gözlənilir.

Növbəti ildə də faiz dəhlizinin parametrləri, xüsusi ilə də uçot dərəcəsi ilə bağlı qərarlar qəbul olunarkən faktiki inflyasiya, inflyasiya gözləntiləri və proqnozları, habelə maliyyə bazarının göstəriciləri əsas götürüləcəkdir. Mərkəzi Bank monetar şəraitin uçot dərəcəsi vasitəsi ilə tənzimlənməsi üçün sərəncamında olan alətlərdən istifadəni davam etdirəcək və zəruri təkmilləşdirmələr aparacaqdır.

Mərkəzi Bankın fəaliyyət istiqamətlərinin bir-biri ilə uzlaşdırılması növbəti ildə də diqqətdə saxlanılacaqdır. Maliyyə sisteminin mühüm sektorları olan sığorta, kapital bazarları və ödəniş sistemlərinin inkişaf etdirilməsi, habelə bank sektorunun dayanıqlığının daha da gücləndirilməsi Mərkəzi Bankın strateji prioritetləri olacaqdır.

Ölkədə maliyyə dərinliyinin artırılması, maliyyə sabitliyinin qorunması, rəqəmsal ödənişlərin genişləndirilməsi və maliyyə xidmətləri istehlakçılarının hüquqlarının müdafiəsi və digər məsələlər növbəti ilin əsas hədəfləridir.

Çıxışımın sonunda bildirmək istəyirəm ki, Mərkəzi Bank, həmişə olduğu kimi, qarşıdakı dövrdə də Milli Məclisin aidiyyəti komitələri və hörmətli millət vəkilləri ilə sıx əməkdaşlığa önəm verəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Taleh müəllim, çox sağ olun. Hörmətli həmkarlar, indi isə söz Azərbaycan Respublikası Hesablama Palatasının sədri hörmətli Vüqar Gülməmmədova verilir. Vüqar müəllim, buyurun.

**Vüqar Gülməmmədov,** *Azərbaycan Respublikası Hesablama Palatasının sədri.*

Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli millət vəkilləri, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri, hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri, xanımlar və cənablar!

İlk olaraq Azərbaycanın bütün ərazisində keçirilmiş parlament seçkilərində qalib gəlmiş millət vəkillərini təbrik edir, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıram.

Hesablama Palatasının 2025-ci ilin dövlət büdcəsinin layihəsinə rəyi dövlət büdcəsinə dair qanun layihəsinin və onunla birlikdə təqdim olunan sənədlərin hüquqi aktlara uyğunluğu, dövlət büdcəsinin gəlir, xərc və kəsir üzrə proqnoz göstəricilərinin düzgünlüyü və tamlığı, bu göstəricilərin əsas makroiqtisadi parametrlərə və strateji sənədlərə adekvatlığı barədə ali audit orqanının mövqeyini ifadə edir.

2025-ci ilin dövlət büdcəsi neft gəlirlərinin səngiməsi, qeyri-neft gəlirləri üzrə artımın dayanıqlılığının qorunması kimi milli iqtisadiyyatımızı səciyyələndirən mühüm prizmalardan dəyərləndirilmiş və proqnozlaşdırılmışdır.

Büdcə əsas maliyyə planı olmaqla, qlobal çağırışlar, dövlət maliyyəsinin idarə edilməsi üzrə islahatların tələbi və cəmiyyətin sosial ehtiyaclarını qarşılamaq kimi vəzifələrin icrasına hədəflənmişdir.

Apardığımız qiymətləndirmələr büdcə zərfinin, o cümlədən qanun layihəsinin "Büdcə sistemi haqqında" Qanuna, əsasən, uyğun tərtib edildiyini, qanun layihəsindəki gəlir, xərc və kəsir parametrlərinin, əsasən, düzgün proqnozlaşdırıldığını deməyə əsas vermişdir.

Eyni zamanda, qeyd edim ki, Hesablama Palatasının tövsiyələri də nəzərə alınmaqla, qanun layihəsi Milli Məclisə təqdim olunanadək bəzi maddələrin göstəricilərinin hüquqi aktlara uyğunlaşdırılması və dəqiqləşdirilməsi həyata keçirilmişdir.

Rəydə ölkənin ən vacib strateji sənədinin büdcə sənədləşməsində nəzərə alınması vəziyyətinə münasibət bildirməyə çalışmışıq. Qiymətləndirmələrimizə əsasən, "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın makrofiskal göstəriciləri proqnozlarda, həmçinin əksər tədbirlərin maliyyə təminatı icraçı qurumların büdcələrində tam və ya qismən nəzərə alınmışdır.

Təqdim edilmiş məlumatlara əsasən, büdcə qaydasının fəlsəfəsində dəyişiklik nəzərdə tutulur ki, bu qaydanın birinci komponenti, yəni icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbəti üzrə illik hədəflənmə ortamüddətli hədəflənmə ilə əvəzlənir. Büdcə qaydasının illik hədəflənməsindən imtinanın çevik idarəetməyə şərait yaradacağı qənaətindəyik. Bununla bərabər, fikrimizcə, qısamüddətli dövr üzrə nisbətlərin müəyyən edilməməsi ortamüddətli dövrün məqsədləri üçün risklər yarada bilər.

Qanunvericiliyə müvafiq olaraq, son üç ildir ki, büdcə zərfinə xalis maliyyə aktivləri barədə arayış daxil edilir. Bir qayda olaraq, xalis maliyyə aktivləri dövlətin maliyyə aktivləri ilə maliyyə öhdəlikləri arasındakı fərq kimi götürülür. Makrofiskal çərçivənin qiymətləndirilməsi üçün hesablanan bu indikator fiskal dayanıqlılığa təhdidləri aşkarlamağa və bu əsasda cari vəziyyəti dəyərləndirməyə imkan verir. Bu halda 3 əsas aspekt – borc, pensiya və

təbii resursdan asılılıq baxımından fiskal dayanıqlılığın qiymətləndirilməsi üçün əsas götürülür.

Büdcə zərfinə əsasən xalis maliyyə aktivlərinin məbləği 77,6 milyard manat olmaqla ümumi daxili məhsulun 60 faizi ətrafındadır. Bu, digər ölkələrin analoji göstəricisi ilə müqayisədə yüksəkdir. Lakin bu göstəricinin nə qədər doğru olduğu bir qədər mübahisəlidir və büdcə zərfinə daxil edildiyi tarixdən bu göstəricinin hesablanmasında sualların olduğunu bildirmişik.

Apardığımız təhlillər göstərir ki, bu göstəricinin hesablanma metodikası da dəqiqləşdirilməlidir. Hesab edirik ki, burada cavab tapmalı olduğumuz ən vacib suallardan biri nəyin, başqa sözlə desək, hansı sektorun xalis maliyyə aktivlərini hesabladığımızı müəyyənləşdirməkdir. Bu dəqiqləşdirmələr, əlbəttə ki, qanunvericilikdə dəyişiklikləri də zəruri edəcəkdir. Bundan əlavə, bu göstəricinin büdcə sənədləşməsinin digər məlumatları ilə də əlaqələndirilməsinə ehtiyac var.

Büdcə zərfində xam neftin qiymətinin dəyişməsi, dövlət borcu və zəmanəti üzrə maliyyə öhdəlikləri, büdcə xərclərinin dayanıqlı gəlir mənbələri ilə təmin olunmaması və iqlim dəyişiklikləri əsas fiskal risklər kimi şərh olunmuş, risklərə qarşı mitiqasiya tədbirləri əks etdirilmişdir. Hesablama Palatası olaraq bu risk amilləri üzrə narahatlığı biz də bölüşürük.

Hesablama Palatası tərəfindən aparılmış təhlillər büdcə sənədləşməsində şərh edilən risklərlə yanaşı, dövlət maliyyəsi üzrə də bəzi digər risklərin olduğunu göstərir. Biz bu riskləri 3 istiqamətdə – makroiqtisadi, spesifik və institusional olaraq qruplaşdırmışıq.

Hörmətli millət vəkilləri, 2025-ci ilin dövlət büdcəsinin

gəlirləri, o cümlədən yığımı təmin edən əsas fiskal qurumlar üzrə artım proqnozlaşdırılmışdır. 2024-cü ilə nisbətən Dövlət Vergi Xidməti üzrə daxilolmalar 230 milyon manat, Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar isə 165 milyon manat artırılır. Növbəti ildə baza ssenari proqnozların icra olunacağı şəraitdə gəlir inzibatçıları üzrə proqnozların icrasında ciddi risklərin olmayacağı qənaətindəyik.

2024-cü ildən başlayaraq qeyri-neft gəlirlərinin dövlət büdcəsinin yarıdan çoxunu təşkil edəcəyi proqnozlaşdırılır. Dövlət Neft Fondu yüksək transfertləri fonunda bu halın müşahidə edilməsini müsbət qiymətləndiririk. Bu müsbət dinamikaya neft sektorundan mənfəət vergisinin azalması ilə yanaşı, qeyri-neft gəlirlərinin artması da təsir edir.

2025-ci ildə bu artımın 924 milyon manat olacağı proqnozlaşdırılır. Bu məlumatı da qeyd edim ki, qeyri-neft gəlirlərinin artımı 2025-ci ilin güzəşt və azadolmalar üzrə dövlət büdcəsinə hesablanmayan məbləğin də artacağı fonunda proqnozlaşdırılır. Güzəşt və azadolmaların davamlı tətbiqi əlavə dəyərin artımını səciyyələndirsə də, hesab edirik ki, həmin artımın büdcə gəlirlərinə transformasiyasının birbaşa deyil, dolayı gözləntiləri yaxın perspektivdə özünü doğrultmalıdır.

Növbəti ilin büdcə məlumatlarının təhlili büdcə xərclərinin strukturunda ciddi dəyişikliklərin nəzərdə tutulduğunu göstərir. 2024-cü illə müqayisədə əsaslı xərclərdə azalma, bu, təqribən 8,1 faiz, cari və dövlət borcuna xidmət xərclərində isə artım müvafiq olaraq 7,7 faiz və 85,2 faiz proqnozlaşdırılmışdır. Göründüyü kimi, cari tələbatın ödənilməsi məqsədi ilə ayrılan vəsaitin növbəti ildə də artacağı nəzərdə tutulur. Cari xərclərin artım

tempinin büdcənin xərclərinin artım tempini üstələməsi və bu xərclərin büdcədə payının 60 faizə qədər yüksələcəyi nəticəsinə gəlmişik. Artım meylinin ortamüddətli dövrdə də davam edəcəyi proqnozlaşdırılır. Hesab edirik ki, cari xərclərin optimallaşması ilə bağlı növbəti illərdə büdcə-vergi siyasətindəki istiqamətlərə baxıla bilər.

Cari xərclərin artımı təbii resurslarla zəngin dövlətlər üçün makrofiskal diaqnostikada istifadə edilən qeyri-resurs gəlirlərinin cari xərc nisbətinin dövlət maliyyəsinin dayanıqlılığı baxımından diqqətdə saxlanılmasını labüd edir. Təhlillərimiz, – hörmətli komitə sədri Azər müəllim də qeyd etdi, – bu nisbətin 2 faiz bənd azalaraq 78,7 faiz, müdafiə olunan xərclərin qeyri-neft-qaz gəlirləri ilə təmin olunma səviyyəsinin isə 126,3 faiz səviyyəsində olacağını göstərir. Başqa sözlə desək, resursdan asılı olmayan və daha dayanıqlı hesab edilən gəlirlərimiz cari xərclərin maliyyələşdirilməsinə tam imkan vermir. Bu gəlirlər müdafiə olunan xərcləri maliyyələşdirmək üçün isə kifayət edir.

Dövlət büdcəsindəki əsaslı xərclər üzrə komponentlərdən ikisinin – işğaldan azad olunmuş ərazilərə ayrılan vəsait və dövlət əsaslı vəsait qoyuluşu xərclərinin ümumi daxili məhsula xüsusi ilə tikinti sektoru vasitəsi ilə təsiri daha əhəmiyyətlidir. Qeyd edim ki, növbəti ildə hər iki komponentin cəmi məbləği 6,7 milyard manat olmaqla əvvəlki ilə nisbətən az proqnozlaşdırılmışdır.

Dövlət əsaslı vəsait qoyuluşu xərcləri hesabına növbəti ildə maliyyələşdirilməsi nəzərdə tutulan, ümumi dəyəri 21,5 milyard manat təşkil edən 169 layihə üzrə proqnozlaşmış vəsaitdən 14 yeni layihəyə 444,2 milyon manat, 155 keçid layihəyə 1,3 milyard manat vəsaitin yönəldilməsi nəzərdə tutulur. Qeyd etmək lazımdır ki, ümumi də-

yəri 798,4 milyon manat təşkil edən 85 layihənin 2025-ci ildə başa çatdırılması üçün 267,8 milyon vəsait proqnozlaşdırılır.

Dövlət əsaslı vəsait qoyuluşu xərcləri üzrə daha fərqli bir məqam da vardır. Belə ki, bu xərclərin bir hissəsinin, yəni 895,9 milyon manatının beynəlxalq kreditor qurumların təqdim etdiyi kreditlər hesabına layihələrin maliyyələşməsinə yönəldiləcəyi gözlənilir. Yəni bu vəsaitin bir hissəsi infrastruktur layihələrinə yönəldilsə də, eyni zamanda, büdcə üçün gələcək borc yüküdür.

Qeyd edim ki, dövlət borcuna xidmət xərclərində də artım nəzərdə tutulur. Növbəti il üçün borca xidmət xərclərinin tərkibində faiz ödənişləri 1,3 milyard manat proqnozlaşdırılır.

Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli iclas iştirakçıları. Növbəti ilin büdcə layihəsi ilə bağlı bir neçə əsas məqamı da diqqətinizə çatdırmaq istərdim.

Növbəti il 3,1 milyard manat proqnozlaşdırılan büdcə kəsirinin 1,8 milyard manatının daxili dövlət borclanması hesabına maliyyələşdirilməsi nəzərdə tutulur. Dövlət istiqrazları hesabına daxili dövlət borcunun artması davam etməkdədir ki, bu da özündə faiz xərclərinin artması ilə bağlı faiz riski, borcun yenidən maliyyələşdirilməsi zərurətindən irəli gələn təkrar maliyyələşmə riski, maliyyə bazarlarına kifayət qədər vəsait cəlb etməklə əlaqəli likvidlik riskinin aktuallaşmasının göstəricisidir.

Borca xidmət üzrə faiz xərclərinin ötən illə müqayisədə 308 milyon manatdan çox nəzərdə tutulması, daxili borc portfelində müşahidə edilən qısamüddətli borcların üstünlük təşkil etməsi, dövlət istiqrazlarının orta gəlirlilik dərəcəsindəki fərqli dinamika bu risk amillərinin xüsusi

diqqətdə saxlanılmasının vacib olduğunu göstərir. Hesablama Palatası olaraq bu istiqamətdə bəzi təkliflərlə də çıxış etmək istəyirik.

Cari ilin 10 ayının icra göstəricisinə əsasən dövlət büdcəsinin gəlirləri xərcləri təqribən 3 milyard manat üstələyir. Bu da büdcədə ilin sonunda əhəmiyyətli qalıq vəsaitlərin yaranması gözləntilərini formalaşdırır. Vaxtı çatmış öhdəliklərin birbaşa sərbəst qalıq hesabına ödənilməsi ilə bağlı icra mexanizminin yaradılmasını da təklif edirik. Bununla yanaşı, profisitli büdcə şəraitində borclanmadan istifadə edilməməsinə və monetar siyasətin hədəfləri nəzərə alınmaqla, qısamüddətli istiqrazların vaxtından əvvəl investorlardan geri alınması məsələsinə də baxıla bilər. Qeyd etdiyim bu hallar dövlət borcunun həcminin azaldılması ilə yanaşı, növbəti illərdə faiz xərclərinin əhəmiyyətli dərəcədə artımının qarşısının alınmasına imkanlar da yarada bilər.

İkinci əsas məqam. 2025-ci ilin dövlət büdcəsində büdcə təşkilatlarının büdcədənkənar xərcləri büdcədənkənar gəlirlərindən 100 milyon manat artıq olmaqla 940 milyon manat məbləğində nəzərdə tutulmuşdur ki, bu da cari illə müqayisədə 13,1 faiz çoxdur. Aparılmış təhlillər cari ilin gözlənilən icra göstəricisi ilə müqayisədə növbəti ildə büdcədənkənar vəsaitlər hesabına əməyin ödənişi xərclərinin 27,5 faiz artacağını göstərir. Bu da dövlət büdcəsində müvafiq xərclərin artım tempindən 17,3 faiz bənd çoxdur.

Sonuncu göstəriciyə istinad edərək bildirməliyəm ki, büdcədənkənar gəlirlər dövlət sektorunda, o cümlədən dövlət qulluğunda əməyin ödənişi fondunun eyni kateqoriya orqanlar üzrə əhəmiyyətli, bəzən 1,5 nisbətdə və daha çox fərqlənməsinə səbəb olur. Bu məsələdə publik hüquqi

şəxslərin əməkhaqqı fondu da aktualdır. Fikrimizcə, bu istiqamətdə dövlət sektorunda əməyin ödənişi üzrə qurumlararası disproporsiyalar da diqqətdə saxlanılmalıdır.

Üçüncü, apardığımız təhlillər göstərir ki, ölkə üzrə əsas kapitala yönəldilən investisiyaların hesabatlığının təkmilləşdirilməsinə də ehtiyac var. Dövlət büdcəsinin investisiya xərclərini statistik hesabatlardakı müvafiq göstəricilər ilə müqayisə etmişik. Təhlil əhəmiyyətli fərqlərin olduğunu göstərir. Fərqlərin səbəblərini araşdırmağa çalışmışıq. Fərqlərin bir hissəsi metodoloji yanaşmalarla bağlı olsa da, digər hissəsi bəzi qurumların statistik hesabatları təqdimetmə intizamındakı problemlərdən irəli gəlir. Qeyd olunan hallar sonda ölkənin makroiqtisadi göstəricilərinin doğruluğuna da təsir edə bilər. Hesab edirik ki, bu məsələ ilə bağlı müxtəlif dövlət orqanlarının fəaliyyətindəki əlaqələndirmə bir qədər də gücləndirilməlidir.

Dördüncü əsas məqam. Rəydə dövlət büdcəsi ilə yanaşı, icmal büdcənin gəlir və xərclərinin də tamlığının qiymətləndirilməsinə çalışmışıq. Bəzi gəlirlər və xərclərin icmal büdcədə tam əks olunmadığı nəticəsinə gəlmişik. Belə ki, dövlət icbari şəxsi sığorta üzrə gəlirlər və 2 sosial fondun investisiya fəaliyyətindən gəlir və xərclər icmal büdcədə nəzərə alınmır. Diqqətə çatdırım ki, icmal büdcədəki digər fondlar – Dövlət Neft Fondu və İcbari tibbi sığorta fondunun vəsaitlərinin idarə edilməsi üzrə daxilolmalar icmal büdcəyə daxil olur. Məbləğlər müvafiq büdcələrə nisbətdə əhəmiyyətli olmasa da, – 2024-cü ildə bunun təqribən 150 milyon manat olması gözlənilir, – növbəti illərdə bu məbləğin arta biləcəyi fonunda Hesablama Palatası olaraq icmal büdcənin komponentləri üzrə vahid yanaşmanın tətbiqinin və qeyd etdiyim məbləğlərin

kənarda qalmamasının vacibliyini bildirmək istərdim.

Beşinci, son illərdə ölkəmizdə dövlət maliyyə idarəçiliyi sahəsində bir sıra islahatlar keçirilib. Xüsusi ilə burada büdcə qaydasının və ortamüddətli xərclər çərçivəsinin tətbiqini, mühasibat uçotu sahəsində beynəlxalq standartlara keçidi və sairi qeyd edə bilərəm. Hesab edirik ki, bu islahatlar davam etdirilməlidir. İslahatların növbəti fazası çərçivəsində büdcənin əsas parametrlərinin hesablanması metodikasına və təsnifləşdirilməsinə yenidən baxılmasını da təklif edirik. Bunun üçün ilk növbədə vahid büdcə təsnifatında dəyişikliklər aparılmalı və qabaqcıl təcrübəyə uyğunlaşdırılmalıdır. Qeyd edim ki, hazırda qonşu ölkələrin bəziləri artıq bu praktikaya keçid ediblər.

Hazırda büdcə təsnifatında fiskal balansın, yəni kəsirin maliyyələşmə mənbələrinin təsnifləşdirilməsi öz əksini tapmır. Bu göstəricinin komponentlərindən biri də özəlləşdirmədən daxilolmalardır. Kəsirin maliyyələşmə mənbələrinin vahid büdcə təsnifatı ilə müəyyən edilməməsi icra prosesinə də təsirsiz ötüşmür və qeyri-müəyyənliklərin yaranması ilə nəticələnir.

Rəydə özəlləşdirmədən daxilolmaların tərkibini araşdırmışıq və bu daxilolmaların tərkibinin bir hissəsinin birbaşa gəlir parametri ilə bağlı olduğunu müəyyən etmişik. Hesab edirik ki, büdcə qaydasının hesablamaların aparılması zamanı özəlləşdirilmədən daxilolmaların gəlir parametri ilə əlaqəli olmayan digər hissəsinin qeyri-neft daxilolmalarında nəzərə alınması məsələsinə də baxıla bilər.

Nəhayət, sonuncu, qeyd etmək istədiyim növbəti məqam büdcə planlaşdırılması zamanı müraciət olunan metodologiya ilə bağlıdır. Hazırda dünyada iki əsas büdcə planlaşdırma metodu var. Bunun biri büdcə

inkrementalizmi və fəaliyyət büdcəsidir. Dünyada hazırkı tarixədək bunun alternativi yoxdur.

Ölkədə 4 ildir reallaşdırılan ortamüddətli xərclər çərçivəsi islahatı üzrə Hesablama Palatası tərəfindən 5 audit çərçivəsində aparılan qiymətləndirmələr onu deməyə əsas verir ki, xərclərin əsaslılığının müəyyən edilməsi üçün istifadə edilən monitorinq göstəriciləri əksər hallarda həmin sahə üzrə əsas problemləri qiymətləndirməyə imkan vermir. Bu sənəd sahə üzrə bəzi hallarda keyfiyyət deyil, kəmiyyət xarakterli şərti göstəricilərin toplusundan ibarətdir.

Ortamüddətli xərclər çərçivəsi ilə əhatə edilən 3 bölmə və əhatə edilməsi nəzərdə tutulan digər 3 bölmə üzrə cəmi xərclərin dövlət büdcəsi xərclərində xüsusi çəkisinin tədricən yüksələrək 2028-ci ildə 37 faizə bərabər olacağı proqnozlaşdırılır. Ortamüddətli xərclər çərçivəsi ilə əhatə olunan xərclərin artımı isə büdcə vəsaitlərinin faydalılığının qiymətləndirilməsini daha da aktuallaşdıracaqdır. Məhz bu səbəbdən institusional boşluqların aradan qaldırılmasının zəruri olduğunu bildirmək istərdim.

Hörmətli millət vəkilləri, büdcə ölkə strategiyasının icrasının əsas maliyyə mənbəyidir. Bu əsasda istər ölkə strategiyasında, istərsə də ölkəmizin beynəlxalq çağırışlara adekvat cavab verilməsində dövlət büdcəsi layihəsinin rolu ön plana çıxır.

Qeyd etdiyim araşdırmaların və təhlillərin nəticələrini ümumiləşdirərək Hesablama Palatası belə qənaətə gəlib ki, Milli Məclisə təqdim olunmuş Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında qanun layihəsi qanunvericiliyin müvafiq tələblərinə uyğun hazırlanmış və təqdim olunmuşdur.

Çıxışımın sonunda bildirmək istəyirəm ki, Hesablama Palatası tərəfindən rəyin oxunaqlığının artırılması üçün rəy üzrə 25 səhifədən ibarət əlavə xülasə hazırlanmışdır. Rəyin və xülasənin müzakirələrdə faydalı olacağına ümid edirik. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Vüqar müəllim. Hörmətli həmkarlar, fasilə elan edilir. İşimizə saat 3-də davam edəcəyik. Sağ olun.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** Hörmətli həmkarlar, işimizi davam etdiririk. Biz bütün məruzələri dinlədik. İndi isə müzakirələrə keçirik. Xahiş edirəm, yazılın.

Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli Baş nazir, hörmətli hökumət üzvləri, hörmətli həmkarlar, mətbuat nümayəndələri. 2025-ci ilin dövlət büdcəsi, demək olar ki, ölkəmizdə gedən iqtisadi proseslərin və möhtərəm Prezidentimizin həyata keçirdiyi iqtisadi islahatların bariz nümunəsidir. Biz ərazi bütövlüyümüzü bərpa etdikdən sonra Azərbaycanda ictimai-siyasi vəziyyətə tam, ən yüksək səviyyədə nəzarət edildiyi, ictimai-siyasi sabitliyin yarandığı, xalq–iqtidar birliyi olan dövrdə dövlət büdcəsi də, Azərbaycan iqtisadiyyatı da inkişaf edir, Azərbaycana investisiyalar qoyulur, Azərbaycan investisiyalar üçün cəlbedici bir ölkəyə çevrilir. Burada hörmətli Baş nazirin rəhbərliyi ilə hökumətin ciddi şəkildə apardığı işlər də var. Bunu da təqdirəlayiq hesab edirik. Hesab edirik ki, elə COP29-un Azərbaycanda keçirilməsi həm cənab Prezidentin dünyada olan nüfu-

zunun, gördüyü işlərin, dünyaya verdiyi töhfələrin, Birinci vitse-prezidentimizin humanist siyasətinin, o cümlədən Azərbaycan hökumətinin, Azərbaycan parlamentinin istənilən tədbiri yüksək səviyyədə keçirməsinin bariz nümunəsidir. Biz hər dəfə büdcə layihəsini müzakirə edəndə sevindirici hal ondan ibarətdir ki, hər il bizim büdcəmiz artır, hətta deyərdim, ildə bir neçə dəfə büdcədə artımı müzakirə edirik, büdcə proqnozları özünü doğrultmaqla yanaşı, artıqlaması ilə yerinə yetirilir. Bunun nəticəsi olaraq da Azərbaycan büdcəsində nəzərdə tutulmuş bütün sahələrdə işlərin getməsi üçün lazım olan vəsait öz əksini tapır.

Biz komitələrdə bu məsələləri geniş şəkildə müzakirə etmişik. Azərbaycan parlamentinin bütün komitələri bu məsələlərə yekdilliklə öz razılıqlarını veriblər və Milli Məclisin plenar iclasına təqdim edilib.

Bu gün mən bir neçə sahədə, əsasən, 3 istiqamətdə olan məsələlərlə əlaqədar öz fikirlərimi bildirmək istəyirəm.

Birinci istiqamət ümumi istiqamətdir. Burada söhbət nədən gedir? Bizim hörmətli nazirlərimiz burada məruzələrində rəqəmləri ətraflı şəkildə təqdim etdilər. Lakin bir neçə məsələ, məqam var ki, bəzi hallarda biz eşidirik, Azərbaycanı Cənubi Qafqazın başqa dövlətləri ilə müqayisə edirlər. Mən hesab edirəm, Azərbaycan indi elə bir inkişaf səviyyəsindədir ki, Cənubi Qafqazın hər hansı bir ölkəsi ilə müqayisə olunan səviyyədə deyil. Azərbaycan bu gün Şərqi və Mərkəzi Avropanın inkişaf etmiş ölkələri ilə müqayisə oluna bilər. Bu müqayisələrdə müəyyən detalları biz ictimaiyyətin diqqətinə çatdırmalıyıq. Düzdür, burada həm dövlət nümayəndələri, həm də parlament üzvləri bu fikirləri söyləməlidirlər.

Baxın, dövlət büdcəsində 4 əsas məsələdir – müdafiə və

təhlükəsizlik, sosial təminat, işğaldan azad olunan ərazilərin bərpası və digər sahələrdə aparılan quruculuq işləri. Azərbaycanın özündən asılı olmayaraq düşdüyü elə proseslər var, məcburdur ki, oraya vəsait ayırsın. Götürək, Azərbaycanın ərazilərinin 30 ildən artıq işğal altında qalması və 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan qazandığı kifayət qədər vəsaitləri bu istiqamətdə xərcləyib. Bolqarıstanda bu gün mina təmizləməyə pul ayrılmır. Amma bu gün Azərbaycan məcburdur ki, ermənilər tərəfindən Azərbaycan ərazisində basdırılmış 1 milyondan artıq minanı təmizləyib o torpağı yararlı vəziyyətə gətirmək üçün vəsait ayırsın. Əgər bu olmasa, digər sosial problemlərin həllinə vəsait ayrıla bilər.

Burada qeyd olundu, göstərilib ki, işğaldan azad olunan ərazilərin bərpası ilə əlaqədar 4 milyard manat ayrılıb. 30 ildə bizim məktəblər, xəstəxanalar, mədəniyyət evləri, məscidlər, yaşayış evləri dağıdılıbdır. Hər il biz buna 4 milyard manat pul ayırırıq. Əgər bu olmasaydı, Azərbaycan bura niyə pul ayırırdı, o 4 milyardı müəllimlərin, həkimlərin, digərlərinin əməkhaqqına əlavələr kimi ayırardı. Bu müqayisələri aparanda biz insanlara bunları da deməliyik ki, biz öz qazancımızın böyük bir hissəsini bu məsələlərə xərcləyirik.

Biz 30 ildən artıq 1 milyondan çox qaçqın saxlamışıq. Onların bütün təminatları – çörək pulu verilirdi, kommunal xərcləri – qaz, işıq, su pulları dövlət tərəfindən ödənilirdi. 1 milyon insan Avropanın bəzi ölkələrinin əhalisi deməkdir. Bir ölkənin əhalisini Azərbaycan dövləti saxlayıbdır və bu prosesləri həyata keçiribdir. O baxımdan da Azərbaycanın vəziyyətini başqası ilə eyniləşdirmək olmaz. Çünki bunlar Azərbaycanın özündən asılı olmayan

müxtəlif səbəblərlə əlaqədardır.

Bu gün ətrafımızda silah anbarları yaranır. Hər yanda müharibə təhlükəsi var. Azərbaycan məcburiyyət qarşısında qalıb müdafiə, təhlükəsizlik məsələsini daim gücləndirməlidir. Bu gün Ermənistana pulsuz silahlar verilir. Ermənistan ayrı-ayrı dövlətlər tərəfindən təmin olunur ki, Cənubi Qafqazda yenidən hər hansı bir münaqişə ocağı yaransın. Bütün bu problemlərin aradan qaldırılması üçün bu gün Azərbaycanda cənab Prezidentin rəhbərliyi ilə, doğrudan da, çox uğurlu iqtisadi siyasət həyata keçirilir və biz hər birimiz bunu dəstəkləyirik.

Bir neçə təklifim var. Siyasi partiyalara ayrılan vəsaitlə əlaqədar. 26 siyasi partiya qeydiyyatdan keçib. Keçmişdə həmin vəsait 11 siyasi partiyaya ayrılırdısa, indi 25 siyasi partiyaya ayrılır. Yəni müəyyən faizlər var, o da seçkidə iştirak edən siyasi partiyalarla bağlıdır. Ona görə də bunun bir qədər artması, hesab edirəm ki, məqsədəuyğun olardı.

İkincisi, hərbçilərin, mühəndislərin, müəllimlərin, həkimlərin, bu kateqoriyadan olan digər insanların yerlərdə işləmələri ilə bağlı kirayə haqqı ilə əlaqədar. Kirayə haqlarına bir də baxılsın, Nazirlər Kabineti bunu da artırsın.

Üçüncüsü, xüsusi bir məsələ var. Biz sənədsiz evlər məsələsini həmişə qaldırmışıq ki, bu evlər sənədləşdirilsin. Regional məsələlər komitəsi olaraq deyirik, burada həm bələdiyyələrin də rolu var, onlar bələdiyyələrə vergi verəcəkdir, həm də bir insan onu satıb onun hesabına gedib rayonda özünə ev də tikə, yaxud banka qoyub oradan kredit də götürə bilər. Bütün bunları nəzərə alaraq, hesab edirik ki, sənədsiz evlərin sənədləşdirilməsi prosesi sürətləndirilməlidir və bu məsələlər də öz həllini tapmalıdır.

Başqa bir məsələ vaxtı ilə verilən torpaqların kateqori-

yasının bu gün çox ağır şərtlərlə dəyişdirilməsidir. Bir torpağın kateqoriyasını dəyişməyə 6 nazirlikdən icazə alınmalıdır. Axırda da həmin sənədə Baş nazir qol çəkməlidir. Buna görə də insanlar öz torpaqlarından lazımi qaydada istifadə edə bilmirlər.

Naxçıvan Muxtar Respublikası ilə əlaqədar bir neçə məsələni qeyd etmək istəyirəm. İqlim şəraitinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasında qış uzun, həm də soyuq olur, 40 dərəcə şaxta olur. Ona görə də əgər qaz limiti və digər məsələlərə baxılacaqsa, Naxçıvan Muxtar Respublikasında bu limit artırılsın.

İkinci bir məsələ, Naxçıvan Muxtar Respublikasında sosial layihələrin həyata keçirilməsi üçün verilən vəsait ilə görə deyil, layihəyə görə verilsin. İlə görə ayrılan vəsaitlə çatdırmaq mümkün olmur. Ona görə layihəyə görə ayrılsa, daha məqsədəuyğun olar. Hesab edirəm ki, bu məsələnin də gələcəkdə nəzərə alınması yaxşı olar.

Ümumilikdə, bizim komitə komitələrin iclasında da yekdilliklə layihəyə səs veribdir. Bu dövlət büdcəsi dövlətimiz, ölkəmiz, xalqımız üçün xeyirli, uğurlu olsun. Hesab edirəm ki, biz hamımız yekdilliklə buna səs verəcəyik və qəbul olunmasının tərəfdarıyıq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim. Təklif var, 5 dəqiqəyə keçək. Ancaq mən düşünürəm ki, biz çıxışları ənənəvi olaraq həmişə 10 dəqiqəyə qədər edirdik. Etiraz etmirsinizsə, heç olmasa, 7 dəqiqə olsun. Amma mən səsə qoyacağam. 7 dəqiqəyə razısınız?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Səsə qoyuram. Buyurun, münasibətinizi bildirin.

**Səsvermənin nəticələri** (saat 15.13 dəq.)

| | |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Hörmətli həmkarlar, çıxışlar 7 dəqiqəyə qədər. Şərt o deyil ki, 7 dəqiqənin hamısını danışaq. 7 dəqiqəyə qədər.

Əli Hüseynli. Əli müəllim, buyurun.

**Əli Hüseynli.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli həmkarlar və hökumət üzvləri. Hörmətli məruzəçilər öz çıxışlarında 2024-cü ilin mühüm siyasi hadisələrini – növbədənkənar prezident və parlament seçkilərini vurğuladılar. Həqiqətən də, bu il Azərbaycan xalqı hər iki seçkidə yenidən Ulu Öndər Heydər Əliyev siyasətinə səs vermiş, Prezident İlham Əliyevi və onun siyasətini dəstəkləmişdir. Bu, eyni zamanda, bütövlükdə, iqtidarın, o cümlədən hökumətin də iqtisadi sahədə gördüyü işlərə də bir münasibət idi.

Məruzələrdə ölkəmizdə keçirilmiş mühüm beynəlxalq tədbirin – COP29-un da əhəmiyyəti vurğulandı. Həqiqətən də, bütün xarici təhdidlərə baxmayaraq, bu tədbir uğurla keçirildi və bu, həm də indiyə qədər görülmüş infrastruktur layihələrin də uğurlu olmasından xəbər verirdi.

Fürsətdən istifadə edib, COP29 tədbiri çərçivəsində Milli Məclisin və Parlamentlərarası İttifaqın birlikdə yüksək səviyyədə tədbirinin keçirilməsi münasibəti ilə, Sahibə xanım, Sizi və həmkarlarımı təbrik edirəm.

Əslində, cənab Prezidentin Milli Məclisdəki çıxışında

əsas prioritetlər açıq-aydın qeyd edilmişdi. İlk növbədə ölkəmizin hərbi potensialının gücləndirilməsi, təhlükəsizliyin təmin edilməsi, dövlət sərhədlərinin qorunması, hərbi sənaye kompleksinin inkişafı, təhsil xərcləri, Qarabağın və Şərqi Zəngəzurun bərpası və digər layihələr prioritetdir. Sosial yönümlü layihələrin, həm də sosial infrastrukturla bağlı layihələrin gələcəkdə də prioritet olacağı vurğulanmışdır.

Həmkarım Siyavuş müəllim də qeyd etdi, Azərbaycanda hökm sürən sabitlik və proqnozlaşdırılan vəziyyətin özü də Azərbaycan dövlətinin güclənməsi, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa edilməsi, eyni zamanda, xarici investorların da bizə olan münasibətini təbii olaraq dəyişdirmişdir. Sözsüz ki, növbəti illərdə biz onun bəhrəsini görəcəyik.

Xüsusi əhəmiyyət daşıyan məqam ondan ibarətdir ki, qeyri-neft sektorumuz 7 faizə yaxın artmışdır. Bu da onun göstəricisidir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində vaxtı ilə atılmış addımlar tamamilə düzgün olmuşdur.

Hörmətli həmkarlar, 2025-ci ilin büdcəsində müdafiə, milli təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq mühafizə orqanlarının və prokurorluğun saxlanılması xərcləri üçün vəsait 2024-cü ilin proqnozu ilə müqayisədə 13 faiz çoxdur.

İşğaldan azad olunmuş ərazilərdə hüquq mühafizə orqanlarının müvafiq xidmətlərinin təşkili ilə bağlı tələb olunan vəsait də dövlət büdcəsində nəzərə alınmışdır ki, bu da təqdir olunur.

Amma eyni zamanda, komitə iclaslarında işçi qaydada hörmətli Samir müəllimin diqqətinə çatdırdığım bir

məsələni burada da səsləndirmək istəyirəm. Qanun layihəsinin təqdimatında da dedim, 3.2.7-ci maddədə məhkəmə hakimiyyətini, düşünürəm ki, ayırmaq lazımdır. Hesab edirəm ki, ədalət mühakiməsinin tərəflərini – prokurorluğu, vəkilliyi, mediasiyanı bura daxil etmək olar. Beləliklə, müdafiə xərclərini, hərbi xərcləri də ayrı bənddə vermək daha məqsədəmüvafiq olardı.

Hörmətli həmkarlar, fürsətdən istifadə edib, Qarabağda aparılan quruculuq işləri fonunda regionda görülən işlərlə bağlı da fikrimi bölüşmək istərdim. Bu fikirlərimi ilk növbədə təmsil etdiyim Yevlax–Mingəçevir seçki dairəsi fonunda etmək istərdim.

Baxmayaraq ki, hətta Vətən müharibəsi dövründə, Vətən müharibəsindən sonra da Qarabağda çox böyük quruculuq işləri gedir, Azərbaycanın digər regionlarının da inkişafı davam etməkdədir. Hesab edirəm ki, İqtisadi İnkişaf Nazirliyinin də vaxtı ilə dəstək verdiyi vacib bir layihə Mingəçevir Dövlət Universiteti üçün yeni kampusun tikilməsi idi. Bu proses uğurla davam edir. Hazırkı dövrdə layihə-smeta sənədləri üçün 5 milyona qədər vəsait ayrılmışdır. Amma düşünürəm ki, bu işləri sürətləndirməyə ehtiyac var. Çünki faktiki olaraq belə bir kampusun tikilməsi təkcə təhsil məsələsi deyil, əgər nəzərə alsaq ki, orada peşə məktəbi, otel və böyük bir kompleks də tikiləcəkdir, həm də bütövlükdə, Mingəçevirin regionda yenidən çiçəklənməsi, inkişafı üçün mühüm bir addımdır.

İkinci vacib bir məsələ vaxtı ilə Yevlax ictimaiyyətinin möhtərəm cənab Prezidentə etdiyi müraciətin icra olunmasıdır. Bu, Yevlax Olimpiya Kompleksinin tikintisinin başlanmasıdır ki, bununla bağlı ictimaiyyətimizin təşəkkürünü cənab Prezidentin diqqətinə çatdırmaq istərdim.

Eyni zamanda, vurğulamaq istəyirəm ki, hazırda Aran Regional Təhsil İdarəsi tərəfindən də çox vacib işlər görülür. Mən hesab edirəm ki, son dövrlər təhsil sahəsində optimallaşdırma çox mühüm bir göstəricidir. Vaxtı ilə 1970–1980-ci illərdə Azərbaycanın bir çox bölgələrində, o cümlədən Yevlaxda da çox effektiv layihələr həyata keçirilmiş və məktəblər tikilmişdir. Təəssüf ki, müəyyən bir dövrdə cari təmir adı altında faktiki olaraq heç bir iş görülməmişdir. Amma indi biz onun tamamilə əksini görürük. Faktiki olaraq məktəblərdə cari təmir realdır. Onların dam örtüyünün, xüsusən də istilik sisteminin dəyişdirilməsi nəticəsində vaxtı ilə Ulu Öndərin tikdiyi məktəblər yeni bir görkəm alır və demək olar ki, tamamilə yeni məktəblərə bənzəyir.

Eyni zamanda, fürsətdən istifadə edib, qazi, şəhid ailələri ilə bağlı etdiyimiz müraciətlərə hörmətli səhiyyə nazirinin, TƏBİB rəhbərliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin verdiyi diqqətə görə də ictimaiyyətin və seçicilərimizin təşəkkürünü çatdırmaq istəyirəm.

Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir. Büdcə layihəsinin həm komitələrdə, həm də plenar iclasda belə geniş şəkildə müzakirə olunması, eyni zamanda, hökumətlə parlament arasında səmərəli əməkdaşlığın da yaxşı bir nümunəsidir. Büdcə layihəsi qanunvericiliyə tam uyğun şəkildə hazırlanmışdır. Bu barədə biz komitələrin iclasında da vurğulamışıq. Büdcəyə səs verəcəyəm və əminəm ki, 2025-ci ilin büdcəsi ölkəmizin bundan sonra da dayanıqlı iqtisadi inkişafını təmin edəcəkdir. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Əhliman Əmiraslanov. Əhliman müəllim, buyurun.

**Əhliman Əmiraslanov.** Hörmətli Sahibə xanım, hör-

mətli Əli müəllim, nazirlər, hökumət nümayəndələri, həmkarlar. Milli Məclisə təqdim olunan 2025-ci ilin büdcə zərfi ilə tanış olduqda görürük ki, ötən illərdə olduğu kimi, növbəti ilin büdcəsi də sosial yönümlüdür.

Növbəti ilin büdcəsində sosial xərclər cari illə müqayisədə 8,8 faiz artaraq bu xərclərin xüsusi çəkisi büdcəmizdə 41 faizə çatdırılmışdır. Bu, bir daha göstərir ki, sosial sahə ölkə Prezidenti cənab İlham Əliyevin siyasətinin prioritet istiqamətlərindən biridir.

Növbəti ilin büdcəsində ilk dəfə olaraq səhiyyə xərcləri 2 milyard manata çatdırılmaqla səhiyyə xərclərinin xüsusi çəkisi büdcədə 7,1 faiz təşkil edəcəkdir. Növbəti ildə səhiyyə xərclərinin 70,6 faizi icbari tibbi sığortaya yönəldiləcəkdir. Bununla da İcbari tibbi sığorta fondunun maliyyə vəsaiti 3 milyard manata çatdırılacaqdır. Sevindirici haldır ki, bütövlükdə, səhiyyə xidmətləri üçün nəzərdə tutulan məbləğ 3,6 milyard manat təşkil edəcəkdir.

İcbari tibbi sığorta fondunda vəsait artımı əhaliyə göstərilən tibbi xidmətlərin kəmiyyətinə və keyfiyyətinə müsbət təsir edəcəkdir. Bu gün əhalinin ən mürəkkəb müalicə və müayinələri icbari tibbi sığorta tərəfindən qarşılanır. Növbəti ildən ambulator müalicə alan xəstələrin dərman vasitələri ilə təminatını da icbari tibbi sığorta qarşılayacaq ki, bu da son dərəcədə təqdirəlayiq bir haldır.

Digər bir məsələ səhiyyə üzrə dövlət proqramları çərçivəsində müalicə alan xəstələrin də icbari tibbi sığorta ilə əhatə olunmasına başlanmasıdır. Bu keçidi daha da sürətləndirmək lazımdır. Prosesin başa çatması ilə bu qəbildən olan xəstələrin adekvat müalicəsi reallaşacaqdır. Bütövlükdə, ölkəmizdə icbari tibbi sığorta uğurla həyata keçirilir. İnsanların icbari tibbi sığortadan məmnunluğu

get-gedə artır.

Hörmətli həmkarlar, əhaliyə göstərilən tibbi xidmətlə bağlı problemlər də mövcuddur. Onlardan biri əhaliyə göstərilən ilkin tibbi xidmətlə bağlıdır. İlkin tibbi xidmət, xüsusən bölgələrdə həm tibb məntəqələrinin maddi-texniki bazası, həm də tibbi kadr təminatı ilə bağlı problemlər var. Seçicilər bu problemləri daim qaldırırlar. Milli Məclisin Səhiyyə komitəsi yaxın vaxtlarda müvafiq orqanlarla birgə ilkin tibbi xidmətə həsr olunmuş dinləmə keçirməyi planlaşdırır.

Digər bir problem PET/CT deyilən son dərəcədə vacib və böyük maliyyə tutumlu tibbi müayinənin icbari tibbi sığorta ilə qarşılanmasına böyük ehtiyacın olmasıdır. Onu da qeyd edim ki, PET/CT avadanlığının ölkədə sayının artırılmasına da böyük ehtiyac duyulur. Bu gün ölkədə cəmi 1 PET/CT avadanlığı fəaliyyət göstərir.

Hörmətli həmkarlar, icbari tibbi sığortanın ölkəmizdə geniş tətbiq olunduğu və maliyyə imkanlarının genişləndiyi bir vaxtda əhali arasında ən çox tələfat verən iki patologiyadan biri olan onkoloji xəstəliklərin hələ də icbari tibbi sığorta ilə əhatə olunmaması qəbuledilməzdir. 4-5 il öncə büdcəmizdə səhiyyə xərclərinin 800 milyon manat təşkil etdiyi zaman olduğu kimi, bu gün bu vəsaitin 3,6 milyard manata yüksəldiyi vaxtda onkoloji xidmət xərclərinin yenə də 50–60 milyon manat civarında qalması anlaşılan deyil. İlk mərhələ olaraq onkoloji xəstələrin müalicəsi üçün vacib olan dərman preparatlarının, xüsusi ilə target və immunoterapiya preparatlarının icbari tibbi sığorta ilə qarşılanması son dərəcədə vacibdir.

Hörmətli hökumət üzvlərinin burada olmağından istifadə edərək qeyd etmək istərdim ki, seçildiyim 67 saylı

Sabirabad seçki dairəsi üzrə rayonun 28 min nəfər əhalisi olan, 18 yaşayış məntəqəsini əhatə edən Kür kəndi – Qaratuğay avtomobil yolu istismara yararsız vəziyyətdədir. Bu da əhalinin ciddi narazılığına səbəb olur. Xahiş edirəm, bu problemi nəzərə alasınız.

Hörmətli həmkarlar, beləliklə, mən də hesab edirəm ki, 2025-ci ilin büdcə zərfi mükəmməl və böyük peşəkarlıqla hazırlanmışdır. Büdcə layihəsinin hazırlanmasında əməyi keçən hər kəsə təşəkkürümü bildirirəm. Mən də 2025-ci ilin büdcə layihəsinin lehinə səs verəcəyəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim. Əhliman müəllim, Sizin qeyd etdiyiniz dinləməni, ümumiyyətcə, biz Sizinlə danışmışdıq, ancaq yenə də mən düşünürəm ki, hörmətli nazir Teymur müəllim Musayevlə ayrılıqda danışmaq lazım olacaq.

Fazil Mustafa. Fazil müəllim, buyurun.

**Fazil Mustafa**. Hörmətli xanım, hörmətli cənab Baş nazir, hörmətli millət vəkilləri, hökumət üzvləri və qonaqlar. Hesab edirəm ki, builki büdcə Milli Məclisin komitələrində birinci oxunuşda çox ciddi şəkildə müzakirə olundu. Hörmətli xanım sədr, Sizə də təşəkkür edirəm ki, siyasi partiyaların öz mövqelərini ayrı-ayrı komitələrdə açıq və şəffaf şəkildə bildirmələri üçün ciddi bir şərait yaratdınız. Bu, parlament demokratiyası üçün olduqca vacib addımlardan biridir. Mən hesab edirəm ki, bu büdcədə əsas ağırlıqlı olaraq müdafiə xərclərimizin 20,3 faiz olması, bu xərclərə 8 milyarddan artıq vəsaitin ayrılması və eyni zamanda, müdafiə və təhlükəsizliklə yanaşı, həm də əhalinin sosial yönümlü xərclərinin azaldılmaması bu büdcə layihəsinin əsas göstəricilərindən biridir. Bu,

həm də onu göstərir ki, həm təhlükəsizlik, həm də vətəndaşlarımızın rifahı üçün bütün proseslər hökumət tərəfindən ciddi nəzarətdə saxlanılır.

Digər tərəfdən, bu büdcə layihəsində bizim komitəyə aid olan sahələrə vəsaitlərin ayrılması da artan istiqamətdə getdiyinə görə, bunu da təqdirlə qarşılayırıq. Burada mən daha çox nəyə diqqət etmək istəyirəm?

Bizim 2007-ci ildə qəbul olunmuş Milli Təhlükəsizlik Konsepsiyamız var. Həmin konsepsiyada ölkənin təhlükəsizliyi üçün ən vacib məsələlərdən biri təhsilin keyfiyyəti ilə bağlı məsələdir. Yəni keyfiyyətsiz təhsil milli təhlükəsizliyimiz üçün böyük təhdid sayılır. Belə bir halda, məncə, biz dini təhsilə daha çox vəsait ayrılmasını təmin etməliyik. Çünki dini təhlükəsizliyimizlə bağlı çox ciddi narahatçılıqlar var. Azərbaycan yeganə ölkələrdən biridir ki, dini arenada kənar təsirlərin mənfi istiqamətləri özünü daha çox qabarıq göstərməkdədir.

Digər tərəfdən, burada 3 milyard manat büdcə kəsiri nəzərdə tutulur. Kəsirin qapadılması üçün nəzərdə tutulan mənbələr arasında özəlləşmə də qeyd olunur. Təklif edirəm ki, biz iqtisadi həyatı canlandırmaq üçün 5 ildən artıq dövlət və bələdiyyə mülkiyyətinə aid icarədə olan qeyri-yaşayış təyinatlı əmlakın və torpağın güzəştli şərtlərlə təcili özəlləşməsini həyata keçirməliyik. Çünki mülkiyyət sahibi olmayanlar investisiya yatırmırlar və bu torpaq sahələri boşuna, bu əmlaklar istifadəsiz qalır. Dövlət mənfəət əldə etmək üçün bunu mütləq etməlidir.

Digər tərəfdən, 30–35 ildir ki, bir sıra özəl mülkiyyətdə və hansı isə icarəyə götürülmüş yerlərdə məcburi köçkünlər məskunlaşmışdılar. Bu gün onların qayıdış prosesi həyata keçirilir və belə bir halda həmin fiziki və hüquqi

şəxslərin malik olduqları əmlakın və torpaq sahələrinin əhəmiyyətli güzəştlərlə özəlləşməsinə dövlət mütləq imkan yaratmalıdır. Bir də kommunikasiya xətlərinin üzərində yerləşməyən bütün yaşayış və qeyri-yaşayış sahələrinin ümumi qaydalarla özəlləşdirilməsi də təmin olunmalıdır ki, buradan da dövlət büdcəsinə əhəmiyyətli vəsait daxil olsun, bu kəsirlər ortadan qaldırılsın.

Mən də razıyam ki, biz Azərbaycanı qonşu Qafqaz ölkələri ilə müqayisə etməməliyik. İqtisadi cəhətdən onlardan qat-qat irəlidəyik. Amma bizim müqayisə edəcəyimiz bir məkan var. Ölkə Prezidentinin də dediyi kimi, bizim bir ailəmiz var – Türk ailəsi. Türk cümhuriyyətlərində olan proseslərlə Azərbaycandakıları müqayisə etməliyik ki, həm qardaş ölkələrin təcrübəsini öyrənə, həm də onlarla birlikdə bu prosesləri uyğun şəkildə apara bilək.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin çox gözəl bir deyimi var. Deyir, müxtəlif ölkələrin tarixinə, keçmişinə, təcrübəsinə nəzər salaraq görürük ki, nə təbii ehtiyatlar, nə də coğrafi vəziyyət deyil, məhz intellektual potensial, məhz elmin səviyyəsi ölkələrin tərəqqisini müəyyən edir və ölkəni inkişaf etmiş ölkəyə çevirir. Mən bir daha demək istəyirəm, bu, qəti fikrimdir ki, hər bir ölkənin normal inkişafı üçün ilk növbədə bilik, savad, elmin inkişafı lazımdır. Elm müstəqil Azərbaycanın dövlət siyasətinin prioritet məsələlərindən birincisidir. Biz diqqət edəndə müvafiq rəsmilərin elmin idarə olunmasına aid münasibəti təqribən belə anlaşılır. Əsas prioritet bu sahəyə ayrılan maliyyə axınını idarə etməkdir. Bu büdcədə isə belə bir axının yeri görünmür. Xüsusi ilə də universitetlər publik hüquqi şəxsə çevriləndən sonra belə bir perspektiv yoxdur. Universitetlərə diqqətəlayiq qrantların gəlməsi də

müşahidə olunmur. Universitetlərə inkişaf üçün investisiya, maliyyə dəstəyi lazımdır. Bu 30 ildə universitetlərin tədqiqat fəaliyyətinə təsirli investisiya olmayıb. Müstəqillik dövründə təhsilin inkişafına faydası olmayan layihələrə yetirilən diqqəti və ayrılan maliyyəni universitetlərə yönəltsəydik, bəlkə də reytinqlərdə daha irəlidə ola bilərdik. Ona görə də bu məsələyə xüsusi diqqət yetirmək lazımdır. Müqayisə üçün deyim ki, Qazaxıstanda orta səviyyəli bir Nazarbayev Universitetinin büdcəsi 120 milyon dolları keçibdir. Amma bizim 10 minlik, 20 minlik, ya 100 minlik büdcə ilə Avropa, dünya universitetləri ilə hansı isə şəkildə rəqabət aparmaq imkanımız olmayacaqdır. Ona görə də bu sahəyə xüsusi diqqət yetirilməlidir və burada da əsas məsələ distant təhsilin inkişafıdır. Bütün türk dövlətlərində bu təhsil tətbiq olundu, bizdə isə ancaq özəl sektor vasitəsi ilə bu təhsilin tətbiq olunması nəzərdə tutulur.

Digər tərəfdən, burada qeyd olunur ki, bizdə 4400-ə yaxın məktəb var və bunun 1500-də 100-dən artıq şagird təhsil alır. Bunu hörmətli təhsil nazirimiz də vurğulamışdı və kəndlərdə onların hansı isə bir şəkildə ləğv olunması məsələsi nəzərdə tutulur. Amma buna qətiyyən yol vermək olmaz. Biz necə milli-mənəvi, maddi dəyər deyərək qəbul ediriksə, hər bir kənddə istər kitabxana, istər məktəb, istərsə də kitab mağazası qorunmalıdır. Necə məscidi, tarixi abidəni qoruyuruqsa, onları da mütləq qorumalıyıq. Bunlarda da mütləq distant təhsilə keçilməlidir. 30 müəllimin əvəzinə 10 müəllim belə bir kənd məktəbinin 3 uşağını idarə edə bilər, amma o uşağın qonşu kəndə, uzaq məsafəyə getməsi heç bir məntiqə sığmır. O baxımdan da biz bu məsələləri ciddi müzakirə etməliyik.

Bu sahədə xeyli geriyə düşməkdəyik və bunun qarşısını almalıyıq.

Bütövlükdə, mən büdcə layihəsini dəstəkləyirəm və bunun istiqamət olaraq Azərbaycanın inkişafına fayda verəcəyini düşünürəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Zahid Oruc**. Hörmətli sədr, hörmətli Baş nazir, dəyərli hökumət və Məclis üzvləri. 2025-ci ilin dövlət büdcəsi layihəsi Prezident İlham Əliyevin iki strateji hədəfini dünyaya nümayiş etdirir. Ölkə rəhbəri qələbədən sonra Azərbaycanın artan beynəlxalq nüfuzunu tariximizdə ilk dəfə dünyanın bölüşdürülməsində obyekt kimi deyil, subyekt kimi iştiraka yönəldir.

İkincisi, müstəqillik dövründə hərbi büdcəni ən yüksək həddə – 8,3 milyard manata çatdırmaqla Ermənistandan çox, daha böyük təhlükələrin qarşısını alır.

Qürurla qeyd edək ki, qlobal iqlim zirvəsi planetar miqyasda qələbəmizin davamı, növbəti diplomatik-siyasi uğur, "yaşıl Azərbaycan" quruculuğuna əvəzsiz töhfə oldu.

Bəllidir ki, büdcə layihəsi aylarla hazırlanır, lakin indi beynəlxalq təhlükəsizlik şəraiti hər gün dəyişir. Geosiyasətin əlifbasına görə, sərhədinə 500 kilometrlik yaxınlıqda müharibə gedirsə, tarazlı büdcə siyasəti üçün bütün riskləri hesablamalısan. Layihədə yalnız neftin qiymət konyunkturasına uyğun 3 ssenariyə baxılıb. Lakin ən azı iki regional savaşın radiusu böyüyür və dövriyyəyə kütləvi qırğın silahları daxil olur. Münaqişələrin coğrafiyasının genişlənməsi ölkəmizin büdcə planlaşdırılmasında yeni rejimə – dövlətin xalq qarşısında birinci dərəcəli öhdəliklərinin yerinə yetirilməsi siyasətinə keçməsini zəruri edir. Sosial xərclər, enerji gücünün fasiləsiz çalışması, ordunun

təminatının artırılması, Böyük Qayıdış kursunu saxlamaq şərti ilə bir çox ikinci dərəcəli xərcləri, bəzi investisiya layihələrini təxirə salmaq olar.

Növbəti ildə neft hasilatının azalmasının, 29,2 milyon tondan 2028-ci ildə 26,4 milyon tona düşməsinin qarşısını alan tədbirləri gücləndirməliyik.

Qlobal təhlükələrin artdığı dövrdə ərzaq təminatı birinci yerdə dayanır. Layihədə göstərilir ki, idxal olunan malların həcmi cari ilin birinci yarısında 13 milyard manat təşkil edib ki, onun da 40 faizi, yəni 5 milyard manatdan çoxu istehlak mallarıdır. Göründüyü kimi, idxaldan asılılıq artıb. 2025-ci ilin dövlət büdcəsində kənd təsərrüfatına 1,1 milyard manatdan çox vəsait ayrılıb. Lakin Hesablama Palatasının rəyində vurğulanır ki, aqrar sahəyə son 7 ildə 3 milyard manatdan çox subsidiya verildiyi halda, kənd təsərrüfatı üzrə əlavə dəyərin ÜDM-də payında müsbət dinamika müşahidə olunmur. 2017-ci illə müqayisədə 2023-cü ildə bitkiçilik sahəsinə verilmiş subsidiyalar 2,2 dəfə, 1 hektara düşən subsidiya 2,4 dəfə artıb, lakin subsidiya vahidinə düşən bitkiçilik məhsulunun dəyəri 12 faiz azalıb. Əhalinin tələbatının 80 faizi qədər kartof, 35 faizi qədər ət, 50 faizi miqdarında süd istehsal olunur.

Bu yerdə Ulu Öndərin 1994-cü il martın 4-də ölkədə müharibə getdiyi bir vaxtda keçirdiyi 4 saatlıq kənd təsərrüfatı müşavirəsini xatırlatmaq istərdik. Heydər Əliyev auditoriyaya üzünü tutaraq soruşur: “Deyin görək, Azərbaycanda nə vaxt 280 min ton pambıq yığılıb?! Yadınızdadırsa, bu, 1960-cı illərdə olub. Sonra pambıqçılığın inkişafı üçün səmərəli tədbirlər görüldü, yeni sahələr təmizlənib əkin üçün yararlı hala salındı, su qurğuları yaradıldı, təcrübə artırıldı və nəticədə istehsal sabit olaraq 800 min

tona çatdı. Üzüm istehsalı 1,8 milyon ton, taxıl istehsalı 1,6 milyon ton oldu”.

Bəli, Azərbaycana paxıllıq, düşmənçilik edən adamların, xüsusən qonşu ermənilərin Azərbaycanda üzüm istehsalının görünməmiş miqdarda artmasına görə ürəkləri partlayırdı. Çünki Ermənistan üzümçülük, şərabçılıq ölkəsi olduğu halda, ildə vur-tut 240-250 min ton üzüm istehsal edirdi, Azərbaycanda isə bir neçə ilin ərzində üzüm istehsalı bir milyon tonu ötüb keçmişdi.

Ulu Öndərin çıxışı 2025-ci ilin yol xəritəsidir. Söhbət planlı təsərrüfat sisteminə qayıtmaqdan getmir. Müqayisə üçün, əhali sayı bizimlə eyni olan Belarus ildə 8,5 milyard dollarlıq kənd təsərrüfatı məhsulu ixrac edir. Ölkəmizin müvafiq göstəricisi 1 milyard dollardır. Beləliklə, əhalinin sağlamlığı və iqtisadi müstəqilliyimiz həm də kənd təsərrüfatından asılıdır. Heydər Əliyevin yaratdığı zəngin təsərrüfat ənənələrini, bitkiçilik, üzümçülük, heyvandarlıq sahəsindəki sortları, növləri necə qoruyub saxlayaq? Yüksək məhsuldarlıq naminə Fransadan alma, İspaniyadan armud, xurma, Türkiyədən pomidor toxumları gətirib ərzaq səbətimizi dadsız, keyfiyyətsiz məhsullarla, onkoloji statistika ilə doldururuq. Sonra xəstəliklərə qarşı büdcədən vəsait tələb edirik. Bəlkə səbəbi müalicə edək? İnsanlar məşhur Quba almasını, Göyçayın “Mələs” narını, “Seylon”dan geri qalmayan Lənkəran çayını, Gədəbəyin “Ağçiçək” kartofunu, Mil–Muğanın ətirli çörəyini tapa bilmir. Yaşlı nəsil həyatdan gedir, o əmək ənənələri və təcrübələri itir, nəticədə geni modifikasiya olunmuş cəmiyyət qazanırıq.

XX əsrin əvvəllərində Göyçaydan aparılan tinglərlə Kaliforniyada böyük nar plantasiyaları salınırdı. İndi

əksinə olub. Qərbdən texnologiya gətirək, lakin hibrid məhsullar menyumuzu işğal etməsin. Bəlkə, azad torpaqlara traktor parkı bağışlayan Belarus kənd təsərrüfatı mütəxəssislərindən xahiş edək, nümunəvi kolxoz və sovxozların bir neçəsini Zəngilanda, Qubadlıda, Laçında yaratsınlar. İnanın, azad olunan münbit torpaqlar, zəngin otlaq sahələri, əlverişli iqlim və düzgün investisiya siyasəti daxili tələbatı 100 faiz ödəyə bilər. Sağlam ərzaq təminatı hərbi təhlükəsizliyimizdən ayrılmazdır.

İstər dinc, istərsə də müharibə dövründə millət mədəniyyəti qoruyur. Bu sahəyə 234 milyon manat vəsait ayrılıb. Əlbəttə, Ulu Öndərin adını daşıyan Fond və Mədəniyyət Nazirliyi yüzlərcə layihəyə rəhbərlik edir, yumşaq güc savaşında Zəfərimizə misilsiz töhfələr verirlər. İndi əsas vəzifə qələbəmizi millətimizin "hard disk"inə köçürüb, onu xarici hücumlardan qorumaqdır.

Deyirik ki, Rusiya 80 ildir İkinci Dünya müharibəsinin nəticələrini geosiyasi maraqları üçün istismar edir, "День победы"nı milyonlar dinləyir, Frenkelin "Журавли"si unudulmur. Bizim də dillər əzbəri olan zəfər marşlarımız yaranmalıdır. Əsgər qəhrəmanlığını edib, onu salnaməyə çevirmək hərbçilərin işi deyil.

"Salam Fərmandeh"i dünya şiələrinin çoxu öz dini-milli himninə çevirib. Bizim öz fərmandehimiz var axı, biz niyə etmirik? Əlbəttə, son "Qarabağnamə" əsəri alqışa layiqdir. Lakin gənclərimizi həvəskar zəfər mahnılarının ümidinə qoymalı deyilik.

Qardaş Türkiyə haqlı olaraq "Diriliş Ərtoğrul"u, "Möhtəşəm Yüz il"i, "Paytaxt Əbdülhəmid"i, "Fateh–1453"-ü çəkir. Bizim də dirilişimiz, möhtəşəmliyimiz, Şuşa qələbə paytaxtımız, fatehimiz əbədiləşməlidir.

Yekunda büdcə üzərində yüksək işləri alqışlayır, – çünki ötən dəfə hörmətli sədr bunu məndən soruşmuşdu, – hökumətimizə növbəti 2025-ci ildə uğurlar arzulayır, təkliflərimizə diqqətlə yanaşılacağına inanır, layihəyə müsbət səs verəcəyimizi bildiririk. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Yaxşı ki, özünüz dediniz, yoxsa, əlbəttə, yenə də soruşacaqdım. Heydər Əsədov. Heydər müəllim, buyurun.

**Heydər Əsədov**. Hörmətli xanım sədr, hörmətli Baş nazir, hörmətli hökumət üzvləri, hörmətli media təmsilçiləri. Burada bizə təqdim olunan məruzələrdə və eləcə də rəylərdə büdcənin makroiqtisadi parametrləri, onun funksional iqtisadi təsnifatı haqqında çox geniş məlumatlar verildi. Ona görə də mən bu təfərrüatlara varmadan, birbaşa büdcənin əsas fəlsəfəsi, əsas məqamları haqqında öz münasibətimi bildirmək istərdim.

Birinci, hər şeydən əvvəl onu qeyd etmək istəyirəm ki, büdcədən də göründüyü kimi, büdcə gəlirlərinin artım sürətinin xərclərin artım sürətindən üstün olması və eləcə də büdcə kəsirinin əhəmiyyətli dərəcədə azaldılması növbəti ildə də dövlətin sərt fiskal siyasət yeridəcəyindən xəbər verir. Eyni zamanda, büdcənin gəlirlərinə gəldikdə, bir məqamı da qeyd etmək lazımdır ki, burada heç bir tədiyyə növündə növbəti ildə vergilərin artım dərəcəsi nəzərdə tutulmur və bütün büdcə gəlirlərinin artırılmasının iqtisadi inkişafın və bu sahədə görüləcək inzibati tədbirlərin hesabına həyata keçirilməsi nəzərdə tutulur. Bütün bunlar isə onu deməyə əsas verir ki, bu büdcə tam dayanıqlıdır, realdır və nəzərdə tutulan xərclərin maliyyələşməsini təmin etmək üçün bütün imkanlar mövcud olacaqdır. Hətta subyektiv fikrimi də bildirərdim

ki, əgər dünya səviyyəsində, beynəlxalq aləmdə ciddi maliyyə riskləri, maliyyə hadisələri baş verməsə, mən çox inanıram, biz gələn ilin ikinci yarısında bu büdcənin artırılması istiqamətində də toplana bilərik.

Xərclərə gəldikdə, sadəcə, xərclərin strukturu ilə tanış olduqda görünür ki, dövlət büdcəsinin xərcləri, həqiqətən də, dövlətin əsas prioritetlərinə, strateji inkişaf sənədlərinə uyğundur və onun maliyyələşməsini təmin etmək üçün kifayət qədər maliyyə ehtiyatları mövcud olacaqdır. Ümumiyyətlə, büdcə zərfi, belə deyək ki, ictimai gözləntilər, ictimai arzu yaradan bir sənəddir. Təbii ki, cəmiyyət bu büdcədən çox şey gözləyir və mən xatırladığım bütün dövrlərdə dövlət daim bu ictimai gözləntilərə çox həssas yanaşmış və cəmiyyəti maraqlandıran ən ümdə məsələlərin həllinə nail olmuşdur. Bunlar bəzən yaddan çıxır.

Bir neçə misal göstərmək istərdim. Vaxt var idi, bu zalda cəmiyyətin ən böyük gözləntisi batmış əmanətlərin bərpası, ödənilməsi idi, dövlət bankların, banklar dövlətin öhdəliyi üçün heç bir məsuliyyət daşımırdı. Dövlət bu öhdəliyi öz üzərinə götürərək, yüz milyonlarca vəsait ayıraraq cəmiyyətin bu gözləntisini həyata keçirdi. Uzun keçmiş deyil, bu zalda biz sahibkarlara 10–15 milyon da olsun vəsait ayırıb, heç olmasa, iqtisadi aktivliyə müsbət təsiri təmin etmək, ən azı iqtisadi fəallığı bir az artırmaq və sair bu kimi hədəflər düşünürdük. Amma bu gün Sahibkarlığın İnkişafı Fondunun vəsaiti 3 milyard yarımdan artıqdır və məsuliyyətlə deyə bilərəm ki, bu fondun vəsaiti nəinki iqtisadi aktivliyə təsir göstərib, həm də iqtisadi aktivliyin, iş yerlərinin açılmasının, əmək bazarının işlə təmin olunmasının ən vacib maliyyə alətinə çevrilmişdir. Vaxt var idi, burada ipoteka fondunun yaradılma-

sına, mənzil şəraitinin yaxşılaşmasına az da olsa vəsaitin ayrılması nəzərdə tutulurdu. İndi həmin fondun vəsaiti 3 milyard 900 milyon manatdır və dövlət növbəti ildə də fondun nizamnamə kapitalına 100 milyon vəsait nəzərdə tutaraq bu vəsaitin də həcmini artırmaq niyyətindədir. Bu vəsait hesabına 60 mindən artıq adam özünün mənzil şəraitini yaxşılaşdıracaq. Eləcə də bu fikirləri tələbə kreditləri fondu və sair və ilaxır barədə söyləmək olar.

Beləliklə, demək olar ki, gözləntilər sonsuzdur, amma imkanlar isə məhduddur. Cəmiyyətin bütün üzvləri, bilməliyik ki, büdcə gəlirlərinin, vergi dərəcələrinin əsassız artırılması və yaxud belə deyək, iqtisadiyyatın vergi yükünün artırılması özü ilə bərabər növbəti illərdə iqtisadiyyatın daralmasına və nəticədə iqtisadi aktivliyin sönməsinə, iş yerlərinin ixtisarına və sair arzuolunmaz hallara gətirə bilər. Eləcə də əsassız xərclərin artırılması kapital bazarına, geniş pul kütləsinə, pul dövriyyəsinə çox ciddi təsir göstərməklə əsassız inflyasiya təzyiqi yarada və beləliklə, dövlətin vəsaitinin bir növ çöpə atılması kimi qiymətləndirilə bilər. Ona görə də bu sahədə belə dəqiq kompromis tapıldığı üçün və büdcəni tam real, müasir dövrün çağırışlarının tələblərinə uyğun hazırladıqları üçün mən aidiyyəti orqanlara təşəkkürümü bildirirəm.

Bir neçə kəlmə təkliflərim haqqında. Məlum olduğu kimi, bu dəqiqə qlobal dünyada ümumdaxili məhsulun həcmi artıq 100 trilyon dolları keçməkdədir və qlobal borclar bu ümumdaxili məhsulun 93 faizi həcmindədir. Növbəti illərdə, yəqin ki, 94 faizi keçəcəyi gözlənilir. Azərbaycanda isə, bildiyiniz kimi, bu göstərici 7,5 faizdir və gələcəkdə də azaldılması nəzərdə tutulur. Belə götürəndə, borcların strukturunda Amerikanın özünün payı

üçdə bir hissədir. Yəni belə bir şəraitdə, mən hesab edirəm ki, yaxın və orta gələcək müddətdə dolların alıcılıq qabiliyyətinin düşəcəyi gözlənildiyindən, prioritet, gəlir gətirən layihələrin maliyyələşdirilməsi üçün dövlət borcunun həcminin artırılmasına ehtiyac var. Həm də dövlətin iqtisadi strategiya sənədlərində bu borcun 10 milyarda qədər artırılması nəzərdə tutulur. Bizdə bu gün 5 milyard 300 min dollar təşkil edir.

İkinci təklifim qiymətli kağızlar bazarı ilə əlaqədardır. Buna vaxtımız çatmayacaq, mən bu təklifləri təqdim edəcəyəm. Mən çox xahiş edərdim, xəzinə istiqrazlarının alışı ilə bağlı bazara fiziki şəxslərin buraxılması təmin edilsin, çünki istiqrazlar bazarında onun faizi çox yüksəkdir və belə deyək, dövlət xərclərinə gətirib çıxarır. Qalan təkliflərimi mən yazılı təqdim edəcəyəm. Hər birinizə təşəkkür edirəm, büdcəni dəstəkləyirəm, real hesab edirəm və ona səs verəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Heydər müəllim. Tahir Mirkişili. Buyurun, Tahir müəllim.

**Tahir Mirkişili**. Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hökumət üzvləri və hörmətli həmkarlar. Mən fürsətdən istifadə edib ilk öncə COP29 kimi böyük və tarixi tədbirin uğurlu keçməsi münasibəti ilə möhtərəm cənab Prezidentimizi, dövlət və hökumət nümayəndələrini və hər kəsi təbrik edirəm. Əminəm ki, gələcəkdə dünyanın gələcəyi ilə bağlı qərarların verilməsində Azərbaycan Prezidentinin və ölkəmizin rolu daha da artacaqdır. Mən, eyni zamanda, bugünkü ətraflı təqdimata görə hökumət üzvlərinə, Mərkəzi Banka və Hesablama Palatasına öz minnətdarlığımı bildirmək istəyərdim.

Təqdim olunmuş dövlət büdcəsi həcm etibarı ilə son

illərin ən böyük büdcəsidir. ÜDM-in 29,7 faizini təşkil edən 38,3 milyard manatlıq gəlir və ÜDM-in 32 faizini təşkil edən 41,3 milyard manatlıq xərc ilə 2025-ci ilin dövlət büdcəsi layihəsi hazırda kifayət qədər mühüm bir sənəddir. Fikrimcə, təqdim olunmuş layihəyə konseptual münasibət bildirmək üçün həmin layihəni, əsasən, 5 aspektdən qiymətləndirmək lazımdır. Bunlar növbəti il və sonrakı 3 il üçün proqnozlaşdırılan makroçərçivə, gəlirlərin bu çərçivəyə uyğunluğu, xərclərin dövlət və cəmiyyət qarşısında duran çağırışlarla uzlaşması, kəsirin riski və büdcə qaydasına əməl olunmasıdır.

Birincisi, cari ilin sonunda ölkədə ümumdaxili məhsulun 4,2 faiz, qeyri-neft sektorunun isə 6,4 faiz böyüməsi, orta illik inflyasiyanın 2,7 faiz olması, əhalinin real gəlirlərinin 4,5 faiz artması, fikrimcə, yaxşı göstəricilərdir. Nəzərə alsaq ki, cari ildə qlobal iqtisadi artım cəmi 3 faiz, inflyasiya 5,8 faiz olub, o zaman bizim göstəricilərin nisbətən yüksək olması dərhal nəzərə çarpır. Həm də xatırlatmaq yerinə düşər ki, biz bu göstəricilərə bəzi ölkələr kimi süni şəkildə idxalı və ixracı, yenidən ixracı artıraraq, sanksiyalarla alver edərək deyil, təbii şəkildə, heç bir beynəlxalq qanun pozuntusu etmədən nail olmuşuq. Növbəti ildə ümumdaxili məhsulun artım tempinin 3,5 faiz, qeyri-neft sektorunun 4,9 faiz proqnozlaşdırılması da, fikrimcə, məqbuldur. Cari ildə iqtisadi artıma, məcburi tələbin artımına təkan verən sahələrin və amillərin təhlili bizə bu qənaətə gəlməyə əsas yaradır.

Baza ssenarisi üzrə neftin qiymətinin 70 dollardan götürülməsi reallığa çox yaxındır. Beynəlxalq təşkilatlar da 2025-ci ildə neft qiymətlərinin 70–80 dollar arasında olacağını proqnoz ediblər. Maliyyə Nazirliyinin təqdima-

tına görə qiymət 60 dollara qədər düşdüyü halda, dövlət büdcəsinin neft-qaz gəlirlərinin 340 milyon manat azalacağı gözlənilir. Hesab edirəm ki, hətta bu halda belə hökumətin bu riski idarə etmək üçün kifayət qədər imkanı mövcud olacaqdır. Qaz qiymətləri, hesab edirəm ki, layihədə göstərilən 242 dollardan çox olacaqdır. Bu fərq həm də neft qiymətlərinin volatilliyini kompensasiya edə biləcəkdir. Bu gün Avropa Birliyi və Çin iqtisadiyyatında baş verən hadisələr qaza olan tələbatın gələcəkdə artacağını deməyə əsas verir. Həm də nəzərə alsaq ki, dünyanın "yaşıl enerji" gündəliyində qaz keçid yanacağı kimi qeyd edilir, o zaman qaza olan tələbatın durmadan artacağı bir daha sübut olunmuşdur.

Növbəti ildə orta illik inflyasiyanın 4,6 faizə qədər yüksələcəyi yaxşı xəbər olmasa da, qlobal inflyasiyanın növbəti ildə 4,3 faiz olacağı ilə bağlı proqnozlar bu rəqəmi məqbul edir. Fikrimcə, eyni zamanda, iqtisadi aktivliyi artırmaq üçün əlavə maliyyə imkanları cəlb edilməlidir. Mərkəzi Bankın məlumatına görə kredit portfelinin hər 3 elementinin cari ildə 19,5 faiz artması növbəti ildə iqtisadi artıma mühüm dəstək verəcəkdir.

İkincisi, göründüyü kimi, dövlət büdcəsinin gəlirləri artırılaraq 38,3 milyard manata çatdırılmışdır. Qeyd edim ki, Dövlət Neft Fondundan transfer artımını nəzərdə tutmasaq, o zaman dövlət büdcəsi gəlirlərinin artımı 228 milyon manat təşkil edəcəkdir. 129,2 milyard manatlıq ümumdaxili məhsul üçün 38,3 milyard manatlıq dövlət büdcəsi gəlirləri, məncə, məqbul hesab edilməlidir. Qeyri-neft-qaz sektorunun gəlirlərinin 924 milyon manat artırılması qeyri-neft-qaz sektorunun artım proqnozuna uyğundur, hətta deyərdim ki, proqnozu bir az da üstələyir.

Amma Dövlət Vergi Xidməti tərəfindən planlaşdırılan qeyri-neft sektoru üzrə daxilolmaların 9 faiz, yəni 1 milyard manat artırılması sektor üzrə ümumdaxili məhsulun artım tempini üstələyir. Əminəm ki, ölkədə vergi məhdudiyyətinin formalaşmasına və effektiv icra mexanizminin yaradılmasına nail olan Dövlət Vergi Xidməti bu öhdəliyi icra edə biləcəkdir.

Dövlət Neft Fondundan transferin artırılması, hesab edirəm ki, indiki geosiyasi vəziyyətdə çağırışların tələbi ilə reallaşacaqdır. Dövlət Neft Fondundan söhbət açmışkən, bir məsələni də xüsusi qeyd etmək istəyərdim ki, – bu mənim şəxsi fikrimdir, – hesab edirəm, gələcəkdə dövlət büdcəsinin gəlirlərinin Dövlət Neft Fondunun aktivlərinin idarə olunmasından əldə olunan gəlirlərin hesabına formalaşmasına daha çox fokuslanmaq lazım olacaq. Çünki bu, həm Dövlət Neft Fondunun, həm də gələcəkdə Azərbaycan dövlət büdcəsinin dayanıqlığını təmin edəcək ən mühüm məsələlərdən biridir. Dövlət Gömrük Komitəsi tərəfindən nail olunan bu ilin icra göstəriciləri, hesab edirəm ki, növbəti ildə 165 milyon manat artırılmış öhdəliyin icra edilməsinə əminlik yaradacaqdır.

Üçüncüsü, dövlət büdcəsinin xərcləri artırılaraq 41,3 milyard manata çatdırılmışdır. Xərclərin ÜDM-də çəkisinin 32 faiz olması, hesab edirəm ki, məqbuldur. Möhtərəm Prezident cənab İlham Əliyev VII çağırış Milli Məclisin açılışında etdiyi çıxış zamanı ölkə qarşısında duran əsas vəzifələri elan etmişdir. Eyni zamanda, dövlət başçısının sosial-iqtisadi siyasətinin istiqamətləri də müəyyən edilmişdir. Təhlillər göstərir ki, dövlət büdcəsi xərclərində bu istiqamətlərin hamısı nəzərə alınmışdır.

Hərbi xərclərin artırılmasını dəstəkləyirəm, yüksək

qiymətləndirirəm. İndiki zamanda bu bizim üçün çox vacibdir. Amma onu da qeyd etmək istəyərdim ki, sosial yönümlü xərclərin ilk dəfə olaraq dövlət büdcəsində 1 milyard 370 milyon manat artırılaraq ümumi xərclərin 41 faizinə çatdırılmasını əhalinin sosial rifahının yaxşılaşması baxımından müsbət hal hesab edirəm.

Dördüncüsü, dövlət büdcəsi kəsirinin ÜDM-də nisbətinin cari ildə nisbətən azalaraq 2,4 faiz olması məqbul göstərici sayılmalıdır. Kəsirin maliyyələşməsində daxili borclanmaya üstünlük verilməsi əvvəlki illərdə tətbiq edilən metodlardan biridir, özünü doğruldub və kəsirin maliyyələşməsində ciddi risklər görünmür.

Nəhayət, beşincisi, dövlət büdcəsi haqqında qanun layihəsinə dair izahata əsasən "Büdcə sistemi haqqında" Qanunda o cümlədən büdcə qaydasına dəyişiklik edilməsi və icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbətinin yuxarı həddinin yalnız ortamüddətli dövrün sonuna müəyyənləşməsi nəzərdə tutulmuşdur. 2028-ci ildə müvafiq göstəricinin 15,5 faiz səviyyəsində müəyyən olunması təklif edilir. Hesab edirəm ki, bu yanaşma da büdcə siyasətində çevik idarəetməyə şərait yaradacaqdır.

Beləliklə, bütün bu aspektləri təhlil etdikdə 2025-ci il dövlət büdcəsinin layihəsi növbəti ildə dövlət və cəmiyyət qarşısında duran məsələlərin həllinə lazımi maliyyə təminatının yaradılacağı əminliyini yaradır. Bütün bunları nəzərə alaraq, Prezident cənab İlham Əliyev tərəfindən Milli Məclisə təqdim olunmuş 2025-ci ilin dövlət büdcəsi haqqında qanun layihəsini dəstəkləyirəm və həmkarlarımı da bu layihəyə səs verməyə çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Tahir müəllim. İndi isə Vüqar

Bayramov. Buyurun. Vüqar müəllim harada oturur?

**Vüqar Bayramov.** Hörmətli xanım sədr, mən yerimi dəyişmişəm.

**Sədrlik edən.** Bəli, buyurun.

**Vüqar Bayramov**. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli deputatlar, hörmətli qonaqlar. Mən də 2025-ci ilin büdcə layihəsini dəstəkləyirəm və təbii ki, bu sənədə səs verəcəyəm. Nəzərə alsaq ki, bu gün biz müstəqillik tarixinin ən böyük büdcəsini müzakirə edirik, əslində, son illər büdcə müzakirələrində "müstəqillik tarixinin ən böyük büdcəsi" fikrini işlədirik və təbii, bu, Azərbaycanın gücü və eyni zamanda, cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən islahatların nəticəsi kimi qiymətləndirilməlidir. Xüsusən nəzərə alsaq, 2025-ci ildə dövlət büdcəsindən həm prioritet istiqamətlərə, o cümlədən milli təhlükəsizliyimizin daha da güclənməsi, Qarabağ və Şərqi Zəngəzurun bərpasının davam etməsi, həm də sosial istiqamətə ayrılacaq vəsaitlərin həcmində artımlar olacaq, bu ondan xəbər verir ki, 2025-ci ilin dövlət büdcəsi Azərbaycanda iqtisadi və fiskal hədəflərə uyğun olaraq formalaşmış bir sənəddir.

2025-ci ildə dövlət büdcəsindən ayrılan hər 100 manatın 41 manatı sosial istiqamətə yönəldiləcək. Eyni zamanda, 2025-ci ildə Qarabağ və Şərqi Zəngəzurun bərpası üçün ayrılan vəsaitin 4 milyard manat nəzərdə tutulması praktik olaraq Vətən müharibəsindən sonra bu istiqamətə məhz ötən müddətdə, 2025-ci il də daxil olmaqla, 22 milyard manata yaxın vəsaitin ayrılması anlamına gəlir. O baxımdan dövlət büdcəsində xərcləmələr bizim iqtisadi hədəflərə uyğundur və sözsüz, büdcə gəlirləri də, büdcə gəlirlərinin strukturu da bir daha təsdiq

edir ki, məhz 2025-ci ildə Azərbaycan iqtisadiyyatında və eləcə də büdcə gəlirlərinin formalaşmasında qeyri-resurs sektor, yəni qeyri-resurs gəlirləri drayver olaraq qalacaq və 2025-ci ilin büdcə gəlirlərinin 51 faizi qeyri-neft və qaz sektorunun payına düşəcək. Baxmayaraq ki, Dövlət Neft Fondundan dövlət büdcəsinə transferlərin həcmində artımlar nəzərdə tutulub, amma bütün bunlara rəğmən, neft və qaz sektorunun büdcə gəlirlərindəki payı 50 faizdən aşağıdır və bu, təbii, qeyri-neft sektorunun inkişafı baxımından çox vacibdir. Təbii ki, bütün bunlarla yanaşı, bir sıra konseptual məsələləri də qeyd etmək istərdim.

Əvvəla, büdcə zərfində qlobal regional risklər qeyd olunur. Daha məqsədəuyğun olardı ki, eyni zamanda, fiskal risklər qeyd olunsun. Çünki fiskal risklərin öncədən qiymətləndirilməsi və büdcə zərfində öz əksini tapması həm də preventiv tədbirlərin həyata keçirilməsi baxımından vacibdir. Qeyd olunduğu kimi, ilk dəfə olaraq 2025-ci ilin dövlət büdcəsində həm "yaşıl iqtisadiyyat"a, həm də bütövlükdə, ətraf mühitə ayrılacaq vəsaitlər ayrıca qiymətləndirilib və öz əksini tapıb. Bütün bunlarla yanaşı, təbii ki, təklif etmək istərdim, həm də "yaşıl xərcləmə" meyarından istifadə olunsun. Bu, Hesablama Palatasının rəyində də öz əksini tapa bilər. Bu, eyni zamanda, büdcə xərcləmələrinin səmərəliliyinin qiymətləndirilməsi baxımından vacibdir. Risklərin daha konkret və ölçülə bilən olması vacibdir. Təbii ki, qeyd etdiyiniz kimi, regional və qlobal risklər göstərilib, amma bu risklərin də ölçülə bilən olması və eyni zamanda, konkretlik olduqca vacibdir.

Büdcə gəlirləri və bütövlükdə, iqtisadi proqnozlaşdırılmada daha yeni metodlardan istifadə edilməsinə ehtiyac var. Xüsusən nəzərə alsaq, büdcə paketi elan olunan za-

man elan olunan rəqəmlərlə büdcə zərfində olan rəqəmlər arasında hətta müəyyən fərqlər var. Baxmayaraq, hər iki sənədin elan olunması prosesi təxminən bir ay ərzində həyata keçirildi, bu bir daha təsdiq edir ki, proqnozlaşdırma ilə bağlı daha yeni metodlardan istifadə olunması olduqca vacibdir. Eyni zamanda, qeyd olunduğu kimi, 2025-ci ildə makroiqtisadi stabillik qorunub saxlanacaq. Bu, təbii ki, kifayət qədər pozitiv bir amildir və 2017-ci ildən etibarən biz milli valyutanın məzənnəsinin stabilliyinin qorunub saxlanmasını müşahidə edirik. Amma bütün bunlarla yanaşı, təbii ki, həm nominal, həm də real effektiv məzənnədə dəyişikliklərin olması və bu dəyişikliklərin Azərbaycanın qeyri-neft ixracına təsirlərinin ayrıca qiymətləndirilməsi  olduqca vacibdir. Eyni zamanda, fiskal, iqtisadi siyasətin tam uyğunlaşdırılmasına və xüsusən də valyuta bazarındakı tarazlığa təsirin qiymətləndirilməsinə ehtiyac var. Nəzərə alsaq ki, 2025-ci ilin geridə qalan aylarında dövriyyədə olan nağd pulun həcmində artımlar müşahidə olunub, yəni M0 16 milyard 886 milyon manatdan 17 milyard 245 milyon manatadək yüksəlib, bu baxımdan, təbii, məhz hər iki siyasətin əlaqələndirilməsi çox vacibdir.

Sudsidiyaların ÜDM-ə təsirinin ayrıca qiymətləndirilməsi və subsidiya mexanizmi ilə bağlı daha ölçülə bilən və daha yeni metodlardan istifadə olunması olduqca vacibdir.

Eyni zamanda, təbii ki, cənab Baş nazirin bizim iclasda iştirakını nəzərə alaraq, təmsil etdiyim dairə ilə bağlı bir məsələni qeyd etmək istərdim. Füzuli rayonunun 11 qayıdış qəsəbəsi 2003-cü ildə qurulub və keçmiş məcburi köçkünlər tərəfindən məskunlaşdırılıb. Həmin qəsəbələrdə

hazırda 10 minə yaxın sakinimiz məskunlaşıb. Daimi olaraq biz cənab Prezidentin və hörmətli Mehriban xanımın Füzuli rayonuna və keçmiş məcburi köçkünlərə diqqətini müşahidə edirik və Füzuli rayonu son illər praktik olaraq qurulur, bərpa olunur. Amma bütün bunlarla yanaşı, həmin 11 qayıdış qəsəbəsində artıq uzun müddətdir ki, içməli su yoxdur və içməli su təminatının bərpa edilməsi və həmin qayıdış məntəqələrinin içməli su ilə təminatına ehtiyac var. Ona görə də, mən xahiş edərdim ki, 2025-ci ilin xərclər smetasında məhz 10 min vətəndaşımızın məskunlaşdığı qayıdış qəsəbələrinin içməli su ilə təminatı həyata keçirilsin. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun, Sahib müəllim.

**Sahib Alıyev**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, dəyərli hökumət üzvləri və həmkarlar. 2025-ci ilin büdcəsinin müzakirəsinin Kəlbəcərin işğaldan tam qurtarıldığı bir gündə keçirilməsində bir rəmzilik var. Rəmzilik ondadır ki, torpaqlarımızın azad edilməsində güclü iqtisadiyyat və təbii ki, əsas vəzifələrindən biri də iqtisadi artımı stimullaşdırmaq olan, milli həmrəyliyin əsas indikatorlarından sayılan sosial tarazlığı və ədaləti daim diqqət mərkəzində saxlayan düzgün büdcə siyasəti az rol oynamayıb. Əlbəttə, burada cənab Prezidentin risklərin sərhədini dəqiq müəyyənləşdirməsi, yüksək diplomatik bacarığı və qətiyyəti ayrıca vurğulanmalıdır. Məhz bu iki faktor Azərbaycan torpaqlarının bir hissəsinin heç bir itki vermədən geri qaytarılmasını təmin etdi və onu istəməyənlərə də Zəfərimizi qəbullandırdı. Burada söhbət təkcə artıq "Qarabağ Azərbaycandır" mızıldayan Paşinyandan deyil, onu bu sözlərinə görə sərt tənqid etsələr də,

söylədiyinə dayanaraq yaranmış vəziyyətlə razılaşmaqdan başqa onlara ayrı yol buraxılmadığını bildirən havadarlarından da gedir.

Yeri gəlmişkən, o yüksək diplomatik bacarığın növbəti dəfə sərgilənməsinin nəticəsidir ki, Qərbdəki bəlli çevrələrin İkinci Qarabağ savaşında olduğu kimi, burada da əleyhimizə işləmələrinə, qarayaxma kampaniyalarına, boykot çağırışlarına baxmayaraq, COP29 uğurla və Azərbaycana təşəkkür qətnaməsi ilə başa çatdı. Bu qətnamə, açıqlanan maliyyə öhdəliyindən də göründüyü kimi, dövlətimizin qlobal Şimalla qlobal Cənubu de-fakto bir araya gətirməyi bacarması, həm də torpaqlarımızın üzərində suverenliyimizin tam təmininə dünya birliyinin, ən azından onun çox böyük hissəsinin dəstəyinin ifadəsi sayıla bilər. Belə bir beynəlxalq dəstək isə öz növbəsində regionda yeni savaş risklərini azaldır. Amma yeni savaş riskini ən çox azaldan Azərbaycanın güclü müdafiə və təhlükəsizlik potensialının olmasıdır ki, mən hörmətli Azər müəllim Əmiraslanovun, eləcə də digər iqtisadçı həmkarlarımızın, bütövlükdə, büdcə ilə bağlı söylədikləri dəyərli fikirləri dəstəklədiyimi bildirərək məhz bu sahəyə ayrılan xərclərin üzərində dayanmaq istəyirəm.

Azərbaycanın müdafiə xərclərinin 8,4 milyard manata çatdırılmasını, çox təəssüf ki, haylara guya havadarlıq edənlər onların təhlükəsizliyi üçün təhdid kimi dəyərləndirirlər. Əslində isə, bu, məhz yeni savaşın baş verməməsi, Ermənistanı ona həvəsləndirənlərin məqsədlərinə çatmamaları üçün atılan bir addımdır. Mən istisna etmirəm ki, vaxt gələcək, Azərbaycan Ermənistanın təhlükəsizliyinin təminində də öz dəstəyini əsirgəməyəcək.

İndi isə izninizlə, Ağdaş rayonunun problemlərini cə-

nab Baş nazirin və hökumət üzvlərinin diqqətinə çatdırmaq istərdim. Ağdaşda 8 yaşayış məntəqəsi tam qazlaşmayıb, 10-da isə yarımçıq qazlaşma aparılıb. Məsələn, Qarasuqumluğa çoxdan qaz çəkilsə də, orada kompakt yaşayan 70 ailə hələ də gözləyir ki, onlara da belə bir xoşbəxtlik nəsib olacaq. Digər 9 kənddə belə ailələrin sayı nisbətən azdır – 10, 12, 14, 24 və sair.

Burada onu da deyim ki, qazlaşdırılmayan 8 kənddən birində – Qaradeyində bu ilin əvvəlində xəttin çəkilişinə başlanıb, sonra da nədənsə dayandırılıb. Qaz boruları da qalıb yolların qırağında. Mən ümid etmək istərdim, həm Qaradeyində tezliklə qaz çəkilişi bərpa olunacaq, həm də meşə zolağına yaxın Kürqırağı digər 7 kənddə qazsızlığa son qoyulacaq ki, bu da ekologiya məsələsi baxımından da son dərəcə önəmlidir. Qaz olmadığına görə hökumətimizdən həmin kəndlərdə yaşayan insanların odun ehtiyaclarının zamanında, həm də güzəştli şərtlərlə təmin olunmasını xahiş edirəm.

Odundan söz düşmüşkən, Ağdaş rayonunda qaz xətti çəkilmiş kəndlərdə, elə şəhərin özündə də 4 körpələr evi-uşaq bağçası, 3 ümumi, 18 tam orta məktəb odunla isidilir. Qızdırılır demirəm, məhz isidilir. Əlaqədar qurumlardan soruşmaq istərdim, kəndlərə qaz çəkildiyi və həmin kəndlərin əksəriyyətində məktəblər qaz xəttinin cəmisi bir neçə addımlığında yerləşdiyi halda, nədən odunla isidilir? Burada maraq nədir?

Təhsil Nazirliyinin diqqətinə onu da çatdırmaq istərdim ki, rayonun 29 məktəbinin və 13 bağçasının əsaslı təmirə ehtiyacı var. 7 bağça isə qəzalı vəziyyətdədir.

Rayonda 3 tibb məntəqəsi də qəzalı vəziyyətdədir, 2-si əsaslı, 38-i isə cari təmir edilməlidir. Rayonun 34685

adamın yaşadığı 27 kəndini bir-birinə birləşdirən yollar da bərbad gündədir. Yəni təqribən 100 kilometrə yaxın kəndarası yolların əsaslı təmirinə ehtiyac var. 41 kənddə su çatışmazlığı və keyfiyyətli içməli suyun yoxluğu problemi mövcuddur. 71 yaşayış məntəqəsinin, o sıradan Ağdaş şəhərinin elektrik təsərrüfatı tam yenidən qurulmalıdır.

Çox xahiş edirəm ki, sadaladığım bu problemlərə diqqətlə yanaşılsın və yaxın perspektivdə, heç olmasa, onların bir hissəsi öz həllini tapsın. Büdcə layihəsini dəstəkləyirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Tahir Rzayev. Buyurun.

**Tahir Rzayev.** Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, hörmətli Baş nazir, hökumət üzvləri və deputat həmkarlar. 2025-ci ilin dövlət büdcəsi layihəsi “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun tərtib olunub və nəinki maliyyə, ilk növbədə siyasi əhəmiyyətli bir sənəddir. Bu layihə dövlət rəhbərinin siyasi fəaliyyətini iqtisadi müstəvidə aydın ifadə etməklə, həm də hökumətin bu sahədəki fəallığını bütün istiqamətlərdə dəyərləndirir. Ölkədəki ictimai-siyasi sabitlik, birlik, sosial-iqtisadi inkişaf, daxili və xarici aləmdə qazanılan uğurlar məhz həyata keçirilən mükəmməl siyasi kursun nəticəsidir.

Azərbaycan dünyanın iqtisadi cəhətdən inkişaf edən ölkələri sırasındadır. Hazırda respublikamızda ümumi daxili məhsulun 4,9 faizlik artım tempi dünya üzrə ümumi iqtisadi artım göstəricisindən yüksəkdir. Beynəlxalq Valyuta Fondu gələn il Azərbaycanda ümumi daxili məhsulun 77 milyard dollara yüksələcəyini ehtimal edir. 2025-ci ilin dövlət büdcəsi gəlirlərinin keçən ilin müvafiq proqnoz göstəriciləri ilə müqayisədə 5,3 faiz çox proqnoz-

laşdırılması müsbət göstəricidir. Büdcə layihəsində təhsil, səhiyyə, kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi, sosial müdafiə və sosial təminat xərclərinin artımla proqnozlaşdırılması Azərbaycan iqtisadiyyatının davamlı və dayanıqlı inkişafda olmasından xəbər verir.

Büdcədə müdafiə və milli təhlükəsizlik məsələlərinə daha çox vəsaitin ayrılmasının nəzərdə tutulması günün reallığından irəli gəlir və Prezident cənab İlham Əliyevin VII çağırış Milli Məclisin ilk iclasında səsləndirdiyi "ordumuzu gücləndirməliyik, hərbi sənayemizi inkişaf etdirməli, sərhədlərimizi möhkəmləndirməli, təhlükəsizliyimizi təmin etməliyik" fikirlərinin ifadəsi kimi qəbul edilməlidir.

Müharibədə tarixi qələbə qazanmağımıza baxmayaraq, yenə də ölkəmizə qarşı təxribat, mina müharibəsi, böhtan, şantaj kampaniyası davam etməkdədir. Ermənistan silahlanmaqdadır, Qərb, Avropa, Fransa təcavüzkar dövləti müharibəyə hazırlayır. Belə bir vaxtda bütün imkanları təhlükəsizliyimiz üçün səfərbər etmək başa düşüləndir və bu, xalqın istəyi, tələbidir.

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası məqsədi ilə nəzərdə tutulan 4 milyard manat vəsait torpağa məhəbbətdən, insana qayğıdan qaynaqlanır. Artıq keçmiş qaçqın və köçkünlər öz ata-baba yurdlarına qayıdırlar və yeni bir həyata qədəm qoyurlar. Bu, böyük xoşbəxtlikdir və bu amal uğrunda qoyulan və artırıla biləcək hər hansı vəsait insanlığa töhfə, xidmətdir.

Dövlət büdcəsində sosial yönümlü xərclər büdcə xərclərinin 41 faizini təşkil edir. Yoxsulluğun azaldılması, aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi, sosial müdafiə və sosial təminat xərcləri əvvəlki illərdən

artıqdır ki, bu da dövlətimizin öz vətəndaşlarına qayğısının ifadəsidir.

2025-ci ilin dövlət büdcəsində kənd təsərrüfatı xərclərinin 1 milyard 172 milyon manat nəzərdə tutulması və həmin vəsaitin 510 milyondan çoxunun mövcud olan su ehtiyatlarından səmərəli istifadənin təmin olunmasına, müasir texnologiyaların tətbiq edilməsinə, torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılmasına yönəldilməsi, həm də büdcədən toxumçuluğun, heyvandarlığın inkişafı üçün əlavə vəsaitlərin ayrılması aqrar sahəyə dövlətin qayğısı kimi dəyərləndirilməlidir.

Bu qayğının nəticəsidir ki, bu ilin 10 ayı ərzində aqrar sənaye məhsullarının ixracının dəyəri 60 faiz artıb. Kənd təsərrüfatı məhsullarının faktiki qiymətlərlə ümumi dəyəri 11 milyard 407 milyon manat olmuş, məhsul istehsalı artmış, aqrar sektor ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında başlıca rola malik, gəlir gətirən sahəyə çevrilməkdədir.

Azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafı sahəsində bu gün çox mühüm tədbirlər həyata keçirilir. Bu da gələcəkdə həmin ərazilərdə məhsul bolluğu yaradılması üçün yaxşı proqnozlar verir.

Dünyada baş verən hadisələr – amansız müharibələr, qarşıdurmalar, iqlim dəyişikliklərinin yaratdığı problemlər – quraqlıq, aclıq, su, qida çatışmazlıqları bəşəriyyəti imtahana çəkir. Bu hallar Azərbaycandan da yan keçmir. COP29 kimi dünya əhəmiyyətli bir tədbirin ölkəmizdə uğurla keçirilməsi bunun ifadəsi idi və dünya bir daha Azərbaycanın qüdrətini, onun beynəlxalq aləmdə nüfuzunu, təşkilatçılığını gördü və bu əlamətdar hadisənin şahidi oldu.Seçildiyimiz regionlarda müəyyən çətinliklər olsa da,

həll oluna biləcək məsələləri bir daha səsləndirmək fikrində deyiləm. Çünki seçicilərimizi narahat edən bəzi məsələləri komitə iclaslarında biz geniş müzakirə etdik və xatırlatdıq. Sözsüz ki, müvafiq orqanlar buna öz münasibətlərini bildirəcəklər. Bu gün isə ən vacib məsələ milli təhlükəsizliyimizi təmin etmək, ordumuzu gücləndirmək, müdafiə qabiliyyətimizi artırmaq, işğaldan azad olunan ərazilərin bərpasını sürətləndirmək və vətəndaşlarımızın qayğısına qalmaq, həyatlarını qorumaqdır. Bu məqsədlər 2025-ci ilin büdcə layihəsində də öz əksini tapıb və biz mükəmməl hazırlanmış bir sənədi müzakirə edirik.

Hesablama Palatasının dövlət büdcəsi layihəsinə verdiyi rəy də mükəmməldir və hərtərəflidir.

Mən büdcə layihəsini müdafiə edirəm, lehinə səs verəcəyəm və onu tərtib edənlərə öz minnətdarlığımı bildirirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Tahir müəllim. Kamal Cəfərov. Buyurun.

**Kamal Cəfərov.** Çox sağ olun. Hörmətli xanım sədr, cənab Baş nazir, hökumət üzvləri və əziz həmkarlar. İlk olaraq COP29 beynəlxalq tədbirinin yüksək səviyyədə təşkilinə və əldə edilən tarixi nailiyyətə görə hər birinizi təbrik edirəm. Bu uğur Azərbaycan Prezidenti cənab İlham Əliyevin, dövlətimizin və xalqımızın birliyinin növbəti zəfəridir. Cənab Prezident İlham Əliyevin dediyi kimi, “COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir. Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək”.

Əziz həmkarlar, 2025-ci ilin dövlət büdcəsi ölkəmiz üçün strateji yol xəritəsidir. Bu büdcə qeyri-neft sektorunun inkişafına prioritet verərək konseptual olaraq sosial

rifahın qorunmasını və iqtisadi dayanıqlığın təmin edilməsini hədəfləyir.

2025-ci il dövlət büdcəsinin gəlirləri 38,3 milyard manat, xərcləri isə 41,4 milyard manat təşkil edir. Bu büdcə kəsiri iqtisadiyyatın mütənasibliyini qorumaqla yanaşı, investisiyaların genişləndirilməsi, inkişafın sürətləndirilməsi üçün xüsusi imkanlar təmin edəcək. Eyni zamanda, borclanma imkanlarından səmərəli istifadəni təmin etməklə uzunmüddətli perspektivlər üçün strateji fayda yaradacaq.

Xərclərin 4 milyard manatının işğaldan azad olunmuş torpaqlara yönəldilməsi həmin ərazilərin iqtisadi aktivliyə daxil edilməsi və sosial inteqrasiyanın təmin olunması baxımından həyati əhəmiyyət daşıyır. Bu, yalnız fiziki infrastrukturun qurulması deyil, eyni zamanda, yeni iş yerlərinin yaradılmasıdır, iqtisadiyyatımıza yeni nəfəsin verilməsidir.

Hərbi xərclərə ayrılan büdcə isə ən yüksək həddədir. 8,4 milyard manat. Hərbi xərclər Azərbaycan Prezidenti cənab İlham Əliyevin Milli Məclisin ilk iclasında məhz elə burada etdiyi çıxışda səsləndirdiyi strateji hədəfimiz və dünyanın real güc, yəni hərbi güc əsasında idarə olunması doktrinası ilə səsləşən bir komponentdir. Bu rəqəm təkcə ordumuzun müasirləşdirilməsinə deyil, eyni zamanda, milli müdafiə sənayesi sahəsində texnologiya sektorunun inkişafına yeni imkanlar yaradacaq.

Sosial siyasət məqsədləri baxımından büdcənin əsas prioriteti çoxşaxəli rifahı təmin etməkdir. Sosial yönümlü xərclər 2024-cü illə müqayisədə 8,8 faiz, 2023-cü illə müqayisədə 17,8 faiz, 2021-ci illə müqayisədə 64 faiz çoxdur. Bu isə Azərbaycan dövlətinin sosial rifahı təmin etməkdə qəti iradəsini və ardıcıl siyasətini aşkar şəkildə göstərir.

İcbari tibbi sığorta sisteminə ayrılacaq 1,4 milyard manat isə səhiyyə xidmətlərinin göstərilməsində yeni keyfiyyətin əldə edilməsinə şərait yaradacaq. Bu da xüsusi ilə aztəminatlı ailələr üçün səhiyyə xidmətlərini daha əlçatan edəcək.

Təhsil sahəsinə ayrılan 4,9 milyard manat, o cümlədən 2,3 milyard manatın orta təhsilə yönəldilməsi yeni nəsillərin formalaşdırılmasında strateji rol oynayacaq. Bu investisiyalar, sadəcə, təhsilin infrastrukturunu deyil, həm də keyfiyyətini artırmaqla Azərbaycanın gələcək iş bazarına dayanıqlı dəstək olacaq.

Son illər ərzində ölkəmizin maliyyə vəziyyəti əhəmiyyətli dərəcədə yaxşılaşıb. Bu, həm də maliyyə idarəetməsində nizam-intizamın möhkəmləndirilməsi, vergi və gömrük orqanlarında islahatların davam etdirilməsi, ümumilikdə, dövlət qurumlarının fəaliyyətində şəffaflığın təmin edilməsi hesabına baş veribdir.

Ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində güclü siyasi iradə var. Azərbaycan Prezidentinin vəzifəli şəxslər qarşısında qoyduğu tələblər aydındır, hər bir hökumət üzvü siyasi idarəetməni təmsil edir. Həmin rəhbər şəxslərə siyasi etimadla yanaşı, böyük resurslar da həvalə edilir. Ona görə də vəzifəli şəxs fəaliyyətində həmişə dövlət maraqlarını şəxsi maraqlardan üstün tutmalıdır. Rəhbərlik etdiyi qurum vətəndaşlarla düzgün kommunikasiya modeli seçməli, onları narahat edən problemlərin çevik həllinə nail olmalı, dövlət qurumuna və siyasi idarəetməyə olan ictimai etimadı daha da gücləndirməlidir.

Nəzərə almaq lazımdır ki, dövlət büdcəsindən məqsədinə uyğun, səmərəli və dürüst istifadə təkcə qanunlarımızın tələbi deyil, həm də cənab Prezident İlham Əliyevə

sədaqətin əsas şərtlərindəndir. Mən əminəm ki, Azərbaycan hökumətinin üzvləri bu məsuliyyəti tam anlayır, yeni reallığı və çağımızın ideyasını başa düşür və 2025-ci il dövlət büdcəsini də eyni peşəkarlıq, qətiyyət və sədaqətlə icra edəcəklər.

Cənab Baş nazir, bu müzakirələrin vacibliyini dəyərləndirərək bir mühüm məsələni diqqətinizə çatdırmaq istəyirəm. Təmsil etdiyim Sabirabad rayonunun 11 kəndi hələ də qaz təchizatı ilə təmin edilməmişdir. Bildiyimə görə, SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi son illərdə kəndlərin qazlaşdırılması layihələrini, əsasən, öz daxili maliyyə resursları hesabına həyata keçirir. Bu, təqdirəlayiq addımdır. Ancaq görünür, bu resurslar qazlaşdırma prosesinin mərhələli olsa da, yalnız uzun müddətdə başa çatmasına imkan verir. Ancaq bu vəziyyətin həlli üçün daha çevik yanaşmaların nəzərdən keçirilməsi vacibdir. Eyni zamanda, bu proses başa çatana qədər hazırda Sabirabadın 11 kəndinin camaatının bu gün üzləşdiyi çətinliyin yüngülləşdirilməsi üçün həmin kəndlərdə səyyar qaz satışlarının təşkil edilməsinə müvafiq dəstək göstərilməsini Sizdən xahiş edirəm.

Cənab Baş nazir, eyni zamanda, Sabirabad rayonunun Şəhriyar kənd orta məktəbi də qəzalı vəziyyətdədir. Məktəb binası uzun müddət əsaslı təmir olunmadan istismar edildiyindən, tam yararsız vəziyyətə düşübdür. Növbəti illərin dövlət investisiya proqramı çərçivəsində həmin məktəbin yenidən tikilməsi məsələsini nəzərdən keçirməyinizi xahiş edirəm.

Yekunda isə qeyd etmək istəyirəm ki, 2025-ci il dövlət büdcəsi bizim qarşıdakı illərdə strateji hədəflərimizi reallaşdırmaq üçün möhkəm bir bazadır. Əminəm ki,

uğurla icra ediləcək. Diqqətiniz üçün təşəkkür edir və hər birinizə uğurlar arzu edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Kamal müəllim. Jalə Əliyeva. Buyurun.

**Jalə Əliyeva.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli Baş nazir, hökumət üzvləri, deputat həmkarlar və media mənsubları. Biz yeni seçilmiş parlamentin ilk büdcə müzakirəsində iştirak edirik. Bu, həm də suveren, bütöv Azərbaycanın ilk parlamentidir və Azərbaycanın bütün ərazilərində keçirilən parlament seçkilərindən sonra bu bizim ilk büdcə müzakirəmizdir.

2025-ci ilin büdcə zərfi ilə tanışlıq əminliklə bunu deməyə əsas verir ki, bu büdcə sosial-iqtisadi inkişafın vacib göstəricilərindən biridir. Büdcə xərcləri hər ötən ilə nəzərən artır. Elə gələn il üçün dövlət büdcəsi xərclərinin 1,5 faiz artması aparılan dayanıqlı, stabil sosial-iqtisadi siyasətin bariz göstəricisidir. Biz işğaldan azad etdiyimiz torpaqlarımızı yenidən qururuq, dirçəldirik. Bu gün həmin ərazilərdə aparılan nəhəng quruculuq işləri dövlətimizin prioritet istiqamətidir. Eyni zamanda, sosial, təhsil, səhiyyə və sair sahələrdə büdcə artımları nəzərdə tutulub ki, bu da çox vacib göstəricidir.

Yeri gəlmişkən, başda hörmətli Baş nazir Əli Əsədov olmaqla layihənin hazırlanmasında əməyi keçən bütün hökumət üzvlərinə, xüsusi ilə maliyyə nazirimiz hörmətli Samir Şərifova təşəkkürümü bildirmək istəyirəm. Eyni zamanda, hökumət üzvlərinin tam tərkibdə burada olması səbəbi ilə deputatı olduğum Zərdab, Kürdəmir, Ucar rayonları ilə bağlı bəzi mülahizə və təkliflərimizi səsləndirmək istəyirəm.

Bilirik ki, hər bir kənd sakininin əsas gəlir mənbə-

yi əkinçilik və heyvandarlıqdır. Lakin kəndlinin bu fəaliyyət sahələrindən tam məhsuldarlıq əldə etməsində çətinliklər var. Belə ki, Zərdab, Kürdəmir, Ucar rayonlarında örüş yerləri üçün ayrılmış torpaq sahələri bir zamanlar uzun müddətə müxtəlif şəxslərə icarəyə verilib, bu da kənd sakinlərinin heyvandarlıqla məşğul olmasını məhdudlaşdırır.

Əkinçiliyi şərtləndirən ən əsas amil isə su və meliorasiya işləridir. Lakin bu sahədə də həmin rayonlarda müəyyən çətinliklər var. Belə ki, Kürdəmir rayonunun əkin sahələrində meliorasiya işləri aparılmayıb, suvarma kanallarının, xüsusi ilə beton latokların istismar müddəti bitib. Su nasoslarının vaxtında təmir olunmaması və elektrik su nasoslarını qidalandıran elektrik xətlərinin aşınması kənd sakinlərinə suvarmada problemlər yaradır.

Zərdab rayonunun Çallı, Məlikumudlu, Təzəkənd və Qoşaoba ərazilərində, Ucar rayonunun Lək, Xələc kəndlərində də sakinlər suvarma suyundan əziyyət çəkirlər.

Zərdab rayonunun Şahhüseynli kəndinin 834 hektar əkin sahəsinin suvarılması üçün tikintisinə keçən il başlanmış boru kəməri və beton kanalın tikintisi işləri bu ilin aprel ayından dayandırılıb.

Ucar rayonunun Lək kəndində və Kürdəmir rayonunun deputatı olduğum 18 kəndinin əksəriyyətində elektrik xətləri və dirəkləri tam qəzalı vəziyyətdədir. Hazırda rayon əgər belə demək mümkündürsə, 1960–1970-ci illərdə çəkilən elektrik xətti ilə işləyir. Həmin ərazilərdə işıq dirəklərinin və transformatorların yenilənməsinə ehtiyac var.

Yuxarıda sadaladığımız səbəblərlə əkinçilik və heyvandarlıqla məşğuliyyət və məhsuldarlıq həcmi qənaətbəxş olmadığına və işsizlik probleminə görə kənddən iş qüvvəsinin şəhərlərə axını müşahidə edilir. Məsələn, bizə

verilən məlumata görə Kürdəmirdə bu səbəblə məktəblərdə şagird çatışmazlığından siniflər bağlanır və bu da son nəticədə müəllimlərin işsizliyi ilə nəticələnir.

Təhsildən söz düşmüşkən, bir neçə kəlmə təhsil müəssisələrimiz haqqında danışmaq istəyirəm. Zərdab rayonunun Bıçaqçı kənd orta məktəbinin əsaslı təmiri və Şəftəhal kənd orta məktəbi üçün məktəbin yeni tikintisi işləri 2024-cü ildə başlamalı olduğu halda, tikinti işlərinə hələlik start verilməyib. Əsaslı təmirinə bu il başlanılmış rayonun Şahhüseynli kənd uşaq bağçasında təmir işləri çox zəif və ləng aparılır. Ümumiyyətlə, Zərdab rayonunda əsaslı təmir və tikinti üçün növbəsini gözləyən 15-dən çox məktəb və 10-a yaxın bağça var ki, bu məktəblər və bağçalar hələlik plana salınmayıb.

Bir neçə kəlmə də yollarla bağlı fikirlərimi bildirmək istəyirəm. Zərdab rayonunun ümumi uzunluğu 24,5 kilometr olan Məlikumudlu, Məmmədqasımlı, Məlikli, Burunlu və Qoruqbağı kəndlərini magistral yolla birləşdirən kənd yollarının əsaslı təmiri 2024-cü ildə başlanılmalı olduğu halda, işlərə hələlik start verilməyib.

Eyni şəkildə Kürdəmir rayonunun Söyüdlər, Qaramahmudlu, Şüşün, Ərəbxana, Çərtəyəz, Axtacı-Qarabucaq, Köhünlü, Türkədi kəndlərini magistral yolla birləşdirən kənd yollarının da əsaslı təmirinə ehtiyac vardır.

İstər Kürdəmir rayonunda, istərsə də Zərdab rayonunda Kür daşqını zamanı ziyan dəymiş evlərə vaxtında müəyyən məbləğdə, 800 manat yardım göstərilmişdir. Lakin bu məbləğ elə o zamanlar evlərin tam bərpasına kifayət etmədiyi üçün hazırda həmin evlər qəzalı vəziyyətdədir. Seçicilər dövlət səviyyəsində köməklik göstərilməsini xahiş edirlər.

Daha əvvəlki illərdə etdiyimiz müraciətlərdən sonra tikintisi plana salınan və cari ildə tikintisi başlanmalı olan Zərdab rayon mərkəzi idman meydançasında da hələlik işlər başladılmayıb.

Sonda iki məsələyə də diqqətinizi yönəltmək istəyirəm. Bunlardan biri onkoloji xəstələrə dövlət dəstəyi ilə bağlıdır. Məndən əvvəl çıxış edən çox hörmətli Əhliman Əmiraslanovun fikirlərinə qoşularaq bildirmək istəyirəm ki, dünyanın çox böyük bir bəlasına çevrilmiş bu mənfur xəstəliyə düçar olanların dövlətin yardımına ehtiyacı var. Hər gün həyatla ölüm-qalım mübarizəsi aparan onkoloji xəstələrin müayinə, müalicə və əməliyyat xərclərinin icbari tibbi sığorta tərəfindən qarşılanması vacibdir.

İkinci toxunmaq istədiyim məsələ isə ailə və uşaqlarla bağlıdır. Hökumətimizdən ailələrin möhkəmliyinin təmin edilməsi, ailədaxili münaqişələrin minimuma endirilməsi və ən əsası bütün uşaqların xoşbəxt böyüməsi, xüsusi ilə kimsəsiz uşaqların gələcəyinin dövlət təminatının gücləndirilməsi məqsədi ilə xüsusi proqramların hazırlanması üçün bu sahəyə nəzərdə tutulduğundan daha çox vəsait ayrılmasını xahiş edirəm.

Təqdim edilən məsələlərin mövcud imkanlar daxilində önümüzdəki ilin büdcəsində nəzərə alınması arzu ediləndir.

Sonda bir daha bu mükəmməl layihəni alqışladığımı, ona səs verəcəyimi bildirir və bütün həmkarlarımı büdcə layihəsinə səs verməyə dəvət edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Tural Gəncəliyev. Buyurun.

**Tural Gəncəliyev.** Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, dəyərli deputat həmkarlar və hökumət üzvləri. 2025-ci il büdcə zərfinə daxil olan sənədlərin

müzakirəmizə təqdim edilməsindən sonra bu sənədlərlə tanış olarkən, ölkəmizin düzgün iqtisadi inkişaf strategiyasının olduğunun və düzgün inkişaf istiqamətində irəlilədiyimizin bir daha şahidi oluruq. Xüsusi ilə dünyada gedən geosiyasi, geoiqtisadi prosesləri, çağırışları, təhdidləri nəzərə alsaq, elə regionumuz və ətrafında gedən proseslərə nəzər salsaq, tariximizin ən böyük büdcəsini müzakirə edərkən və onun parametrləri ilə tanış olarkən biz sevinməyə bilmirik. Çünki, həqiqətən də, 2025-ci ilin büdcəsi çox önəmli, tarixə düşəcək bir sənəddir.

Təbii ki, bunun bünövrəsində möhtərəm cənab Prezidentin liderliyi altında xalqımızın son illər əldə etdiyi uğurlar dayanır. Xüsusi ilə də 44 günlük müharibədə xalqımızın qalib gəlməsi, bundan sonra iqtisadi inkişaf strategiyamızın daha sürətli şəkildə müəyyən olunması hamımızı gələcəkdə yaxşı perspektivlərin olacağına bir daha əmin edir.

Büdcənin əsas makroiqtisadi göstəricilərinə, parametrlərinə baxanda burada xüsusi ilə də ümumi daxili məhsulun ildən-ilə artan tempinin saxlanılmasını və artıma meyilli şəkildə müəyyən olunmasını çox yaxşı bir hal kimi qiymətləndirirəm. Xüsusi ilə də qlobal beynəlxalq münasibətlər səviyyəsində büdcədə nəzərdə tutulan aspektlərlə tanış olarkən Azərbaycanın artıq yeni bir güc mərkəzi kimi meydana çıxdığını və beynəlxalq münasibətlər, beynəlxalq hüquq çərçivəsində oynayacağı rolu da biz indidən görə bilirik. Təsadüfi deyil ki, elə cari il ərzində Qoşulmama Hərəkatına uğurlu sədrlik, dünyanın zülmə, məşəqqətə məruz qalmış xalqlarının səsinin çatdırılması baxımından bir neçə gün öncə ölkəmizdə BMT-nin nəzdində keçirilən dünya səviyyəli COP29 konfransının

uğurla təşkil olunması bir daha bizim artıq regional çərçivədən çıxaraq qlobal məsələlərə öz töhfəmizi, öz gücümüzü proyeksiya etdiyimizin göstəricisidir. Cənab Prezident – liderimiz də artıq bu proseslərə xüsusi töhfələri olan bir lider kimi dünyanın gözü qarşısındadır. Artıq istər Qafqazda, istər Xəzər dənizi, Qara dəniz, istərsə də böyük Avrasiya regionunda elə bir geosiyasi, geoiqtisadi proses yoxdur ki, orada Azərbaycanın iştirakı, töhfəsi olmadan məsələlər həll olunsun.

Təbii, Qarabağı, eyni zamanda, Xankəndi şəhərini təmsil edən millət vəkili kimi, büdcəmizdə xüsusi ilə də Qarabağın yenidən qurulması, bərpa edilməsi maddələrinə baxarkən də sevinməmək mümkün deyildir. Xüsusi ilə də Böyük Qayıdış dövlət proqramının birinci fazası çərçivəsində 4 milyard manat vəsaitin proqnozlaşdırılması və təmsil etdiyim Xankəndi şəhərində də müvafiq yenidənqurma, bərpa işlərinin aparılması, həqiqətən də, hamımızı sevindirir. Xüsusi ilə də cənab Prezidentin Xankəndi şəhərində şanlı bayrağımızı qaldırmasının şəhərin yenidən inkişafına bir stimul olması göz qabağındadır.

Yeri gəlmişkən, hökumət üzvlərinin iclasda olması fürsətindən istifadə edib xahiş etmək istərdim ki, Böyük Qayıdış proqramı çərçivəsində xüsusi ilə Xankəndi şəhərində məşğulluq, iqtisadi inkişaf, kiçik və orta sahibkarlığın təşviq olunması, yardım edilməsi prosesində Xankəndi sakinlərinə prioritet güzəşt tanınsın. Təbii ki, bu proseslər meritokratiya prinsipləri nəzərə alınmaqla həyata keçiriləcək.

Ancaq onu demək istəyirəm, təəssüf ki, Ermənistan tərəfindən işğal edildikdən sonra 30 il ərzində Xankəndi şəhərini təmsil edən qurumlar mövcud olmamışdır. De-

mək olar, keçmiş məcburi köçkünlər içərisində ən həssas, ən çox məşəqqətlərə məruz qalmış kateqoriya məhz Xankəndi seçiciləri idi ki, 30 il ərzində heç bir qurum onların problemləri ilə məşğul olmurdu. Şükürlər olsun, bu gün artıq dövlətimizin müvafiq strukturları Xankəndidə fəaliyyət göstərir. Təkcə bu il ərzində Xankəndi şəhərində görülən işləri qeyd etmək lazımdır, yeni tikiş fabrikinin açılması, böyük ənənələri olan Qarabağ Universitetinin Xankəndi şəhərində yenidən fəaliyyətə başlaması, həqiqətən, çox sevindiricidir. Ona görə, bir şəhərin, bir regionun bərpa olunması, rifah halının yenidən yüksəldilməsi məhz orada yaşayan insanların rifah halının yüksəldilməsindən keçir.

Ona görə də istər sahibkarlıq fəaliyyətində, Xankəndi şəhərində gedən bu iqtisadi dirçəliş proseslərində, elə təhsil müəssisələrində, – dediyimiz kimi, artıq fəaliyyət göstərən Qarabağ Universiteti, əminəm və ümidvaram ki, bu regionun təhsil "silikon vadisi"nə çevriləcək, yəni ən böyük universitet artıq orada necə gözəl şəkildə fəaliyyət göstərir, – Xankəndi sakinlərinin də meritokratiya prinsipləri nəzərə alınaraq, daha tez, daha güzəştli şərtlərlə orada işlə təmin olunması, məşğulluğunun təmin edilməsi və onların geri qayıdışında bu güzəştli prioritet məsələlərin nəzərə alınmasını hökumət üzvlərindən xahiş edirəm.

Sonda onu demək istəyirəm ki, büdcə peşəkar şəkildə, yüksək səviyyədə hazırlanmışdır, qalib ölkənin qalib büdcəsi olaraq, tariximizin ən böyük büdcəsi olaraq, təbii, biz böyük məmnunluqla bu müzakirələrdə iştirak edirik. Mən Xankəndi millət vəkili kimi bu büdcəni dəstəkləyirəm və lehinə səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Tural müəllim, olan şeyləri

niyə xahiş edirsiniz? Siz indi xahiş etdiyiniz işlər hamısı yerinə yetirilir. Cavanşir Paşazadə. Buyurun.

**Cavanşir Paşazadə.** Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli nazirlər, hörmətli həmkarlar, hər birinizi salamlayıram. Mən də büdcə layihəsinə səs verəcəyəm. Çünki büdcə layihəsi çox mükəmməl hazırlanmışdır. Büdcə layihəsinin hazırlanmasında zəhməti keçən hər bir kəsə öz təşəkkürümü, minnətdarlığımı bildirirəm. 2025-ci ilin büdcə layihəsi bizim dövlətimizə, xalqımıza uğurlu, xeyirli olsun. İnşallah, deyirəm.

Hörmətli xanım sədr, respublikamızın digər bölgələrində olduğu kimi, bizim bölgədə – Cənub bölgəsində də içməli su ilə bağlı böyük problemlər var. Mən elə bilirəm, bu problemi həll etmək hələ ki, mümkündür. Çünki Ali Baş Komandan cənab İlham Əliyevin illər öncə Xanbulan çayının ətrafında tikdirdiyi Su emalı zavodu bizim bölgənin bir neçə rayon mərkəzini artıq içməli su ilə təmin edir. Bu təşkilata bir neçə ildir ki, büdcədən vəsait ayrılmır, ona görə bu iş dayandırılıb.

Seçki dönəmində bizim seçicilər müraciət edirdilər ki, hətta ana xətlərin qəsəbələrə, kəndlərə yaxın gətirilməsinə şərait yaradılsa, qalan hissəni öz vəsaitləri ilə də çəkməyə razıdırlar. Mən elə bilirəm ki, əgər biz bu suyu hər il 2-3 kəndə çəkə bilsək, bir neçə ilə bu məsələ öz həllini tapacaq.

Təbii ki, kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün də su vacibdir. Bizim sututarlar çox köhnədir. Kəndlərdə su tutarları, demək olar ki, yoxdur. Ən böyük sututarlar Xanbulan və Viləş çaylarıdır. Onlar da Ulu Öndər Heydər Əliyev Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi işləyən dönəmdə onun tapşırığı ilə tikilib.

Açılışlarında da özü iştirak etmişdi. Bunlar artıq bizim əhalimiz artdığına görə və çeşidli kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün yetərli deyil. Mən elə bilirəm ki, bölgədə artıq geniş, böyük bir su anbarının tikilməsi vacibdir. Çünki həm içməli, həm kənd təsərrüfatı suyu üçün, həm də bölgə yağışlı bölgə olduğuna görə bundan istifadə edib bu bölgədə böyük bir su anbarının tikilməsi vacibdir. Olan suların ətrafında da turizm məqsədi ilə müəyyən qədər restoranlar tikilib. Onlar da maneçiliklər törədirlər, mövsüm vaxtı kənd təsərrüfatı məhsullarını yetişdirmək üçün suyu buraxmağa icazə vermir, şərait yaratmırlar. Ona görə də insanların kənd təsərrüfatı məhsulları yetişdirmək üçün əli torpaqdan soyuyur.

Təbii ki, kənd təsərrüfatı məhsullarının satışı sahəsində də böyük problemlər var. Çünki bizim kənd təsərrüfatı emalı zavodlarımız özəlləşib, bazarlar özəlləşib. Kənd camaatının bazara əli çatmır, bazara çıxa bilmirlər. Çünki ətrafda alverçilər bu məhsulu çox ucuz qiymətə alırlar və baha qiymətə satırlar. Ona görə mən elə bilirəm ki, bizim məhsulun qiymətinin qeyri-qanuni artırılmasına, inflyasiya yaranmasına səbəb olan və insanların gələcəkdə kənd təsərrüfatı ilə məşğul olmasına böyük ziyan verən o təsərrüfatlara hökumət münasibət bildirməlidir. Təbii ki, bu məsələləri həll etməyə dəstək olmalıdır. Mən cənab Baş nazirdən, aidiyyəti strukturlardan xahiş edərdim, bu məsələyə diqqət yetirsinlər. Təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli Baş nazir, hörmətli hökumət üzvləri, sizləri salamlayıram və gələn il üçün dövlət büdcəsinin müzakirəsində iştirakınıza görə sizə təşəkkür edirəm.

İstənilən dövlətin dövlət büdcəsini iqtisadi sənəddən daha çox, aparılan siyasətin iqtisadi sahədə əks-sədası kimi qəbul edə bilərik. Azərbaycan büdcəsinin ildən-ilə artması, ayrı-ayrı sahələrə tələb olunan vəsaitin ayrılması cənab Prezidentimizin düşünülmüş daxili və xarici siyasətinin nəticəsidir. Cənab Prezidentimizin siyasi kursu bu ilin fevralında keçirilən növbədənkənar prezident seçkilərində əhalinin böyük bir hissəsinin ona səs verməsi ilə öz əksini tapdı. Eyni zamanda, parlament seçkilərinin demokratik şəkildə keçirilməsi də bu ilin əsas hadisələrindən hesab edilə bilər. COP29 kimi mötəbər beynəlxalq tədbirin Azərbaycanda keçirilməsi Azərbaycanın artan nüfuzu, cənab Prezidentimizin beynəlxalq aləmdə nüfuzu kimi qiymətləndirilə bilər.

Büdcə layihəsi reallıqlara uyğun olaraq bütün sahələr nəzərə alınaraq işlənibdir. Görünən ondan ibarətdir ki, büdcə layihəsi hazırlanarkən sıçrayış metoduna deyil, əldə edilənlərə istinad edilərək, gələn ilə obyektiv perspektivin qurulması ilə götürülüb. Burada hörmətli natiqlər çıxış etdilər. Biz ötən il, bu illə deyil, artıq bir neçə il bundan əvvəllə müqayisədə əhəmiyyətli inkişafın olduğunu görürük. Demək olar ki, əvvəlki illərdə olduğu kimi, büdcə layihəmiz yenə də sosial yönümlüdür, yenə də təhlükəsizliyimizin qorunması üçün bütün istiqamətlər nəzərə alınıb. Gələn il müdafiə və təhlükəsizlik sahəsi üçün əhəmiyyətli bir rəqəmin olmasını düzgün hesab edirəm. Əgər vaxtı ilə torpaqlarımızı işğal etmiş və bu gün məğlub olmuş Ermənistan müdafiə xərclərini artırmasaydı, əlbəttə ki, Azərbaycan da buna müvafiq olaraq hərəkət edərdi. Amma büdcəsinin az qala 30 faizini yeni silahların alınmasına, silahlanmaya sərf edən Ermənistan yenə də Azər-

baycanla sülh münasibətlərində səmimi olmadığını ortaya qoyur. Şübhəsiz ki, Azərbaycan buna hazır olmalıdır.

Digər sahələr üzrə də obyektiv hesablamaların aparılmasını mən təqdir edirəm. Bu layihəyə səs verəcəyəm. Eyni zamanda, diqqətimi cəlb edən ayrı-ayrı sahələr üzrə büdcəyə daxilolmalara dair proqnozların verilməsi oldu. Mən bu sahə üzrə böyük mütəxəssis deyiləm, amma verilən rəqəmlər, müqayisələr inandırıcı görünür.

Eyni zamanda, hesab edirəm, 2 sahə var ki, Azərbaycana vəsait cəlb edilməsinə böyük bir kömək olardı – təhsil və səhiyyə sahəsi. Təəssüf edirəm ki, Azərbaycan universitetlərində xarici tələbələrin sayı istədiyimiz qədər deyil. Düzdür, artıq ildən-ilə reytinq siyahılarında Azərbaycan universitetlərinin sayı artır. Artıq birinci min universitetin içərisində 4-5 universitetimiz var və bunların sayı artmaqda davam edir. Hesab edirəm ki, universitetlərimizə xaricdən tələbə cəlb edilməsinə dair bir dövlət proqramımız olmalıdır. Xaricdən tələbə cəlb edilməsi auditoriyada, sadəcə olaraq, daha çox tələbənin yerləşdirilməsi deyil. Bunun yataqxana, viza məsələsi, nəqliyyat xərcləri və sairin həll edilməsi deməkdir. Bu istiqamətdə həm xarici təcrübəni, həm də öz təcrübəmizi işləyərək gələcəkdə Azərbaycanda artıq on minlərcə xarici tələbənin təhsil alması üçün şərait yarada bilərik.

İkinci isə səhiyyə sahəsidir. Vaxtı ilə Azərbaycandan çox sayda vətəndaşlarımızın xarici ölkələrə müalicə almaq üçün getdiyinin şahidi olurduq. Bu tendensiya artıq azalıb. Bu, ilk növbədə Azərbaycanda həm dövlət, həm də özəl xəstəxanaların, klinikaların açılması və günün tələblərinə cavab verən avadanlıqlarla, təcrübəli həkimlərlə təchiz edilməsi ilə bağlıdır. Hesab edirəm ki, bizim klinikaların

xaricdə təbliğində, pasiyentlərin cəlb edilməsində böyük iş aparılmalıdır. Təhsil sahəsində olduğu kimi, pasiyentlərin cəlb edilməsi istiqamətində ortaya çıxa biləcək problemlərin həlli üçün ciddi bir sənədin hazırlanmasına böyük ehtiyac var.

Sonda isə seçildiyim Mingəçevir şəhəri ilə bağlı bir məsələni qaldırmaq istəyirəm. Məsələlərdən birini, Mingəçevir Universiteti ilə bağlı məsələni mənimlə həmkar olan hörmətli Əli müəllim Hüseynli qaldırdı. Onun verdiyi təklifi, yəni Mingəçevir Universiteti üçün yeni kampusun tikilməsinə ayrılan vəsaitin artırılmasını mən də dəstəkləyirəm. Əli müəllimə birgə çıxışımıza görə təşəkkür edirəm.

Mənim qaldırmaq istədiyim iki məsələdir. Bunlardan birincisi Mingəçevirdə iş yerlərinin yaradılması məsələsidir. İqtisadiyyat Nazirliyi bu məsələyə diqqət edir və nazirliyin diqqəti sayəsində Mingəçevirdə müasir bir toxuculuq kombinatı açıldı. Eyni zamanda, yeni müəssisələrin açılması da nəzərdə tutulur. Hesab edirəm ki, bu, bir addımdır. Eyni zamanda, regionlarda, harada müəyyən qədər işsizlik var, harada vaxtı ilə sənaye müəssisələri fəaliyyət göstərib, orada sahibkarlar üçün vergi yükünün azaldılması, kommunal xərclərin mümkün qədər aşağı salınması variantından da istifadə etməklə biz regionlara investisiyaların axmasına kömək edə bilərik.

İkinci məsələni mən keçən il də qaldırmışdım. Hörmətli Əli müəllim o məsələyə cavab vermişdi, amma o məsələni yenə də qaldırıram. Seçki dövründə məndən bu məsələni qaldırmağı dəfələrlə xahiş etdilər. Mingəçevirdə vaxtı ilə 40-a qədər sənaye müəssisəsi fəaliyyət göstərib. 12-yə qədər keçmiş ailə yataqxanası var. Müəssisələr yoxdur,

amma yataqxanalar var. Bu gün bir otaqda bəzən 2 ailə yaşayır. 12 kvadratmetr yerdə 5-6 nəfər yaşamağa məcburdur. Ona görə də mən təklif edirəm ki, bu yataqxanalar tədricən sökülərək, yerində sosial evlər tikilərək orada yaşayan minlərcə ailənin köçürülməsi məsələsinə baxılsın. Çox yox, ilkin mərhələdə təqribən 100 milyon vəsait tələb olunur. Nəzərə alsaq ki, 20 illik ipoteka verilərsə, cəmi 1 ildən sonra 5 milyonu geri qayıdacaq. Düzdür, bu, birdənbirə həll olunan məsələ deyil. Digər vacib məsələlərimiz də var. Amma Mingəçevir üçün bu, çox aktual məsələdir. Hökumətdən bu məsələyə dair xüsusi bir proqram qəbul edilməsini xahiş edirəm. Büdcə layihəsini bəyənirəm və ona səs verəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli Baş nazir, deputatlar və hökumət üzvləri. Mən uğurlu COP29 tədbirinin keçirilməsi ilə bağlı cənab Prezidenti, hökumət üzvlərini, Azərbaycan xalqını və hakimiyyət təmsilçilərini ürəkdən təbrik edirəm. Büdcənin hazırlanması üçün də çəkdiyiniz zəhmətə görə sizlərə təşəkkür edirəm. Bəzi fərqli fikirlərimi nəzərinizə çatdırmaq istəyirəm.

İstərdim ki, təqdimatlarda, heç olmasa, az da olsa, çatışmazlıqlar, problemlər, çağırışlar, süni və təbii maneələr haqqında da nələrsə deyilsin. Ola bilməz ki, hər şey 100 faiz yaxşı olsun. Heç Norveçdə, Yaponiyada, Sinqapurda belə hər şey ideal deyil. Biz öz fəaliyyətimizə belə tənqidi rakursdan yanaşmasaq, inkişaf olmaz, boşluqları demək lazımdır. Ciddi müzakirələr, fərqli fikirlər bir-birini antaqonist mövqeyə çəkməlidir ki, doğrular bilinsin. Məqsədim tənqid yox, plüralizmə, fikir çoxluğuna və tənqidi

yanaşmaya söykənən mülahizələrdir. İnkişaf üçün tənqidi yanaşma da olmalıdır və biz bunu birinci növbədə təqdimatlardan eşitməliyik.

Hesablama Palatasının yanaşmasında doğru məqamlar var və onların qeyd etdikləri nöqsanlar gərək aradan qaldırılsın. Amma sual olunur ki, onlar ildən-ilə niyə təkrarlanır?

Büdcədən xeyli vəsait ayrılır, amma uzunmüddətli səmərə effektini zəif görürəm. Vəsaitlər ciddi nəzarət altında xərclənməlidir. Büdcə vəsaitləri şişirdilmiş rəqəmlərlə də xərclənir. Bu barədə çox uzağa getmirəm, elə internet axtarış şəbəkələrində "büdcə yoxlaması", "şişirdilmiş büdcə vəsaiti", "yeyinti" və sair yazıb "ok" düyməsini basmaq bəs edir ki, bəzən aldığın informasiyanı həzm etmək üçün "festal" atasan. Mən demirəm ki, hər şey pisdir, amma narahatedici məqamlar var və nəzarət sisteminin güclənməsini istərdim.

Səmərəliliyin əldə olunması üçün hazırda mövcud qanunlarda edilməli olan dəyişikliklərə də ehtiyac var və gərək bunlar edilsin. Səbəb nə olur-olsun, gecikdirmək olmaz. Hesablama Palatasının sədri o məqamları çox gözəl bilir və qeyd edib. Mənim üçün ən vacib məsələ büdcənin səmərəli xərclənməsi və uzunmüddətli inkişafa nail olunmasıdır. Hamımız çalışmalıyıq ki, büdcə vəsaitinin xərcləndiyi hər bir manat özü ilə inkişaf gətirsin, dəyər yaratsın.

Xarici və daxili sərmayələrin cəlb olunması üçün aşkarlığın, şəffaflığın və qaydaların sadələşdirilməsi vacibdir. Hazırkı biznes mühiti çox da şəffaf və aydın deyil. Məhz elə bu səbəbdən ciddi sərmayələr daxil olmur. Əmlakın qorunması, toxunulmazlığı vacibdir. O layihələr tez reallaşır ki, onlar birbaşa cənab Prezidentin nəzarətindədir.

Ölkədə minlərcə iş görülür və bunların hamısına cənab Prezidentin birbaşa özünün nəzarət etməsi də mümkün deyil.

Şirkət yaratmaq asandır, bir gün tələb olunur. Bəs real olaraq, Azərbaycan reallığından çıxış edərək real işə başlamaq üçün nə qədər zaman tələb olunur?

Vergi qanunvericiliyi tam olaraq sadələşdirilməli və hər kəsin başa düşəcəyi formaya salınmalıdır. Torpaqların təyinatının tələb olunan qaydalar əsasında dəyişdirilməsi üçün iştirakçısı olduğum bir məclisdə bildim ki, bu, az qala mümkün deyil. Belə bir halda yeni iş yerlərinin açılması ilə bağlı münbit şərait var deyə də bilmirik.

Mənim bir seçicim, biri də yaxından tanıdığım bir adam var. Onların hər ikisi xarici sərmayə cəlb edib. Amma ciddi problemlərlə üzləşirlər və bunlar aylarla, illərlə davam edir. Bunları müzakirə etmək və nəzərinizə çatdırmaq istərdim ki, görüm, səbəb nədir. Bəlkə mən nəyisə düzgün anlaya bilmədim. Gecikdirmələr və süründürməçilik bəzən daha çox şəxslərə və ayrı-ayrı qurumlara aid olur.

Mən cənab Baş nazirdən bir xahiş etmək istəyirəm. Bu gün kənd yerlərinin inkişafı urbanizasiyanın qarşısının alınmasının ən asan yoludur. Amma kəndlərimizdə vəziyyət yaxşı deyil. Hər kəs kəndləri tərk edib şəhərə axışır. Qarabağda normal kəndlər salınır. Biz Azərbaycanın hər yerində kəndləri inkişaf etdirməliyik. Bunun üçün də kəndlərin inkişafı ilə bağlı xüsusi dövlət proqramının qəbul olunmasına ehtiyac duyuram. Buna görə də cənab Baş nazirdən xahiş edərdim ki, məhz elə bu ilin büdcəsində Azərbaycanda bir neçə rayonda 20–25 kəndin abadlaşdırılması, formaya salınması ilə bağlı pilot layi-

hələr həyata keçirilsin. Buraya kənd ərazisində biznes və istehsal sahələrinin asanlaşdırılması, aydınlaşdırılması, bacarıqlı kənd adamlarına təlimlərin, biznes kursunun keçirilməsi daxil ola bilər. Yəni pilot layihədə kəndlərin elə bir vəziyyətə salınması ki, insanlar orada iş yeri tapsınlar, özünün əyləncəsi, normal yaşayışı üçün şərait, infrastruktur qura bilsinlər. Təbii ki, bütün bunlar üçün bələdiyyələrlə də bağlı müəyyən işlər görülməlidir. Mən bu təklifimi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında səsləndirmişəm və hörmətli maliyyə naziri də bununla bağlı qeydini götürmüşdür. Ümid edirəm ki, bununla bağlı müəyyən işlər aparılar.

Digər bir məsələ, mən sənədləşmə ilə bağlı demək istəyirəm. Hazırda mövcud qanunvericiliyə görə sənəd olmadan heç kim evinə qaz, su, işıq çəkə bilmir. Məhdudlaşdırıcı qanunun qəbulundan sonra tikilən evləri demirəm, 50–60 il bundan öncə tikilən evlər də infrastruktur layihələrdən yararlana bilmir. Məsələn, İmişlinin elə kəndləri var, sağ olsunlar, qaz çəkilib, amma insanlar evlərinə qazı çəkə bilmirlər. Amma evini 50–60 il bundan qabaq tikib. Onun üçün də sadələşdirilmiş bir mexanizmə ehtiyac var. Nazirlər Kabineti səviyyəsində qərar verilsin ki, onlar icra hakimiyyətinin arayışı ilə evlərinə qaz xətti çəkə bilərlər. Amma, ümumiyyətlə isə, sənədləşmə ilə də bağlı müəyyən sadələşdirməyə ehtiyac var.

Mən cənab Baş nazirdən əlavə xahiş etmək istəyirəm. Deputat olduğum son illərin hər birində bu məsələni qaldırmışam ki, İmişlidə kanalizasiya çox ciddi problemdir, minanın üstündə yaşayan insanlar var. Doğrudan da, elə bir ağır vəziyyətdir ki, artıq heç yana tərpənmək mümkün deyil. O baxımdan İmişli şəhərinin kanalizasiya xəttinin

çəkilməsi ilə bağlı xahiş etmək istəyirəm.

Sonda müraciətim əsasında İmişlidə peşə məktəbi artıq təmir edilib, tikilib. Buna görə də mən həm Elm və Təhsil Nazirliyinə, həm də Peşə Təhsili üzrə Dövlət Agentliyinə və hökumətə dərindən təşəkkürümü bildirmək istəyirəm. Çünki bu, İmişli üçün çox gözəl bir layihə idi və həyata keçirilir. Buna görə də sizə təşəkkürümü bildirmək istərdim. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Razi müəllim. Siz çıxışınızın əvvəlində dediniz ki, mütləq plüralizm lazımdır. Bəli, mən Sizinlə tamamilə razıyam. Ancaq onu da qeyd etməliyəm ki, bu Məclisdə plüralizm üçün bütün şərait yaradılıb və Siz də ondan yararlanırsınız. Elə bu gün də çıxış edirsiniz. Çox sağ olun.

Sadiq Qurbanov. Buyurun.

**Sadiq Qurbanov.** Çox sağ olun. Dəyərli Sahibə xanım, hörmətli deputat həmkarlarım və hökumət üzvləri. Əvvəla, COP29-un uğurla keçirilməsi münasibəti ilə həm dövlət başçısını, həm Azərbaycan xalqını, həm də hökumət üzvlərini səmimi qəlbdən təbrik edirəm. Azərbaycanın uğurları siyahısına bir uğur da daxil oldu.

Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi zərfi haqqında fikirlərimi profil komitə olaraq iki istiqamətdə bildirmək istərdim.

Azərbaycan Respublikasının son 20 illik inkişaf tarixi bariz şəkildə göstərir ki, Ümummilli Lider Heydər Əliyevin məntiqindəki “müstəqillik–iqtisadiyyat” dialektikası öz dərinliyi, yeniliyi və konkretliyi ilə həmişə aktualdır. Güclü iqtisadiyyat müstəqilliyin mühüm şərtidir. Azərbaycanın uğurunun ən ümdə şərtlərindən biri də məhz uğurlu siyasi varis Prezident İlham Əliyevin müstəqil-

liyimizin təminatı olan iqtisadi potensialımızı yeni inkişaf mərhələsinə qaldırmasıdır.

İqlim dəyişmələrinin qarşısının alınması sahəsində Azərbaycanın həyata keçirdiyi, beynəlxalq ictimaiyyətin yüksək qiymətləndirdiyi COP29 və onun nəticələrinin Azərbaycanın siyasətində, Azərbaycanın həyatında mühüm rol oynaması, eyni zamanda, dünya tərəfindən Azərbaycanın güclü dövlət kimi qəbul olunması da güclü iqtisadiyyatımızın göstəricisi kimi dəyərləndirilməlidir.

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa iştirakı və rəhbərliyi ilə işğaldan azad edilmiş torpaqlarda sürətlə geniş bərpa-quruculuq işləri həyata keçirilir. Bu barədə cənab maliyyə nazirimiz Samir müəllim aydınlıq gətirdi və o mövzuya xüsusi diqqət ayırmaq istəmirəm.

2020-ci ildən başlayaraq 2024-cü il də daxil olmaqla dövlət büdcəsindən bərpa-quruculuq məqsədləri üçün 17,5 milyard manata yaxın vəsait ayrılmışdır. Bu il, yəni 2025-ci ildə 4 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bu da çox sevindirici haldır və Böyük Qayıdış çərçivəsində məcburi köçkünlərin həmin ərazilərə köçürülməsi prosesinin davamlı şəkildə həyata keçirilməsinə xidmət edəcəkdir.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ölkəmizdə artıq ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, bioloji zənginliyin qorunması və inkişafı, tullantıların idarə olunmasının təkmilləşdirilməsi, su ehtiyatlarından və həmçinin

dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin gerçəkləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsinə başlanılıb.

Dövlət büdcəsində ekologiya və ətraf mühitin mühafizəsi sahəsinə ayrılan vəsaitlərin ilbəil artması da sosial-iqtisadi inkişafla bərabər, dövlətin bu sahəyə xüsusi əhəmiyyət verdiyini bir daha təsdiq edir. Müqayisə üçün deyək ki, 2018-ci ilin dövlət büdcəsində bu sahəyə cəmi 178,3 milyon manat ayrılmışdısa, 2024-cü ildə bu rəqəm 376,9 milyon manat olmuşdur. Yəni 2,1 dəfə çox vəsait ayrılmışdır. Xüsusi ilə qeyd edək ki, 2025-ci ildə iqlim dəyişikliyi ilə mübarizəyə ayrılmış büdcə vəsaitləri də daxil olmaqla, "yaşıl büdcə" xərclərində 16 faiz artım nəzərdə tutulur.

Cənab Baş nazir, burada Sizə xüsusi ilə bir rəqəmi çatdırmaq istəyirəm ki, 2025-ci ilin ilkin büdcə layihəsində ətraf mühitin mühafizəsi bölməsi üzrə bir sıra digər mərkəzi və yerli icra hakimiyyəti orqanlarına 374,9 milyon manat vəsait nəzərdə tutulur. Yəni bu, çox böyük rəqəmdir, amma böyük şəhərlərimizdə ağacların suvarılması kimi böyük bir problem var. Bu məqamda onu da nəzərə çatdırmaq istəyirəm ki, bu vəsaitdən həmin suvarılmanın təşkilində də istifadə olunmasının təşkilini Sizdən xahiş edirəm.

2025-ci ildə, dediyim kimi, "yaşıl büdcə" xərcləri 16 faiz artmışdır. Xüsusi ilə qeyd etmək istərdim ki, ekoloji, sosial və iqtisadi faktorlar arasında düzgün balansın qorunması iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsində əhəmiyyətli rol oynayır. Dayanıqlı inkişafın təmin edilməsində əsas faktorlardan biri də enerji keçidinin idarə edilməsidir ki, bu sahədə ehtiyatların optimal şəkildə

təşkili sahəsində Azərbaycan Respublikası dünya lideridir. Dövlət idarəçiliyində qazanılan hər hansı uğur yalnız əldə edilən nəticə ilə deyil, eyni zamanda, həmin nəticənin hansı xərclər hesabına əldə edilməsi ilə də ölçülür. Bu, həmçinin idarəetmənin nə dərəcədə elmi, texnoloji baxımdan mükəmməl olduğunu göstərən bir amildir. Bu sahədə sadə bir qayda var – məhdud vəsaitin istifadəsi ilə yüksək nəticə qazanmaq. Bu, daha mükəmməl idarəetmə texnologiyalarının istifadəsindən xəbər verir.

Bu gün dünya ölkələri arasında enerji keçidi indeksinin formalaşması üçün maddi resursları ən optimal idarə edən də elə Azərbaycan Respublikasıdır. Qlobal iqlim dəyişmələri kimi çağırışa cavab olaraq enerji transformasiyası üçün vəsaitləri ən səmərəli istifadə edən də, qeyd etdiyimiz kimi, Azərbaycan Respublikasıdır. Azərbaycanın enerji keçidi indeksinin hər vahidinə sərf etdiyi maliyyə resursları ölkəmizə ən yaxın olan Çilidən 29 faiz azdır. Bu sahədə dünya birincisi olan İsveç enerji keçidi indeksinin hər vahidinin formalaşmasına Azərbaycandan iki dəfə çox vəsait sərf edir. Azərbaycanda davamlı inkişaf naminə enerji keçidinin yüksək olması ilk növbədə Prezident İlham Əliyevin apardığı tam yeni dövlət idarəçilik texnologiyaları kompleksinin tətbiqinin nəticəsidir.

2025-ci ilin dövlət büdcəsi cənab Prezident İlham Əliyev siyasətinin həm də iqtisadi təntənəsidir və bütün sahələrin inkişafına xidmət edir. İnanıram ki, bu büdcə Azərbaycan xalqının yeni strateji hədəflərə çatması istiqamətində mühüm mərhələ olacaqdır.

Cənab Baş nazir Əli müəllimə və komandasına büdcə layihəsinin hazırlanmasına görə dərin təşəkkürümü bildirirəm. Hesablama Palatasının sədri Vüqar müəllimə

isə təklif əsaslı rəyə görə xüsusi təşəkkürümü çatdırıram. Layihəyə səs verəcəyəm və vaxta görə...

**Sədrlik edən.** Sağ olun. İndi bir adam da çıxış edə bilər. Naqif Həmzəyev. Buyurun.

**Naqif Həmzəyev.** Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli millət vəkilləri, hökumət üzvləri, media nümayəndələri. Xanım sədr, şəxsən Sizin və deputat həmkarlarımın qanun layihəsi ilə bağlı səsləndirdikləri müsbət yanaşmalara qoşuluram, qanun layihəsini bəyənirəm və dəstəkləyəcəyəm. Vaxta qənaət etmək üçün fikirlərimi və təkliflərimi cənab Baş nazirin və hökumət üzvlərinin nəzərinə çatdırmaq istəyirəm.

Bilirsiniz ki, artıq 3 aydır internet sürətinin qiyməti və istifadəsi haqqında yeni qaydalar tətbiq olunur. Bu addımın nə ilə əlaqədar atıldığını və nə üçün olduğunu biz bilirik və dəstəkləyirik. Ancaq vətəndaşları narahat edən məsələ ondan ibarətdir ki, ödənilən məbləğlə göstərilən xidmət arasında fərq var və bu o qədər də ürəkaçan deyil. Xüsusi ilə də regionlarımızda bu fərq daha çox hiss olunur. Bu baxımdan da provayderlərin texniki imkanlarının artırılması ilə bu problemi həll etmək olar. Xahiş edirəm, bu məsələnin həllinə dəstəyinizi əsirgəməyəsiniz.

Gənclər və İdman Nazirliyi tərəfindən radiolarımızda çox maraqlı sosial çarxlar səsləndirilir. Bunu alqışlayıram. Amma gəncləri idmanla məşğul olmağa dəvət etməklə iş bitmir. Gəncə şəhərində müasir idman zallarının sayı barmaq sayını keçmir, aktiv üzgüçülük zallarının sayı isə cəmi birdir. Hökumət üzvlərinin, eyni zamanda, idman federasiyalarının rəhbərləri olmalarını nəzərə alaraq, xahiş edirəm ki, regionlarda, xüsusi ilə də Gəncə şəhərində idman zallarının və idman tədbirlərinin sayının artırıl-

masına köməkliklərini göstərsinlər və əsirgəməsinlər. Büdcədə də bu, nəzərdə tutulsa, çox sevinərəm.

Ölkə üzrə, çox təəssüflər olsun ki, körpələr evlərinin, uşaq bağçalarının sayı o qədər də çox deyil. Bütün uşaqların uşaq bağçalarına getmələri mümkün olmur. Gəncə şəhərində cəmi 44 körpələr evi-uşaq bağçası var və 45 tam orta məktəb fəaliyyət göstərir. Növbəti illərdə Gəncə şəhərində bir məktəb və ya uşaq bağçasının da tikilməsi çox yaxşı olardı və buna biz çox sevinərdik.

Həmçinin təklif edirəm ki, məktəbəqədər hazırlıq siniflərində təhsil alan uşaqların, eyni zamanda, qida ilə, yəni yeməklə də təmin edilməsi nəzərdən keçirilsin. Əgər bu, pilot layihə olaraq Gəncə şəhərində tətbiq edilərsə, buna çox sevinərik.

Universitetlərimizin maddi-texniki bazası gücləndirilir, təhsilin səviyyəsi artır. Bu bizi sevindirir. Lakin tələbələrin yataqxana problemləri hələ də həll olunmayıbdır. Bu, valideynlər üçün əlçatmaz bir problemdir. Gəncə şəhərinin girişində, bilirsiniz ki, keçmiş məcburi köçkünlər üçün tikilmiş böyük bir şəhərcik var idi. Hazırda torpaqlarımız işğaldan azad olunubdur və keçmiş məcburi köçkünlər öz ata-baba torpaqlarına qaytarıldıqdan sonra bu şəhərcik tələbə yataqxanasına çevriləcəyi təqdirdə, düşünürəm ki, bizim tələbələrin, xüsusi ilə də Gəncə tələbələrinin problemləri həll oluna bilər. Cənab Baş nazirdən xahiş edirəm ki, bu təklifin araşdırılmasına dair göstəriş verilsin. İnanıram ki, bu, müsbət həllini tapsa, biz çox böyük bir problemi həll etmiş olacağıq.

Eyni zamanda, Gəncə şəhərində Balabağman, Böyük Bağman və Toxanlı adlanan ərazilərdə yağış yağan kimi su ilə bağlı çox ciddi problem yaşanır. Çünki su, demək

olar ki, palçıq və yaxud bulanıq olur. Mən özüm də şəxsən bunun şahidi olmuşam. Çox xahiş edirəm, su anbarlarında filtrlərin dəyişdirilməsi ilə bağlı vəsait builki, yəni növbəti ildəki büdcədə nəzərdə tutulsa, çox yaxşı olar və bu problem öz həllini tapsa, çox sevinərik.

Vaxtın azlığını nəzərə alaraq, digər təkliflərimi yazılı olaraq təqdim edəcəyəm. Diqqətinizə görə təşəkkür edirəm. Qanun layihəsini dəstəkləyirəm və deputat həmkarlarımı da səs verməyə dəvət edirəm. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Əslində, vaxtınız var idi. Mən sizə dedim, bir adam çıxış edə bilər. Özünüz çıxışınızı kəsdiniz. Ancaq xahiş edirəm, çıxışınızın qalan hissəsini yazılı surətdə verin.

Hörmətli həmkarlar, bu gün iclasımız başa çatdı. Sabah işimizi davam etdirəcəyik. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

## <u>*25 noyabr 2024-cü il*</u>

**Afət Həsənova.** Əvvəlcə onu deyim ki, Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi hər zamankı kimi yüksək keyfiyyət parametrlərinə cavab verdiyindən, həmçinin ölkənin təhlükəsizliyini, sosial-iqtisadi inkişafını, əhalinin rifah halının yaxşılaşdırılmasını, eləcə də işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması işlərini özündə yüksək səviyyədə ehtiva etdiyindən bu layihəni dəstəkləyir, həmkarlarımı da lehinə səs verməyə çağırıram.

Bununla yanaşı, fürsətdən istifadə edərək, müvafiq mərkəzi icra hakimiyyəti orqanları tərəfindən büdcədə nəzərə alınması məqsədi ilə təmsil etdiyim 32 saylı Suraxanı 3-cü seçki dairəsinin ərazisində təhsil sahəsindəki m problemi səsləndirməyi özümə borc bilirəm.

Belə ki, 30000-dən çox (qeyri-rəsmi 60000) əhalisi olan qədim Əmircan qəsəbəsində, ümumilikdə, 6 tam orta məktəb, 6 uşaq bağçası fəaliyyət göstərir. Təbii artım və urbanizasiya prosesi səbəbindən həmin təhsil müəssisələri yaşayış hissəsi cənuba tərəf genişlənmiş qəsəbənin şimal hissəsində qalmışdır. Eyni zamanda, qonşuluqdakı Qaraçuxur qəsəbəsi də həmin səbəblərdən şərqə doğru genişlənmişdir ki, bu ərazilərdə də hazırda 20000-dən çox əhali yaşayır.

Elə bu səbəbdən də "Şərq" yaşayış sahəsi adlandırılan həmin ərazidə 2007-ci ildə Azərbaycan Respublikası və

Səudiyyə İnkişaf Fondunun vəsaiti hesabına 1296 yerlik orta ümumtəhsil məktəbi inşa edilmişdir. Lakin 2000-ə yaxın şagirdin təhsil aldığı həmin 318 saylı məktəb tələbatı tam ödəyə bilmir.

Hazırda Əmircan qəsəbəsinin cənubu və Qaraçuxurun bu hissə ilə birləşmiş şərq hissəsində, ümumilikdə, təxminən 38000 əhalinin yaşamasına baxmayaraq, bu ərazidə nə məktəb, nə də məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Bu səbəbdən uşaqlar, demək olar ki, marşrut xəttinin də olmadığı həmin ərazidə məhəllədaxili yollarla, xüsusən də qış aylarında çətinliklə uzun məsafə qət edərək 114 və 318 saylı məktəblərə və ya digər uzaq təhsil müəssisələrinə üz tutmalı olurlar. Analoji hal məktəbəqədər təhsil müəssisələri üçün də keçərlidir.

Məlumat üçün qeyd edim ki, 114 saylı tam orta məktəbdə şagird sıxlığı səbəbindən 2006-cı ildə 300, 2010-cu ildə 800 yerlik əlavə korpuslar inşa edilərək şagird yeri 1800-ə çatdırılsa da, tələbat yenə də tam qarşılanmamışdır.

Vəziyyət təhlil edilərək 2010-cu illərdə BŞİH başçısının müvafiq sərəncamı ilə həmin ərazidə yeni məktəb binasının tikintisi üçün torpaq sahəsi ayrılmış, lakin müəyyən səbəblərdən tikinti işlərinə başlanılmamışdır.

Apardığım təhlilə görə yeni məktəb və məktəbəqədər təhsil müəssisəsi binasının tikintisini məqsədəmüvafiq hesab etdiyim ərazidə əhalinin təxminən 5000-ə (12 faiz) yaxınını məktəbli, 2500-ə (6,3 faiz) yaxınını isə 6 yaşına qədər uşaqlar təşkil edir.

Qeyd edilənlərə və keçirdiyim qəbullarda sakinlərin məsələ ilə bağlı çoxsaylı müraciətlərinə əsaslanaraq, düşünürəm ki, irəli sürdüyüm təklifin reallaşması təhsilin sə-

mərəli təşkilinə, təlim-tərbiyə işinin keyfiyyətinin yüksəldilməsinə və vətəndaş məmnunluğunun artmasına öz töhfəsini verə bilər.

**Anar Məmmədov.** Büdcə zərfinin hazırlanması zamanı Maliyyə Nazirliyinin böyük əməyini yüksək qiymətləndirirəm. Sözsüz ki, bizim builki büdcənin hansı qəhrəmanlıqla, hansı böyük məharətlə hazırlandığı hər kəsə məlumdur. Dünyada gedən geopolitik proseslər, maliyyə böhranına baxmayaraq, bu büdcə keçənilki kimi də Qarabağın dirçəlişinə və sosial rifaha xidmət edən, hədəflənən bir büdcədir.

2025-ci ilin dövlət büdcəsinin əsas əlamətlərindən biri onun iqtisadi strategiyanın müddəalarını nəzərə almasıdır. Burada yalnız iqtisadi strategiyamız deyil, həm də milli inkişaf prioritetlərində nəzərdə tutulan müddəalar da əks olunub.

Cənab Prezidentin siyasətinin əsasında Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının sosial rifahının yüksəldilməsi, sosial layihələrin həyata keçirilməsi, xüsusi ilə həssas təbəqənin problemlərinin həlli istiqamətində büdcənin imkanları daxilində kifayət qədər vəsait nəzərdə tutulub. Belə ki, dövlətin ardıcıl olaraq həyata keçirdiyi uğurlu siyasət nəticəsində, bir tərəfdən, ölkənin dayanıqlı və davamlı inkişafı təmin edilməkdə, digər tərəfdən isə, dövlətin və əhalinin ahəngdar həyat fəaliyyətinin neft sektorundan asılılığı aradan qaldırılmaqdadır. İnamla demək olar ki, əhalinin sosial müdafiəsi, dövlət qurumlarının və biznesin normal fəaliyyəti üçün qeyri-neft sektorunu aparıcı amilə çevirmək strategiyası uğurla həyata keçirilir. Həyat göstərdi ki, Prezident İlham Əliyevin genişmiqyaslı islahatların həyata keçirilməsini

təmin edən siyasi iradəsi, düşünülmüş yeni iqtisadi inkişaf modeli və innovativ çevik idarəetmə sistemi qarşıya qoyulan hədəflərə çatmağı təmin etmişdir.

Hesab edirik ki, qarşıdakı illərdə də neft sektorundan daxilolmalar yalnız genişmiqyaslı investisiya layihələrinə, kiçik və orta biznesin inkişafına yönəldilərək qeyri-neft sektorunun gəlirlərinin ümumi daxili məhsulda payının böyüməsini təmin edəcəkdir.

Biz büdcəmizi çox məqbul hesab edirik və mən indidən deyim ki, büdcəmizi bütün parametr və keyfiyyətləri ilə, eləcə də Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Hesablama Palatası tərəfindən bizə təqdim olunan layihələri çox dəyərləndirirəm. Bunları təkcə bir məlumat toplusu kimi deyil, mükəmməl təhlillər kimi dəyərləndirmək olar. Müzakirə olunan büdcənin lehinə səs verəcəyəm, hörmətli həmkarlarımı da layihəyə səs verməyə dəvət edirəm.

**Azay Quliyev.** İlk növbədə, dünyanın ən mötəbər beynəlxalq konfransı olan COP29-a uğurla ev sahibliyi etdiyinə və bu çərçivədə əldə olunan tarixi qərarlara görə başda cənab Prezidentimiz olmaqla xalqımızı, son 11 ayda var gücü ilə çalışan təşkilat komitəsinin bütün üzvlərini və əziyyəti keçən hər kəsi ürəkdən təbrik etmək istəyirəm. COP29-da Azərbaycanın göstərdiyi müstəsna liderlik bacarığı onun beynəlxalq nüfuzunu elə bir zirvəyə yüksəltdi, ölkəmiz elə bir tarixi və qlobal nailiyyətə imza atdı ki, hələ uzun müddət bu haqda danışılacaq və bunun bəhrəsini görəcəyik.

Konseptual baxımdan 2025-ci ilin büdcə layihəsi haqqında qısa olaraq nə demək olar? Birinci, rahatlıqla deyə bilərik ki, büdcə zərfi bir çox çağırışları nəzərə almaqla, 2025-ci ildə ölkəmizin qarşısında duran milli vəzifələrin

və strateji hədəflərin maliyyə bazasını təmin etməyə imkan verir.

İkinci, keçən ilin ilkin təsdiq olunmuş məbləği ilə müqayisədə büdcənin gəlir və xərclərinin 12 faizdən çox artması ölkə iqtisadiyyatının və həyata keçirilən fiskal siyasətin nəticəyönümlülüyünü və dayanıqlığını göstərir.

Üçüncü, sənədin təhlili həm də onu deməyə əsas verir ki, hökumət gələn il büdcə gəlirlərində qeyri-neft-qaz sektorunun payını artırmaq və yaxınlaşan postneft dövrünün çətinliklərini yumşaltmaq məqsədi ilə gömrük və vergi islahatlarını davam etdirəcək, sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması və investorların strateji sahələrə yatırımlarının stimullaşdırılması ilə bağlı mühüm addımlar atacaq.

Dördüncü, ölkəmiz üçün strateji əhəmiyyət kəsb edən sahələr – müdafiə və təhlükəsizlik, Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, əhalinin sosial rifahı yenə də prioritet istiqamətlər kimi saxlanılır və büdcə xərclərinin 3-də 2-si bu istiqamətə yönəlir. Xüsusi ilə Ermənistanın sürətlə silahlandırılması fonunda müdafiə təyinatlı layihələrə və tədbirlərə 2024-cü illə müqayisədə 23,8 faiz daha çox vəsaitin ayrılmasını doğru və vacib hesab edirəm.

Beşinci, büdcə xərclərində diqqətçəkən məqamlar sırasında adambaşına düşən icbari tibbi sığorta haqqının 90 manatdan 124,1 manatadək, yəni 37,9 faiz artırılmasını, Azərbaycan–Türkiyə birgə universitetinə 10 milyon, Qarabağ Universitetinə 17 milyon manat vəsaitin ayrılmasını, büdcədən dotasiya almayan rayonların sayının ilk dəfə 62-yə çatdırılmasını, yəni 5 rayondan başqa bütün rayon və şəhərlərin maliyyə müstəqilliyinin təmin edilməsini müsbət hal kimi ayrıca qeyd etmək istərdim.

İndi isə qısa olaraq bəzi təkliflərimi səsləndirmək istərdim. Birinci təklifim bir sıra publik hüquqi şəxslərin əməkhaqqı fondu və maaşlarının məbləği arasında mövcud olan fərqin aradan qaldırılması ilə bağlıdır. Belə ki, eyni statusa malik elə publik hüquqi şəxslər var ki, 3–8 min manat arasında əməkhaqqı alırlar, elələri də var ki, bu məbləğ 2 min manatı keçmir. Məsələn, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində ən yüksək əməkhaqqı təxminən 1950 manatdır və 2019-cu ildən bəri bu təşkilatda maaş artımı olmayıb. QHT-lərə Dövlət Dəstəyi Agentliyi, Azərbaycan Diasporuna Dəstək Fondu və digər bu kimi publik hüquqi şəxslərdə də vəziyyət eynidir. Düşünürəm ki, aşağı əməkhaqqı olan publik hüquqi şəxslərin əməkhaqqı fondunun müvafiq qaydada artırılması məsələsini həll etməyə ehtiyac var.

İkinci təklifim dövlət hesabına həyata keçirilən hüquqi yardımın hər saatına görə vəkilə ödənilən 6 manat vəsaitin azlığı ilə bağlıdır. Etiraf etmək lazımdır ki, bu vəsait keyfiyyətli hüquqi yardım üçün olduqca azdır. Bu səbəbdən bir çox vəkillər dövlət hesabına hüquqi yardım göstərməkdə maraqlı olmurlar. Belə vəziyyət həm dövlət hesabına hüquqi yardımın əlçatan olmasına, həm də vəkillik institutunun inkişafına mənfi təsir edir. Düşünürəm ki, bu məsələnin həlli büdcəyə ciddi yük olmaz.

Seçicilərimin də iki xahişini diqqətinizə çatdırmaq istərdim. 7-ci mikrorayon Kunanbayev küçəsindəki 15-dən çox yaşayış binasının istismara yararsız vəziyyətdə olan su-kanalizasiya şəbəkəsinin yenidən qurulması məqsədi ilə tələb olunan vəsaitin indiyədək ayrılmaması sakinləri ciddi narahat edir və bu barədə mənə davamlı müraciətlər daxil olur. Hökumətdən xahiş edirəm, qeyd

olunan vəsaitin gələcək investisiya proqramlarına daxil edilməsini nəzərdən keçirsin.

Digər bir məsələ yenə də 7-ci mikrorayonda yerləşən 244 saylı tam orta məktəbdəki şagird sıxlığı ilə bağlıdır. Belə ki, 1700 nəfərlik şagird tutumu olan məktəbdə hazırda 3400 nəfər təhsil alır. Əlavə tədris binasının tikintisi üçün məktəbin kifayət qədər ərazisi vardır. Mən bilirəm ki, Elm və Təhsil Nazirliyi də bu problemin həllində maraqlıdır və ümid edirəm ki, 2026-cı ilin sosial-iqtisadi inkişaf strategiyasının tədbirlər planına bu məsələnin daxil edilməsi mümkün olacaq.

**Fatma Yıldırım.** Ölkəmiz möhtərəm cənab Prezidentimiz İlham Əliyevin müdrik rəhbərliyi ilə uğurla inkişaf edir. Tarixi Zəfərimizdən sonra Azərbaycanın həyatında yeni mərhələ başlayıb, ölkəmizin inkişafı daha böyük vüsət alıb, beynəlxalq müstəvidə rolu əhəmiyyətli dərəcədə güclənib. Bu günlərdə Azərbaycanın dünyanın ən böyük tədbirinə – COP29-a uğurla ev sahibliyi etməsi də bu reallığı təsdiqləyir.

Eyni zamanda, həyata keçirilən yeni regional layihələrin, beynəlxalq nəqliyyat dəhlizlərinin, Orta və Şimal-Cənub dəhlizlərinin əsas nöqtəsi Azərbaycan hesab olunur. Ölkəmiz Avropanın enerji təhlükəsizliyində öz rolunu artırır, etibarlı tərəfdaş kimi üzərinə düşən məsuliyyəti layiqincə yerinə yetirir. Hazırda dünyada gərginliklər davam edir, bir çox ölkələrin inkişafı zəifləyir, büdcələrində problem nəzərə çarpır. Dünyada baş verən bu mənfi hallara baxmayaraq, Azərbaycan inkişaf yolunda inamla irəli gedir.

2025-ci ilin dövlət büdcəsi olduqca tarixi bir sənəd də hesab oluna bilər. Yeni büdcə layihəsinin xərcləri 41 mil-

yard manat proqnozlaşdırılıb və bu, müstəqillik dövrümüzün ən böyük büdcə zərfidir.

Büdcəmizi Zəfər büdcəsi də adlandırmaq olar. Çünki büdcədə ən vacib hədəflərimizdən biri olan müdafiə məsələlərinə və azad edilmiş ərazilərimizin yenidən qurulmasına xüsusi yer verilib və hər iki sahəyə əhəmiyyətli dərəcədə vəsait ayrılması nəzərdə tutulub. Büdcədə ölkəmizin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin gücləndirilməsinə əlavə təminatın yaradılması Azərbaycan Ordusunun hərbi gücünü daha da möhkəmləndirəcək.

Eləcə də Böyük Qayıdışın sürətli icrası növbəti ildə büdcəmizin imkanları hesabına təmin ediləcək. Qarabağa və Şərqi Zəngəzura, öz doğma yurdlarına köçən insanların sayı bir qədər də artacaq. Digər tərəfdən, dövlətimizin başçısının xüsusi diqqətində olan ən mühüm məsələ vətəndaşlarımızın sosial rifahıdır. Gələn il büdcədə bununla bağlı böyük vəsait nəzərdə tutulub və 2025-ci ildə xalqımızın sosial rifahının daha da yüksəlməsi üçün əhəmiyyətli addımlar atılacaq.

Ötən illər ərzində regionların sosial-iqtisadi inkişafı istiqamətində də mühüm işlər görülüb. Dövlətimizin başçısının rəhbərliyi ilə bu inkişaf təmsil etdiyim Bərdə rayonunda da özünü göstərir. Deyə bilərəm ki, 99 saylı Bərdə seçki dairəsinə daxil olan Bərdə şəhərində və 57 kənddə yüksək müasir standartlara cavab verən internet şəbəkəsi qurulub. Bu işlərin həyata keçirilməsində göstərdiyi diqqətə, çevikliyə görə rəqəmsal inkişaf və nəqliyyat naziri cənab Rəşad Nəbiyevə öz adımdan və seçicilərim adından təşəkkür edirəm.

Lakin bununla belə, rayonda bir sıra sahələrdə həllini gözləyən problemlər də var ki, fürsətdən istifadə edərək,

onları hökumət üzvlərinin diqqətinə çatdırmaq istəyirəm.

Görülən işlərlə bərabər, təmsil etdiyim 99 saylı Bərdə seçki dairəsinə daxil olan bir sıra ərazilərdə içməli və suvarma suyu ilə bağlı problemlər hələ də yaşanmaqdadır. Belə ki, Bərdə rayonunun Alaçadırlı, İkinci Nazırlı, Mirzalıbəyli, Vəliuşağı, Həsənqaya, Güloğlular, Samux, Cicimli kəndlərinin içməli və suvarma su təminatının yaxşılaşdırılması seçicilərim tərəfindən ən çox müraciət edilən məsələlərdən biridir.

Parlament seçkiləri öncəsi seçicilərimlə görüşlər zamanı ən çox qaldırılan məsələlərdən biri elektrik enerjisi infrastrukturunun yenidən qurulması ilə bağlıdır. XXI əsrdə rayonumuzda bu problem çox ciddi şəkildə özünü göstərməkdədir. Vətəndaşlar transformatorların və elektrik dirəklərinin qəzalı vəziyyətdə olmasından, elektrik naqillərinin istismar vaxtının çoxdan bitdiyindən, eyni zamanda, üstüaçıq, qəzalı transformatorların əksər hissəsinin mühafizə səddinin olmadığından, hava şəraitindən asılı olmayaraq hər gün, demək olar ki, 1-2 saat elektrik kəsintisi baş verməsindən şikayətlənirlər. 99 saylı Bərdə seçki dairəsinə daxil olan 58 yaşayış məntəqəsindən cəmi 15 yaşayış məntəqəsində kabelləşmə aparılıb ki, bu da 25 faiz göstəricidir. Aidiyyəti qurumdan xahiş edirəm, növbəti ildə bu istiqamətdə işlərin sürətləndirilməsini təmin etsinlər.

Seçicilərim tərəfindən qaldırılan digər məsələ isə təhsil müəssisələrinin yenidən qurulması ilə əlaqədardır. Yeni Daşkənd, Saatlı, Yeni Əyricə kənd tam orta məktəblərinin yenidən qurulmasına ehtiyac var, qəzalı vəziyyətdədirlər. Bu məktəblərdə Elm və Təhsil Nazirliyi tərəfindən monitorinq aparılıb və qəzalı olması təsdiqlənib.

Seçicilərimlə görüşlərdə qaldırılan digər bir məsələ isə yol infrastrukturunun yaxşılaşdırılması ilə bağlıdır. Qeyd etmək istəyirəm ki, bu sahədə xeyli işlər görülmüşdür. Bununla yanaşı, bir sıra həllini gözləyən məsələlər də var. Bərdə şəhərinin bir sıra daxili küçələrinin, rayonun Qarabağ qəsəbəsinin, Həsənqaya, Cumalar, Hacıəhmədli, Türkmən, Qayalı, Çəmənli, Birinci Qazaxlar kəndlərinin sakinləri tərəfindən yol infrastrukturunun yaxşılaşdırılması ilə bağlı bizə müraciətlər daxil olmuşdur. Hökumətdən növbəti ilin büdcəsində seçicilərimin qaldırdıqları bu vacib problemlərin həllinin nəzərə alınmasını xahiş edirəm.

Ümumilikdə, hesab edirəm ki, ölkəmizdə həyata keçirilən uğurlu iqtisadi, maliyyə siyasəti dövlət büdcəsi xərclərinin maliyyə təminatına əsaslı imkanlar yaradır. Eyni zamanda, Hesablama Palatasının gələn ilin dövlət büdcəsi ilə bağlı rəyini və müvafiq təkliflərini də müsbət qiymətləndirirəm. 2025-ci ilin dövlət büdcəsinin mütərəqqi olduğunu qeyd etmək istəyirəm, sənədin hazırlanmasında əməyi keçən hər kəsə təşəkkür edirəm. Mən qanun layihəsinin lehinə səs verəcəm və həmkarlarımı da səs verməyə çağırıram.

**Nigar Məmmədova.** Öncə Azərbaycanın BMT-nin ən nüfuzlu tədbirinə – COP29 konfransına uğurla ev sahibliyi etdiyi üçün hər birimizi təbrik edirəm. Həqiqətən, bu genişmiqyaslı, demək olar, bütün dünyanın toplaşdığı platformanı uğurla başa vurmaq böyük uğurdur. Bu, həm dövlət, həm də cəmiyyət olaraq bizim uğurumuzdur.

COP29-da davam edən səmərəli və gərgin müzakirələr isə öz nəticəsini verdi. Belə ki, Bakı COP İtki və Zərər Fondunun 10 ilə yaxındır müzakirə olunan, karbon bazarına dair çoxdan gözlənilən Paris Sazişinin 6-cı maddəsi-

nin tam işlək vəziyyətə gətirilməsi ilə tarixə düşdü.

Təəssüf ki, biz istər COP29 ərəfəsində, istərsə də COP dövründə ölkəmizə qarşı qarayaxma kampaniyalarının da şahidi olduq. Ötən həftə Lüksemburq Deputatlar Palatası növbəti dəfə qərəzli və absurd mövqedən çıxış edərək bu çirkin kampaniyaya qoşuldu.

Belə ki, bu ölkənin qanunverici orqanının təmsilçiləri Qarabağda separatçı hərəkətlərə yol verən, Azərbaycan torpaqlarında terror aktlarına imza atan şəxslərin azad edilməsini tələb edən üzdəniraq bir "qətnamə" qəbul etdilər. Azərbaycan–Lüksemburq parlamentlərarası əlaqələr işçi qrupunun rəhbəri olaraq bu yanaşmadan, sadəcə, təəssüf hissi keçirirəm. Azərbaycan bütün beynəlxalq tərəfdaşlarla konstruktiv dialoqa sadiq olduğu halda, Lüksemburq Nümayəndələr Palatasının aqressiv ritorikası parlament dialoqu və diplomatiyası prinsipləri ilə ziddiyyət təşkil edir.

Təbii ki, bu sənədin heç bir hüquqi əsası yoxdur və bizim üçün yararsız kağız parçasından başqa bir şey deyil.

Azərbaycan Respublikası Milli Məclisi məsələyə dərhal etiraz etdi. Parlament haqlı olaraq bu qətnaməni qərəzli, qeyri-obyektiv və ədalətsiz bir akt kimi qiymətləndirdi, ölkəmizi hədəf alan əsassız iddia və ittihamları qətiyyətlə rədd etdi. Doğrudan da, Lüksemburq parlamentinin bu siyasi aksiyası həmin ölkənin parlamentinin siyasi avantüra meydanına çevrildiyini göstərir.

Məsələ burasındadır ki, lüksemburqlu təmsilçilər Cənubi Qafqaz regionuna qərəzli dairələrin mövqeyindən yanaşırlar. "Qətnamə"də erməni lobbisinin dəst-xəti kifayət qədər aydın sezilir. Belə ki, kağız parçasında Azərbaycan Xarici İşlər Nazirliyinin 2024-cü il 26 avqust

tarixli qərarı ilə AŞPA-nın 76 deputatını "arzuolunmaz şəxs" elan etməsinə qarşı bənd də salınıb. Söhbət Azərbaycanın sülh və sabitlik yaradılması səylərinə zidd hərəkətləri fəal surətdə dəstəkləyən, dövlətimizin ərazi bütövlüyünə və suverenliyinə aşkar hörmətsizlik nümayiş etdirən 76 deputatdan gedir.

Beynəlxalq münasibətlər sistemində xüsusi nüfuzu olmayan Lüksemburqun bu cür qərəzli yanaşmaları, təbii ki, rəsmi Bakının mövqeyinə təsir edə bilməz. Eyni zamanda, bu, Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycana beynəlxalq birliyin münasibətini dəyişə bilməz.

Erməni lobbisinin təsiri altına düşən lüksemburqlu parlamentarilər reallıq hissini itirərək BMT-nin ən nüfuzlu tədbirlərindən biri olan COP29-un keçirildiyi bir vaxtda bu cür qarayaxma kampaniyasına qoşulublar. Azərbaycanı heç bir əsas olmadan söz azadlığını pozmaqda ittiham edirlər. Amma nədənsə, COP29-un fəaliyyətini azad şəkildə işıqlandıran 4000-ə qədər yerli və beynəlxalq media təmsilçisini görməzdən gəlirlər. Eyni zamanda, 197 ölkənin vətəndaş cəmiyyətinin nümayəndələrinin məhz COP29 çərçivəsində müxtəlif mövzularda aparılan müzakirələrdə, habelə müvafiq aksiyalarda maneəsiz iştirakı söz azadlığının ən bariz göstəricisidir. Bu reallıqlar fonunda Azərbaycanı insan haqlarının pozulmasında ittiham etmək, sadəcə, riyakarlıqdır.

Məsələ burasındadır ki, Lüksemburqun Deputatlar Palatasının sədri də bu ilin mayında Ermənistana səfər edərək bu ölkənin parlamentində çıxışı zamanı Azərbaycanın ünvanına ittihamlar səsləndirmişdi. Azərbaycan parlamenti o vaxt da bu qərəzli və absurd fikirləri kəskin şəkildə qınayaraq qətiyyətlə etirazını bəyan etmişdi.

Görünən budur ki, Lüksemburq son 4 ildə bölgədə yaranan yeni reallıqları hələ dərk edə bilməyib. Təbii ki, bu reallıqlar beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunub. Bizim üçün əsas olan budur. Azərbaycan öz gücü hesabına bütün beynəlxalq hüquq norma və prinsiplərinə uyğun formada ərazi bütövlüyünü və suverenliyini bərpa edib. Məhz bunun hesabına Cənubi Qafqazda, nəhayət ki, dayanıqlı sülh və təhlükəsizlik imkanları yaranıb. Yaranmış vəziyyət bütün tərəflərin marağına cavab verir. Bu reallığı qəbul etmək istəməyənlər yalnız regionda yeni eskalasiya, gərginlik yaratmaq istəyən dairələr və ya onların əlaltısı olan qruplardır.

Biz xatırlayırıq, 44 günlük Vətən müharibəsindən sonra Lüksemburqun xarici işlər naziri də absurd bəyanatlarla çıxış etmişdi. O vaxt cənab Prezident İlham Əliyevin Lüksemburqun ünvanına "müqayisə üçün sizə deyə bilərəm ki, bizim azad etdiyimiz ərazilər dörd Lüksemburq ərazisinə bərabərdir. Ona görə də Lüksemburqun xarici işlər naziri, yaxşı olardı, öz qayğısına qalsın və bu eyhamlara son qoysun" məzmunlu çox tutarlı reaksiyasını bu ölkənin deputatlarına da xatırlatmaq yerinə düşər.

Yeri gəlmişkən, COP29 uğuru Azərbaycana qarşı qarayaxma kampaniyasının təşkilatçılarının və icraçılarının da ifşası oldu.

**Xanlar Fətiyev.** Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın regionları sürətli və davamlı inkişaf yoluna qədəm qoymuşdur. Onun rəhbərliyi ilə həyata keçirilən müdrik siyasət ölkə iqtisadiyyatının möhkəmləndirilməsinə, bölgələrdəki infrastruktur layihələrinin genişləndirilməsinə, sosial şəraitin yaxşılaşdırılmasına və həyat keyfiyyətinin artırılmasına mühüm töhfələr vermişdir.

Cənab Prezident vəzifəyə gəldiyi ilk gündən ölkədə regionların inkişafını əsas prioritetlərdən biri olaraq müəyyən etmişdir. Regionlarda sənaye, kənd təsərrüfatı, turizm, nəqliyyat və digər sahələrdə həyata keçirilən böyük layihələr işsizliyin azaldılmasına, yerli iqtisadiyyatın güclənməsinə və əhalinin rifah halının yüksəlməsinə səbəb olmuşdur.

Bu məqsədlə Azərbaycanın müxtəlif bölgələrində müasir infrastrukturun yaradılması üçün böyük investisiyalar qoyulmuşdur. Yolların təmiri və yenidən qurulması, su və kanalizasiya sistemlərinin çəkilməsi, elektrik və qaz təchizatı şəbəkələrinin möhkəmləndirilməsi, müasir xəstəxanalar və məktəblərin tikilməsi kimi layihələr bölgələrdə əhalinin həyat şəraitini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır.

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət sayəsində kənd təsərrüfatı sektorunda da böyük irəliləyişlər əldə edilmişdir. Yeni texnologiyaların tətbiqi, suvarma sistemlərinin təkmilləşdirilməsi və kənd təsərrüfatı məhsullarının emalı sahəsində görülən işlər bölgələrin iqtisadi inkişafını sürətləndirmiş, kənd təsərrüfatı sahəsində çalışanların həyat səviyyəsini yüksəltmişdir.

Eyni zamanda, Azərbaycanın regionlarında iş yerlərinin yaradılması və sahibkarlığın inkişafı üçün geniş tədbirlər həyata keçirilmişdir. Sahibkarlara vergi güzəştləri, kreditlər və digər dəstək mexanizmləri sayəsində kiçik və orta biznesin inkişafı təşviq olunmuş, bu da regionlarda sosial sabitliyin və iqtisadi rifahın təmin edilməsinə yardım etmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın regionları daha güclü, müasir və inkişaf etmiş bir

əraziyə çevrilmişdir. Onun siyasəti sayəsində bu gün Azərbaycan həm regional, həm də beynəlxalq miqyasda nüfuzlu bir ölkə olaraq tanınır və ölkə daxilində hər bir region öz inkişafına nail olmaq yolunda mühüm addımlar atmaqda davam edir.

Deputat seçildiyim 98 saylı Bərdə–Tərtər seçki dairəsi ilə bağlı bəzi kifayət qədər aktual və önəmli məsələlərə toxunmaq istərdim.

Möhtərəm cənab Prezident İlham Əliyevin diqqət və qayğısı ilə ölkənin bütün regionlarında olduğu kimi, Bərdə rayonunda da yol infrastrukturunun yaxşılaşdırılması və yenidən qurulması məqsədi ilə irimiqyaslı layihələr uğurla icra edilmiş və davamlı olaraq daim diqqət mərkəzində saxlanılmışdır.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 18 iyul tarixli Sərəncamı ilə uzunluğu 22,2 kilometr olan, 24 min nəfərə xidmət edən və ümumilikdə, 14 yaşayış məntəqəsini özündə birləşdirən Alpout–Mustafaağalı–Qaratəpə–Nazırlı kəndlərarası avtomobil yolunun, 2014-cü il 14 avqust tarixli 681 nömrəli Sərəncamı ilə uzunluğu 15,5 kilometr olan, 10 min nəfərə xidmət göstərən və 11 yaşayış məntəqəsini özündə birləşdirən Mollaisalar–Vəliuşağı–Mollaəhmədli–Sərkarlar kəndlərarası avtomobil yolunun, 2015-ci il 13 mart və 2017-ci il 26 iyul tarixli sərəncamları ilə uzunluğu 25 kilometr olan, 15 min nəfərə xidmət göstərən və 17 yaşayış məntəqəsini özündə birləşdirən Yeni Daşkənd–Umudalılar kəndlərarası avtomobil yolunun, 2018-ci il 26 mart tarixli Sərəncamı ilə uzunluğu 17,5 kilometr olan, 13,4 min nəfərə xidmət edən və 9 yaşayış məntəqəsini özündə birləşdirən Muğanlı–Körpüsındıran kəndlərarası avtomo-

bil yolunun, 2022-ci il 8 iyul tarixli  Sərəncamı ilə uzunluğu 8 kilometr olan, 4 min nəfərə xidmət edən və 3 yaşayış məntəqəsini özündə birləşdirən Qarağacı–Mirzəcəfərli–Mollagüllər kəndlərarası avtomobil yolunun yenidən qurulması tapşırıqları uğurla icra edilmişdir.

Lakin bunlarla yanaşı, qeyd etmək istərdim ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın Bərdə rayonu üzrə 7.3.10.4. bəndi isə (Yerli əhəmiyyətli avtomobil yollarının, eləcə də kəndlərin giriş yollarının və kəndlərarası avtomobil yollarının tikintisinin, yenidən qurulmasının və əsaslı təmirinin davam etdirilməsi, o cümlədən Əmirli–Xanağalı–Uğurbəyli avtomobil yolunun yenidən qurulması) icra edilməmişdir.

Uzunluğu 27 kilometr olan, 13,5 min nəfərə xidmət göstərəcək və 11 yaşayış məntəqəsini özündə birləşdirən Əmirli–Xanağalı–Uğurbəyli kəndlərarası yolun yenidən qurulması üçün layihə-smeta sənədləri hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuş və növbəti ilin dövlət investisiya proqramına salınması nəzərdə tutulmuşdur. Nəzərə alsaq ki, Bərdə aqrar rayon olaraq,  əhalinin əsas məşğuliyyətini maldarlıq və əkinçilik təşkil edir və beləliklə, kənd sakinlərinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarını asanlıqla şəhər mərkəzinə çıxarmalarında yol infrastrukturunun rahat olması mühüm rol oynayır.

Rayon ərazisində torpaqların suvarma suyuna olan tələbatının ödənilməsinə, ümumilikdə, 877 ədəd subartezian quyusu xidmət edir. 2003–2019-cu illərdə, ümumilikdə, 230 ədəd və 2019–2023-cü illərdə 40 ədəd subartezian

quyusu qazılaraq əhalinin istifadəsinə verilmişdir. Cənab Prezidentin sərəncamı ilə suvarma suyuna olan tələbatın ödənilməsi məqsədi ilə Bərdə rayonu ərazisində qazılması və istifadəyə verilməsi planlaşdırılmış, ümumilikdə, 29 ədəd subartezian quyusundan 8 ədəd subartezian quyusu hazırda istismara verilmiş və digər 21 ədəd subartezian quyusunun qazılması planlaşdırılıb. Həmin quyular qazılaraq istismara verildikdən sonra rayonda suvarma suyuna olan tələbat minimuma endiriləcək.

Rayon ərazisində içməli suya olan tələbatın ödənilməsinə 72 ədəd artezian quyusu xidmət göstərir və həmin quyuların 14-ü kəndlərin payına düşür. Hazırda rayonun Kələntərli, Bəcirəvan, Piyadalar, Hacallı, Qurdlar, Qullar, Çələbilər, Qaradəmirçi, Lək, Qazıqurdalı, Əliyanlı, Muğanlı, Qarayusifli, Şahvəlilər, Qazaxlar kəndlərində içməli suya olan tələbatı ödəmək üçün subartezian quyularının qazılmasına ehtiyac vardır.

Yaradılan bu fürsətdən istifadə edərək, hörmətli nazirlərimizdən bu vacib problemlərin həlli ilə bağlı müəyyən addımların atılmasını xahiş edirəm.

Çıxışımın sonunda bildirmək istərdim ki, büdcəmiz xalqımızın sosial rifah halına daha yaxşı xidmət edəcək bir büdcədir. Sənədin hazırlanmasında əməyi keçən hər kəsə təşəkkür edirəm və büdcə layihəsinin lehinə səs verəcəyəm.

## MÜNDƏRİCAT


25 noyabr 2024-cü il ........................................................... 3

Edilməmiş çıxışların mətnləri............................................. 131

Yeddinci çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

Birinci sessiya
Payız

9-cu cild

25 noyabr 2024-cü il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  9,0. Sifariş 3. Tiraj 150.